RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 74 (9241) 11 APREL 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycan-Qazaxıstan münasibətləri müttəfiqliyin keyfiyyətcə yeni mərhələsinə qədəm qoyur

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana rəsmi səfəri



## Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda qarşılanma



**Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasına rəsmi səfər edib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Qazaxıstanın Baş naziri Alixan Smailov və digər rəsmi şəxslər qarşıladılar.

## Rəsmi qarşılanma mərasimi



→ 2

Məhdud tərkibdə görüş → 3

Geniş tərkibdə görüş → 3-4

Sənədlərin imzalanması → 4-5

Mətbuata bəyanatlar → 5-6

Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul təşkil edilib → 7

Astanada Heydər Əliyev küçəsi açılıb



→ 7-8

Astana Beynəlxalq Maliyyə Mərkəzi ilə tanışlıq → 8

Səfər başa çatdı → 8

## 5 il öncə Azərbaycan seçicilərinin mütləq əksəriyyəti İlham Əliyevə növbəti prezidentlik müddəti üçün etimad göstərdi




## Zamanı qabaqlayan addımların, layihələrin, hadisələrin başlanğıc anı

**Prezident göstəriş verdi - tez-tez eşitdiyimiz ifadədir!**

Həm də hamımız yaxşı bilirik ki:

*Bu, adi göstəriş deyil, ali göstəriş sayılır!*

*Bu göstəriş böyük dövlətin mürəkkəb icra mexanizminin hansısa bir qovşağının işə salınması deməkdir!*

Belə ki, ali göstəriş gələn kimi icra sistemi işə düşərək tapşırığı yerinə yetirməyə başlayır.

**Adətən, Prezident öz göstərişi ilə hansısa vaxtı çatmış məsələnin həllinə yaşıl işıq yandırır.**

*Beləliklə, gecikmələrə yol verilmədən hər iş vədəsində görülərək başa çatır, dalaqalma və ləngimə halları baş vermir.*

**Ötən dövrdə görülən işlər və icra olunan layihələr göstərir ki, Azərbaycan Prezidenti İlham Əliyevin göstərişləri həm də zamanı və hadisələri qabaqlama xarakteri daşıyır!**

*Bu göstəriş reallaşma mərhələsinə çatanda fərmana, sərəncama, bəzən hətta əmrə də çevrilə bilir.*

*Artıq sirr deyil ki, heç kimin bilmədiyi, proqnoz etmədiyi, hətta ağlına belə gətirmədiyi məsələlərdə İlham Əliyev hamını önləməyi bacarır.*

**Həm də artıq bu qabaqlamalar onun dəyişməz iş üslubuna çevrilib!**

**Bunu cənab İlham Əliyev prezidentliyinin iyirmi ili ərzində dəfələrlə sübuta yetirib!**

❖❖❖

Qeyd olunduğu kimi, adətən, nəhəng layihələrin icrasına Prezidentin göstərişi ilə başlanılır.

Tapşırıq əsasında işçi qrupu yaradılır, məsələ araşdırılır, öyrənilir, zəruri tədqiqatlar aparılır, müəyyən təkliflər söylənilir.

Növbəti mərhələdə ehtiyac duyularsa, layihənin geoloji əsasları, maliyyə mənbəyi, texniki parametrləri müəyyənləşdirilir.

Sonra müvafiq qərar layihəsi hazırlanır.

*Göstərişdən başlayaraq fərman və ya sərəncamla başa çatan ideya gerçəkləşmə mərhələsinə qədəm qoyur.*

**Beləliklə, çox mühüm bir layihənin, xalqımızın və dövlətimizin maraqlarına xidmət edən, gücümüzü artıraraq rifahımızı yüksəldəcək ideyanın real işə çevrilməsinə başlanır.**

→ 10-11

# İLHAM ƏLİYEV Zəfərinin Şuşa zirvəsi

## Şuşaya azadlıq bəxş edən Müzəffər Ali Baş Komandan indi onun quruculuğunun baş memarıdır

1752-ci ildə Pənahəli xanın tikdirdiyi qədim Şuşamız 28 il erməni barbarlarının vəhşilikləri nəticəsində dağıdıldı, məhv edildi. Amma Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Ali Baş Komandan İlham Əliyev imkan vermədi ki, Hayastan qədim şəhərimizi özününküləşdirsin. Müzəffər Ali Baş Komandan 200 əsrlik münaqişəyə, 30 illik müharibəyə son qoyaraq Azərbaycana qərinələr, əsrlər sonra böyük zəfər qazandırdı. Azərbaycan xalqının əsl qəhrəman oğlu kimi 39 ildən sonra Şuşaya qalib sərkərdə kimi ayaq basdı. Şuşada dalğalandırdığı bayrağın kölgəsi bütün Qarabağa düşdü, Şuşada yandırdığı Novruz tonqalının istisi bütün Azərbaycana yayıldı, xalqın ürəyi dağa döndü.

→ 16

## Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana rəsmi səfəri

# Azərbaycan-Qazaxıstan münasibətləri müttəfiqliyin

## Rəsmi qarşılanma mərasimi













**Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstanın paytaxtı Astananın "Akorda" Prezident Sarayında rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, "Akorda" Prezident Sarayında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı. Qazaxıstanın nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Prezident Kasım-Jomart Tokayevə təqdim edildilər. Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi. Azərbaycanın və Qazaxıstanın Dövlət himnləri səsləndirildi.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Dövlət başçıları birgə foto çəkdirdilər.

## Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana rəsmi səfəri

# keyfiyyətcə yeni mərhələsinə qədəm qoyur

## Məhdud tərkibdə görüş



**Aprelin 10-da Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə məhdud tərkibdə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən **Prezident Kasım-Jomart TOKAYEV** dedi:

- Bizdə qəbul edildiyi kimi desək, "Xoş gəldiniz".

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Prezident Kasım-Jomart TOKAYEV:** Sizi rəsmi səfərdə görməyimizə şadıq. Mənim dəvətimi qəbul etdiyinizə görə minnətdarlığımı bildirmək istərdim. Keçən ilin avqust ayında mən Bakıya səfər etdim. Bu səfər olduqca səmərəli keçdi və ikitərəfli münasibətlərin inkişafına ciddi təkan verdi. İndi, necə deyərlər, saatları tutuşdurmaq, prezidentlərin tapşırıqlarının iki ölkənin hökumətləri tərəfindən necə icra edilməsini yoxlamaq zərurəti yaranıb.

Qeyd etmək istərdim ki, Azərbaycan Qazaxıstan üçün qardaş dövlətdir, çox yaxın dövlətdir. Biz öz tərəfimizdən ticari-iqtisadi, investisiya sahələrində və əlbəttə, siyasi arenada istər ikitərəfli formatda, istərsə də beynəlxalq təşkilatlarda qarşılıqlı fəaliyyət üçün hərtərəfli əməkdaşlığı inkişaf etdirməkdən ötrü nə mümkündürsə edirik. Çox iş görülüb. Fikrimcə, geniş tərkibdə görüşdə bu barədə danışacağıq. Bundan əlavə, müvafiq nazirlərin məruzələrini dinləyəcəyik, onlar görülmüş işlər barədə hesabat verməlidirlər, əməkdaşlığın daha da inkişaf etdirilməsinə dair planlar cızacağıq.

Biz Sizin səfərinizə hazırlaşmışıq. Yəqin ki, eşitmisiniz, Qazaxıstan Teleradio Korporasiyası mənim tapşırığıma əsasən görkəmli dövlət xadimi Heydər Əliyevin 100 illiyinə həsr edilmiş xüsusi sənədli film hazırlayıb. Bu axşam onu qazax və rus dillərində göstərəcəklər.

Qazaxıstanda Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş markanın buraxıldığını bildirən Kasım-Jomart Tokayev Ulu Öndərin ölkələrimiz arasında əməkdaşlığın qurulması və inkişafındakı böyük tarixi rolunun xatırlandığını qeyd etdi. Qazaxıstan Prezidenti dövlət başçılarının birlikdə Astananın nüfuzlu rayonunda Ümummilli Lider Heydər Əliyevin adını daşıyan küçənin açılışını edəcəklərini bildirdi.

**Prezident Kasım-Jomart TOKAYEV:** Əlbəttə, biz Cənubi Qafqaz regionunda lider rolu oynayan Azərbaycan ilə iqtisadi sahədə qarşılıqlı əlaqələrin, əməkdaşlığın inkişaf etdirilməsinə dair çox ciddi iş aparmaq əzmindəyik. Bizim aramızda hər hansı problem yoxdur. Yalnız məhz bu istiqamətdə irəli getmək arzusu var. Sizə təşəkkür edirəm.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV** dedi:

-Hörmətli Kasım-Jomart Kemeleviç, ilk növbədə dəvətə və qonaqpərvərliyə görə sağ olun.

Heydər Əliyevin xatirəsinə hörmətinizə görə bəri başdan öz adımdan, Azərbaycan xalqı adından təşəkkürümü bildirmək istərdim. Sizin tapşırığınıza əsasən Qazaxıstanda həm Heydər Əliyevin xatirəsinə, həm də Azərbaycan xalqına öz münasibətinizi bildirmək üçün görülən işləri qeyd etdiniz. Paytaxtınızın mərkəzi küçələrindən birinə Heydər Əliyevin adının veriləcəyinə görə, eləcə də filmə görə təşəkkür edirəm. Ümumiyyətlə, biz həmişə bütün Qazaxıstan xalqının ölkəmizə xeyirxah münasibətini hiss etmişik, yəqin ki, Siz də Azərbaycana rəsmi səfəriniz çərçivəsində bunu hiss etmisiniz. Bizim rəsmi səfərlər çərçivəsində belə tez-tez görüşməyimiz həm münasibətlərimizin xarakterinə, həm də ona dəlalət edir ki, daim əlaqə saxlamağımız zəruridir. Ona görə ki, biz müxtəlif beynəlxalq məkanlarda müntəzəm görüşürük, lakin ikitərəfli format ən səmərəli formatdır.

Sizin səfərinizdən bir ildən az vaxt keçib, lakin həm tapşırıqlarımızın icrasına nəzarət, həm də qarşılıqlı fəaliyyəti gücləndirmək üçün yeni addımlar atılması baxımından gündəliyə nəzər salmaq zəruridir. Siz qeyd etdiyiniz kimi, ölkələrimiz bir-birinə səmimi, qardaşcasına münasibət bəsləyirlər. Bu, ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı zəmindir. Əməkdaşlığın istiqamətlərinə gəldikdə isə, onların sadalanması yəqin ki, çox vaxt tələb edərdi, çünki bu istiqamətlər praktiki olaraq həyatımızın bütün sahələrini əhatə edir. Lakin, əlbəttə, indiki şəraitdə təbii ki, ticari-iqtisadi, investisiya layihələri, nəqliyyat-logistika infrastrukturu və ölkələrimizin bu istiqamətlərdə səylərinin birləşdirilməsi ilə bağlı layihələr prioritet əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, mənimlə birlikdə çox nüfuzlu nümayəndə heyəti, çoxlu nazir, dövlət strukturlarının rəhbərləri gəliblər. Əminəm ki, qardaş Qazaxıstan torpağında olan nümayəndə heyətinin üzvləri də fəallıq göstərəcək, biz yaxşı nəticələrə nail olacağıq və görülmüş işlərə yekun vurmaq üçün növbəti həddi müəyyən edəcəyik. Qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm.

**Prezident Kasım-Jomart TOKAYEV:** Mən əlavə etmək istərdim ki, Qazaxıstan statistikasına görə, təkcə keçən il ərzində ölkələrimiz arasında ticarətin həcmi 40 faiz artaraq yarım milyard dolları ötüb.

❖ ❖ ❖

Görüş əsnasında Azərbaycan ilə Qazaxıstan arasında ticarət dövriyyəsində 40 faiz artımın olması müsbət addım kimi qeyd edildi. Dövlət başçıları ölkələrimiz arasında ticarət dövriyyəsinin bir milyard dollara çatdırılması üçün imkanların olduğunu vurğuladılar.

Eyni zamanda görüşdə Qazaxıstan neftinin Azərbaycan ərazisindən ixracı, nəqliyyat-logistika imkanlarının daha da artırılması, kənd təsərrüfatı sahəsində əməkdaşlıq, həmçinin birgə investisiya layihələri məsələləri müzakirə olundu, Xəzər dənizinin dibi ilə fiber-optik xətlərin çəkilməsi istiqamətində də sürətli inkişafın olduğu qeyd edildi. Həmçinin dövlətlərimizin ikitərəfli siyasi dialoqunun yüksək səviyyədə olduğu, beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq etdiyi vurğulandı.

Söhbət zamanı regional məsələlər haqqında da fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev Azərbaycanın Cənubi Qafqaz regionunda sülhün və sabitliyin təmin olunması, Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsinin imzalanması istiqamətində atdığı addımlar barədə məlumat verdi.

Görüşdə Azərbaycanın nəqliyyat imkanlarının daha da genişləndirilməsi, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin və Bakı Limanının imkanlarının artırılması istiqamətində səyləri barədə də məlumat verildi.

Prezident Kasım-Jomart Tokayev Qazaxıstanın nəqliyyat imkanlarının artırılması haqqında məlumat verdi.

Söhbət zamanı iki ölkənin nəqliyyat infrastrukturunun sinxronlaşdırılması, yüklərin daha sərbəst və sürətli keçidinin təmin edilməsinin önəmi qeyd olundu.

## Geniş tərkibdə görüş

**Aprelin 10-da Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə geniş tərkibdə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı İlham Əliyevi salamlayan **Prezident Kasım-Jomart TOKAYEV** dedi:

- Hörmətli İlham Heydər oğlu.

Əziz dostlar.

Əsrlər boyu bizi sarsılmaz dostluq və qarşılıqlı hörmət telləri bağlayır. Tarixi köklər, coğrafi yaxınlıq və çoxillik sıx əlaqələr iki ölkə arasında əməkdaşlığın dərinləşdirilməsi üçün zəmin olub. Biz qarşılıqlı faydalı münasibətlərin daha da inkişaf etdirilməsində maraqlıyıq. Bu bizim ümumi məqsədimizdir.

Azərbaycan bizim üçün, sadəcə, mühüm və etibarlı tərəfdaş deyil, qardaş, yaxın dövlətdir. Biz çoxəsrlik sarsılmaz dostluq, qarşılıqlı dəstək tellərinə güvənərək səmərəli dövlətlərarası əməkdaşlıq yaratmışıq. Bu gün bu əməkdaşlıq əsl strateji tərəfdaşlıq və müttəfiqlik ruhunda inkişaf edir. Ölkələrimiz arasında etimada əsaslanan fəal siyasi dialoq yaranıb. Hökumət səviyyəsində nizamlanmış iş aparılır, çoxtərəfli məkanlar çərçivəsində konstruktiv qarşılıqlı fəaliyyət həyata keçirilir. Bizdə sanballı müqavilə-hüquqi baza formalaşıb. Artıq 90-dan çox sənəd imzalanıb.

Keçən il biz strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamə, habelə 2026-cı ilə qədər olan dövrdə əməkdaşlığın inkişafına dair kompleks proqram imzalamışıq. Bu gün də bir sıra mühüm sənədlər qəbul ediləcək. Bundan əlavə, Sizin səfəriniz çərçivəsində biz Ali Dövlətlərarası Şuranın təsis olunmasını təsbit edəcəyik. Bu, şübhəsiz ki, ikitərəfli münasibətlərə güclü təkan verəcək.

Ticari-iqtisadi sahədə qarşılıqlı fəaliyyətimizin əhəmiyyətli dərəcədə irəliləməsini məmnuniyyətlə qeyd etmək istərdim. Bu gün, qeyd etdiyimiz kimi, əmtəə dövriyyəsi 40 faiz artıb və yarım milyard dollara çatıb. Fikrimcə, bu, sanballı nəticədir. Əminəm ki, iqtisadi potensialımız tam surətdə açıldıqca biz bu göstəricini bir milyard dollara çatdıra bilərik. Bundan ötrü energetika, nəqliyyat, logistika, İT, kənd təsərrüfatı, sənaye və digər sahələrdə ciddi ehtiyatlarımız var.

Mədəni-humanitar əlaqələr durmadan möhkəmlənir. Burada bizim milliyyətcə azərbaycanlı olan 130 min vətəndaşımız əsas əlaqələndirici vasitə kimi çıxış edir və onların bir hissəsi, bəlkə də, kiçik bir hissəsi bu gün görkəmli dövlət xadimi Heydər Əliyevin şərəfinə adlandırılmış küçənin açılışında iştirak edəcək. Biz onları məxsusi dəvət etmişik.

İki ölkənin mədəniyyət ongünlüklərinin keçirilməsi barədə razılaşmanı xüsusi vurğulamaq istəyirəm. Qazaxıstan mədəniyyət günləri artıq bu il keçiriləcək. Bu gün biz hörmətli Azərbaycan Prezidenti ilə birlikdə görkəmli dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin adını daşıyan küçənin açılışını edəcəyik. Bu hadisəni Azərbaycan xalqının böyük oğlunun 100 illiyinə həsr edəcəyik.

Bu gün Heydər Əliyev haqqında "Əziz ömür" - "Görkəmli həyat" adlı sənədli filmin premyerası olacaq. Təbii ki, bu film bizim tapşırığımıza əsasən Qazaxıstan Teleradio Korporasiyası tərəfindən çəkilib. Qazax xalqının Azərbaycana hədiyyəsi - Füzuli şəhərində Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi ölkələrimizin səmimi dostluğuna və qarşılıqlı dəstəyinə daha bir parlaq sübutdur. Mənə bildiriblər ki, bu obyektin tikintisi kifayət qədər sürətlə həyata keçirilir. Fikrimcə, lap yaxın vaxtlarda biz bu obyektin fəaliyyətə başlamasını görə biləcəyik. Biz bundan sonra da hərtərəfli humanitar əlaqələri hər vasitə ilə inkişaf etdirmək, ortaq mənəvi-mədəni dəyərlər xəzinəsini zənginləşdirmək əzmindəyik.

Hörmətli İlham Heydər oğlu, Sizinlə məhdud tərkibdə danışıqlarda bizim gündəlikdəki bəzi aktual mövzuları ətraflı müzakirə etdik, dövlətlərimizin qarşılıqlı fəaliyyətinin yeni artım nöqtələrini müəyyənləşdirdik, beynəlxalq strukturlar çərçivəsində dialoqun möhkəmləndirilməsinə dair fikir mübadiləsi apardıq. Bütün bu məqamlar bizim bu gün imzalayacağımız birgə bəyanatda müvafiq şəkildə əks olunacaq.

Bir daha əmin olduğumu bildirirəm ki, Sizin Qazaxıstana səfəriniz böyük əhəmiyyət kəsb edir. Şübhəsiz ki, bu səfər ölkələrimiz arasında müttəfiqlik qarşılıqlı münasibətlərinin inkişafına güclü təkan verəcək. Sözü Sizə vermək istərdim.

❖ ❖ ❖

Görüşdə çıxış edən **Prezident İlham ƏLİYEV** dedi:

- Sağ olun, hörmətli Kasım-Jomart Kemeleviç.

İlk növbədə dəvətə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Mən yenidən qardaş Qazaxıstan torpağında olmağıma və Sizinlə dialoqumuzu davam etdirməyə çox şadam. Keçən ilin avqust ayında Sizin Azərbaycana səfəriniz barədə yaxşı xatirələrim var. Bu gün biz Sizinlə ilk görüşümüzdə məmnuniyyətlə qeyd etdik ki, qəbul etdiyimiz qərarlar həyata keçirilir. Əminəm ki, mənim Qazaxıstana səfərim çərçivəsində qəbul edəcəyimiz qərarlar da reallaşacaq.

Heydər Əliyevin xatirəsinin ehtiramla yad edilməsinə, Qazaxıstan paytaxtının mərkəzi küçələrindən birinə onun adının verilməsinə, Siz mənim atamın və Azərbaycan xalqının Ümummilli Liderinin xatirəsini ehtiramla yad etdiyinizə görə bir daha öz adımdan və bütün Azərbaycan xalqı adından təşəkkürümü bildirmək istərdim.

İşğaldan azad edilmiş Qarabağda Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin tikilməsi barədə Sizin şəxsi qərarınıza görə də təşəkkürümü bildirmək istərdim. Mərkəzin tikintisi, həqiqətən, çox sürətlə gedir və fürsətdən istifadə edib Sizi bu mərkəzin açılışı mərasiminə dəvət etmək istəyirəm. Bu, xalqlarımızın dostluğunun və qardaşlığının yaxşı rəmzi olacaq, ona görə ki, biz dağıdılmış infrastrukturun, o cümlədən sosial infrastrukturun bərpa edilməsi üzrə çox böyük işlər görməliyik. Qardaş Qazaxıstanın belə bir təşəbbüsü, əlbəttə, bütün azərbaycanlılarda böyük təşəkkür hissi doğurur.

→ 4

## Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana rəsmi səfəri

# Azərbaycan-Qazaxıstan münasibətləri müttəfiqliyin

## Geniş tərkibdə görüş



3 ←

Biz münasibətlərimizin müsbət fonunu möhkəmləndiririk. Xalqlarımız arasında münasibətlərin böyük tarixi var və bu münasibətlər həmişə qardaşlar arasındakı kimi olub. Bu gün gələcəyimizi bu möhkəm təməl üzərində qururuq. Sizinlə müzakirə etdiyimiz əməkdaşlıq sahələrində, ilk növbədə energetika, nəqliyyat-tranzit sahəsində çox böyük potensial var. Təsadüfi deyil ki, Qazaxıstan nümayəndə heyətində olduğu kimi, bizim nümayəndə heyətinin tərkibində də müvafiq strukturların rəhbərləri təmsil olunublar. Onların məsələlərin konkret həll yollarını müzakirə etməkdən ötrü bütün bürokratik, inzibati maneələri aradan qaldırmaları Trans-Xəzər dəhlizinin təkcə coğrafi və geosiyasi baxımdan deyil, həm də iqtisadi baxımdan cəlbediciliyi üçün yaxşı fürsət olacaq. Fikrimcə, bundan ötrü kifayət qədər imkan var.

Onu da qeyd etməyi zəruri sayıram ki, humanitar sahədə əməkdaşlıq birinci dərəcəli əhəmiyyət kəsb edir. Azərbaycanda Qazaxıstan mədəniyyəti günləri, Qazaxıstanda Azərbaycan mədəniyyəti günləri təşkil ediləcək. Bu, xalqlarımızı daha da yaxınlaşdıracaq, qədim tariximizi və mədəniyyətimizi daha da zənginləşdirəcək. Hesab edirik ki, məhz humanitar əlaqələr bizim dövlətlərarası münasibətlərin qurulmasının əsasıdır. Əlbəttə, qarşılıqlı maraq doğuran sahələr çoxdur. Biz, həqiqətən, qarşılıqlı fəaliyyətin müttəfiqliyin keyfiyyətcə yeni səviyyəsinə qədəm qoyuruq və bu bu gün imzalanacaq Bəyannamədə artıq əks olunub. Beləliklə, biz ölkələrimizin və xalqlarımızın uğurlu birgə gələcəyini bir çox onilliklər qədər irəlicədən müəyyən edirik.

Onu da qeyd etməyi vacib hesab edirəm ki, Qazaxıstan və Azərbaycan bütünlükdə öz xüsusi resurslarına güvənən, xarici köməkdən asılı olmayan və öz taleyini, öz gələcəyini özləri quran ölkələrdir. Bu da bugünkü dünya siyasətində ən mühüm amildir. Düşünürəm ki, bizim ölkələrimizin milli maraqlarının müdafiəsinə prinsipial yanaşma nümayiş etdirməyimiz də xalqlarımızın xarakterinə dəlalət edir. Dəvətə görə bir daha təşəkkürümü bildirmək istərdim.

Ümidvaram ki, bizim müəyyənləşdirdiyimiz bütün məsələləri geniş tərkibdə və bir qədər sonra daha ətraflı müzakirə edəcəyik. Sağ olun.

**Prezident Kasım-Jomart TOKAYEV:** Təşəkkür edirəm. Ticarət, kənd təsərrüfatı, logistika və başqa sahələrdə əməkdaşlığın perspektivləri barədə Sizin dəyərləndirmələrinizlə razıyam.

❖ ❖ ❖

Görüş əsnasında media və kommunikasiya sahəsində əməkdaşlıq məsələləri müzakirə olundu, bu sahədə nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin önəmi vurğulandı. Qazaxıstan Dövlət Televiziyası tərəfindən Ulu Öndər Heydər Əliyevə həsr olunmuş filmin hazırlandığı və həmin filmin bu günlərdə Qazaxıstan Dövlət Televiziyasında nümayiş olunacağı bildirildi. Filmin eyni zamanda Azərbaycan Televiziyasında nümayiş etdiriləcəyi də vurğulandı. Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinin Qazaxıstanda dərin hörmət və ehtiramla yad olunduğu qeyd edildi.

Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin xatirəsinə göstərilən hörmət və ehtirama görə təşəkkürünü bildirdi.

Prezident Kasım-Jomart Tokayev Azərbaycan Prezidentinin səfərinin böyük əhəmiyyət daşıdığını vurğuladı, səfər çərçivəsində imzalanacaq sənədlərin və aparılmış müzakirələrin ölkələrimiz arasında münasibətlərin keyfiyyətcə yeni səviyyəyə qalxmasına şərait yaratdığını qeyd etdi.

Görüş əsnasında Qazaxıstan tərəfindən hökumətlərarası komissiyanın rəhbəri bu günə qədər görülmüş işlər haqda məruzə ilə çıxış etdi. Azərbaycan tərəfindən iqtisadiyyat naziri, rəqəmsal inkişaf və nəqliyyat naziri görülən işlər barədə məruzələrlə çıxış etdilər.

Həmçinin dövlət başçıları bu gün imzalanacaq sənədlər arasında Yüksəksəviyyəli Dövlətlərarası Şuranın yaradılmasını çox müsbət addım kimi qiymətləndirdilər. Bunun Azərbaycanla Qazaxıstan arasında münasibətlərin keyfiyyətcə yeni səviyyəyə qaldırılmasının nümunəsi olduğu vurğulandı. Eyni zamanda Qazaxıstan Prezidentinin Azərbaycana səfəri zamanı imzalanmış sənədin ölkələrimiz arasında münasibətlərin məhz müttəfiqlik əsasında inkişafı üçün zəmin yaratdığı qeyd olundu.

Dövlət başçıları aidiyyəti üzrə nazirlərə tapşırıqlarını verdilər.

## Sənədlərin imzalanması

**Aprelin 10-da Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Qazaxıstan sənədlərinin imzalanması mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası Ali Dövlətlərarası Şurasının yaradılması haqqında Protokolu" və dövlət başçılarının birgə bəyanatını imzaladılar.

"Azərbaycan Dövlət İnformasiya Agentliyi - AZƏRTAC ilə "Qazaxıstan Respublikası Prezidentinin Teleradiokompleksi" Qeyri-Kommersiya Səhmdar Cəmiyyəti arasında qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında Memorandum"u AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev və "Qazaxıstan Respublikası Prezidentinin Teleradiokompleksi" Qeyri-Kommersiya Səhmdar Cəmiyyətinin baş direktoru Rauşan Kajibayeva imzaladılar.

→ 5



## Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana rəsmi səfəri

# keyfiyyətcə yeni mərhələsinə qədəm qoyur

## Sənədlərin imzalanması





4 ←

"Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ilə Qazaxıstanın Tətbiqi Etnosiyasi Araşdırmalar İnstitutu arasında elmi və mədəni əməkdaşlıq haqqında Memorandum"u Azərbaycan Respublikasının Qazaxıstan Respublikasındakı səfiri Ağalar Atamoğlanov və Qazaxıstanın Tətbiqi Etnosiyasi Araşdırmalar İnstitutunun direktoru Talqat Kaliyev imzaladılar.

"Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Qazaxıstanın Xarici Ticarət Palatası arasında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov və Qazaxıstanın Xarici Ticarət Palatasının İdarə Heyətinin sədri Ayan Yerenov imzaladılar.

"Azərbaycan Milli Elmlər Akademiyası və Qazaxıstan Respublikasının Milli Elmlər Akademiyası arasında elm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli və "Qazaxıstan Respublikasının Milli Elmlər Akademiyası" Respublika İctimai Birliyinin prezidenti Murat Jurinov imzaladılar.

"Azərbaycan Respublikasının Diaspora ilə İş üzrə Dövlət Komitəsi ilə Qazaxıstan Respublikasının "Otandastar Fondu" arasında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının Qazaxıstan Respublikasındakı səfiri Ağalar Atamoğlanov və Qazaxıstan Respublikasının "Otandastar Fondu"nun prezidenti Abzal Saparbekulı imzaladılar.

"Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Qazaxıstan Respublikasının İnformasiya və İctimai İnkişaf Nazirliyi arasında anlaşma və əməkdaşlıq haqqında Memorandum"u Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbov və Qazaxıstan Respublikasının informasiya və ictimai inkişaf naziri Darxan Kıdırali imzaladılar.

## Mətbuata bəyanatlar

**Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev mətbuata bəyanatlarla çıxış ediblər. AZƏRTAC xəbər verir ki, əvvəlcə Qazaxıstan Prezidenti bəyanatla çıxış etdi.**



### Prezident Kasım-Jomart Tokayevin bəyanatı

- Hörmətli İlham Heydər oğlu.

Hörmətli xanımlar və cənablar.

Mən bu gün aparılmış tamformatlı danışıqların nəticələrini yüksək qiymətləndirirəm. Bu danışıqlar hər ikimizin ikitərəfli əlaqələri hər vasitə ilə möhkəmləndirmək əzmində olduğumuzu bir daha təsdiq etdi. Hörmətli İlham Heydər oğlu ilə səmimi şəraitdə əməkdaşlığımızın bütün aspektlərinə dair fikir mübadiləsi apardıq, necə deyərlər, regional və beynəlxalq problemlər barəsində saatlarımızı tutuşdurduq, iki ölkənin qarşılıqlı əlaqələrinin perspektivlərini və daha da dərinləşdirilməsi istiqamətlərini müzakirə etdik.

Bizim ortaq səylərimiz sayəsində son illərdə Qazaxıstan ilə Azərbaycan arasında münasibətlər daha açıq və hərtərəfli xarakter kəsb edib. Siyasi, ticari-iqtisadi, mədəni-humanitar əməkdaşlıq fəallaşıb. Yarım ildən bir qədər çox əvvəl biz strateji tərəfdaşlığın dərinləşdirilməsi və müttəfiqlik münasibətlərinin genişləndirilməsinə dair Bəyannamə, 2022-2026-cı illər üçün əməkdaşlığın inkişafına dair kompleks proqram və bir sıra başqa sənədlər imzaladıq. Hazırda bütün bu razılaşmalar ardıcıl olaraq həyata keçirilir. İkitərəfli münasibətlərin kompleks şəkildə möhkəmlənməsinə xidmət edən Ali Dövlətlərarası Şuranın təsis edilməsi mühüm qərar oldu. Bu gün imzalanmış bir sıra yeni sazişlər bizim çoxşaxəli tərəfdaşlığımıza əlavə impuls verəcək.

Qazaxıstan və Azərbaycan ticari-iqtisadi sahədə qarşılıqlı faydalı əsasda əməkdaşlıq edir. Biz məmnunluqla qeyd etdik ki, ötən ilin yekunlarına əsasən, ölkələrimiz arasında əmtəə dövriyyəsinin həcmi yarım milyard dollara yaxınlaşıb. Lakin, əlbəttə ki, ticari-iqtisadi tərəfdaşlığın potensialı əsla tükənməyib. Biz ixrac-idxal malları nomenklaturunun daha da genişləndirilməsi üçün təsirli tədbirlər görmək barədə razılığa gəldik. Ölkələrimizin müvafiq strukturlarının əlaqələndirilmiş şəkildə fəaliyyəti, - söhbət bizim İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyadan, ticari-iqtisadi missiyadan, İşgüzar Şuradan, ticarət evlərindən gedir, - iqtisadi kooperasiyanı keyfiyyətcə yeni səviyyəyə çatdırmağa imkan verəcək. Bu baxımdan Trans-Xəzər beynəlxalq nəqliyyat marşrutunun, belə adlandırılan Orta dəhlizin potensialının tam üzə çıxarılması böyük əhəmiyyət kəsb edir. Söhbət logistika xidmətlərinin təkmilləşdirilməsindən, vahid nəqliyyat operatorlarının yaradılmasından, texniki və tarif şərtlərinin modernləşdirilməsindən, inzibati maneələrin aradan qaldırılmasından və qapalı logistik dövrənin formalaşmasından gedir.

2022-2027-ci illərdə Orta dəhlizin inkişafına dair yol xəritəsinin səmərəli reallaşdırılması da böyük əhəmiyyət kəsb edir. Biz razılaşdıq ki, bu marşruta artan maraqdan tam yararlanmaq və onun infrastrukturunun inkişafına üçüncü ölkələri cəlb etmək lazımdır. Bütün bu tədbirlər, habelə beynəlxalq tərəfdaşlarımızla sıx qarşılıqlı əlaqə Şərq-Qərb istiqamətində yüklərin çatdırılmasının sabitliyini və operativliyini təmin etməyə imkan verəcək.

Biz energetika sahəsində əməkdaşlığın genişləndirilməsinə xüsusi diqqət yetirdik. Enerji resurslarının dünya bazarlarına çatdırılmasının daha da şaxələndirilməsi bu gün bizim prioritet vəzifəmizdir. Bildiyiniz kimi, bizim razılaşmalar sayəsində bu il Qazaxıstan neftinin ilk partiyası Azərbaycandan keçməklə göndərilib.

Növbəti addım tədarük həcminin artırılması və bu işlərə uzunmüddətli sabit xarakter verilməsidir. Fürsətdən istifadə edib bu mühüm təşəbbüsləri şəxsən dəstəklədiyinə görə Azərbaycanın lideri, hörmətli İlham Heydər oğlu Əliyevə minnətdarlığımı bildirmək istəyirəm.

Biz iqtisadiyyatlarımızın yeni artım nöqtələri ola biləcək mütərəqqi investisiya layihələrinin reallaşdırılması üzərində ayrıca dayandıq. Sənaye, toxuculuq, aqrosənaye və tikinti sahələrində iri müştərək müəssisələrin açılması mümkündür. Biz iki ölkənin hökumətlərinə birgə həyata keçirilməsi üçün iri layihələrin müəyyən edilməsi barədə tapşırıq verdik. Kənd təsərrüfatı sahəsində qarşılıqlı faydalı əməkdaşlıq üçün çox böyük potensial var. Ötən ilin yekunlarına görə aqrar-sənaye kompleksi məhsullarının ikitərəfli ticarətinin həcmi üç dəfə artıb və 146 milyon dollara bərabər olub. Beləliklə, bu gün bizim ümumi əmtəə dövriyyəmizin üçdəbir hissəsindən çoxu kənd təsərrüfatının payına düşür. Biz kənd təsərrüfatı məhsullarının qarşılıqlı tədarükünü daha da artırmağın vacibliyini qeyd etdik.

İnformasiya texnologiyaları sahəsində kooperasiyanın gücləndirilməsi perspektivli sahə kimi müəyyən edildi. Hazırda Xəzərin dibi ilə optik-lifli rabitə xətti çəkilməsi üzrə fəal iş aparılır. Biz bu layihənin strateji əhəmiyyətini nəzərə alaraq onun vaxtında icrasını təmin etmək barədə tapşırıq verdik. Bununla yanaşı, azərbaycanlı tərəfdaşlarımız dövlət xidmətlərinin rəqəmsallaşdırılması sahəsində birgə layihələrin reallaşdırılmasına, habelə Qazaxıstandakı İT-startapların məkanlarından istifadə etməyə dəvət olunurlar.

Maliyyə sahəsində əməkdaşlıq üçün böyük təməl var. Bu gün Azərbaycan nümayəndə heyəti Astana Beynəlxalq Maliyyə Mərkəzini ziyarət edəcək. Bu mərkəz maliyyə və müasir texnologiyalar sahəsində qarşılıqlı fəaliyyət üçün yaxşı platforma ola bilər.

Hörmətli xanımlar və cənablar.

Çoxşaxəli əməkdaşlığı möhkəmləndirmək üçün bizim əsas sərvətimizi - iki xalq arasında qardaşcasına münasibətləri qoruyub saxlamaq və möhkəmləndirmək vacibdir. Buna görə biz mədəni-humanitar gündəliyimizin keyfiyyətcə zənginləşməsinə hər vasitə ilə şərait yaratmalıyıq. Azərbaycanda Qazaxıstan mədəniyyəti günlərinin keçirilməsi bu ilin əlamətdar hadisəsi olacaq. Ölkəmizdə Azərbaycan mədəniyyəti günlərinin təşkil olunması barədə razılıq əldə edilib. Ayrıca qeyd etmək istəyirəm ki, bu il Qazaxıstanda Azərbaycan xalqının Ümummilli Lideri, görkəmli dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin 100 illiyinə həsr olunmuş bir sıra xatirə tədbirləri keçiriləcək.

→ 6

## Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana rəsmi səfəri

# Azərbaycan-Qazaxıstan münasibətləri müttəfiqliyin

## Mətbuata bəyanatlar





5 ←

Rəmzi haldır ki, bu tədbirlərə start verəcək hadisə bizim bu gün Astananın mərkəzində Azərbaycan xalqının şanlı oğlunun adını daşıyan küçənin açılışında iştirak etməyimiz olacaq. "Qazaxıstan" telekanalı da Heydər Əliyev haqqında "Görkəmli həyat" adlı nadir sənədli film hazırlayıb. Film bu gün ölkəmizin milli televiziyasının efirində göstəriləcək. Bütün bu tədbirlər xalqlarımızın əbədi dostluğunun parlaq nümunəsi, Qazaxıstan-Azərbaycan münasibətlərinin inkişafına tarixi töhfə vermiş görkəmli dövlət xadiminə hörmət əlamətidir.

İki ölkənin gəncləri arasında təmaslar da bizim humanitar əlaqələrin möhkəmlənməsinə şərait yaradır. Biz gənclər siyasəti və təhsil sahəsində əməkdaşlığın inkişafı üçün tərəflərin atdığı addımları alqışladıq. Müvafiq nazirliklərə akademik mobilliyin təmin olunmasına, birgə təhsil və elmi layihələrin təşkilinə maksimum kömək etmələri barədə tapşırıq verilib.

Media sahəsində qarşılıqlı fəaliyyət, kontent mübadiləsi qardaş xalqların daha da yaxınlaşmasına sanballı töhfə verə bilər. Bu gün müvafiq sazişlər imzalandı. Ona görə də danışıqların gedişində Qazaxıstan telekanallarının Azərbaycan kabel operatorları şəbəkələrində yayımlanmasına, habelə animasiya filmlərinin distribusiyasına dair razılaşmaların reallaşdırılmasının vacibliyi qeyd edilib.

Bu gün beynəlxalq gündəliyin aktual məsələlərinə dair fikir mübadiləsi aparılıb. Qazaxıstan və Azərbaycan müxtəlif çoxtərəfli strukturlar çərçivəsində səmərəli qarşılıqlı fəaliyyət göstərir, bir sıra aktual beynəlxalq və regional məsələlərdə oxşar mövqelər tuturlar. Bu baxımdan qeyd etmək istəyirəm ki, Qazaxıstan ənənəvi olaraq Azərbaycan ilə Ermənistan arasında qarşılıqlı münasibətlərin diplomatik yollarla nizamlanmasının tərəfdarıdır, habelə tezliklə sülh müqaviləsi bağlanmasına dair səyləri alqışlayır. Bütövlükdə regionda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsi üçün qarşılıqlı dəstəyin davam etdirilməsinin və birgə tədbirlər görülməsinin zəruriliyi eyni qaydada anlaşılır.

Gördüyünüz kimi, müzakirə edilən məsələlərin dairəsi çox geniş olub. Azərbaycan Prezidentinin səfərinə görə ona bir daha səmimi minnətdarlığımı bildirmək istəyirəm. Bu səfər ölkələrimiz arasında qarşılıqlı münasibətlərin, əməkdaşlığın inkişaf etdirilməsinin uğurlu davamı üçün, həqiqətən, çox böyük əhəmiyyət kəsb edir. Azərbaycan ilə əməkdaşlıq Qazaxıstan üçün prioritet məsələ olub və olacaq. Biz bu əməkdaşlığı konkret məzmunla, konkret razılaşmalarla zənginləşdirmək üçün nə mümkündürsə edəcəyik. Diqqətinizə görə sağ olun.

❖ ❖ ❖

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli Kasım-Jomart Kemeleviç.

Əziz dostlar.

Mən ilk növbədə qonaqpərvərliyə və dəvətə görə Qazaxıstan Prezidentinə təşəkkürümü bildirmək istərdim. Mən Qazaxıstanda özümü evdə olduğum kimi hiss edirəm, burada tez-tez oluram. İlk növbədə Qazaxıstan Prezidentini həyatın bütün sahələrini əhatə edən islahatların uğurla reallaşdırılması münasibətilə təbrik etmək və qardaş ölkənin inkişafı işində yeni uğurlar arzulamaq istərdim.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə hörmətə görə öz adımdan və bütün Azərbaycan xalqı adından təşəkkürümü bildirmək istərdim. Prezident Tokayevin qeyd etdiyi kimi, bu gün biz Astananın mərkəzində Heydər Əliyevin adını daşıyacaq küçənin birgə açılışını edəcəyik. Biz bunu həm bizim Ulu Öndərin xatirəsinə, həm də bütün Azərbaycan xalqına hörmətin, dostluğun, qardaşlığın əlaməti kimi qiymətləndiririk.

Mən həmçinin Qazaxıstan Prezidentinin işğaldan azad edilmiş Füzuli şəhərində qazax xalqının böyük oğlu Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin yaradılması təşəbbüsünə görə təşəkkürümü bildirmək istərdim. Mərkəzin tikintisi artıq başlanıb. Bu, Qazaxıstanın Azərbaycana hədiyyəsidir, Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq. Xüsusən indi - biz 30 illik işğaldan sonra 10 min kvadratkilometrdən artıq ərazinin praktiki olaraq sıfırdan başlayaraq bərpa etməli olduğumuz vaxtda.

Kasım-Jomart Kemeleviçin dediyi kimi, biz bu gün münasibətlərimizin geniş gündəliyini ətraflı müzakirə etdik. Qazaxıstan Prezidenti bu gün müzakirələr çərçivəsində toxunulmuş mövzular üzərində ətraflı dayandı. Təkrarlamaq istəmirəm, bu barədə yalnız bir neçə məqamı şərh etmək istərdim. Biz, həqiqətən, ölkələrimiz arasında çoxşaxəli əməkdaşlığı dərinləşdirmək və genişləndirmək əzmindəyik.

Keçən ilin avqust ayında Qazaxıstan Prezidentinin Azərbaycana rəsmi səfəri zamanı müttəfiqlik qarşılıqlı əlaqələrinin və strateji tərəfdaşlıq münasibətlərinin dərinləşdirilməsi haqqında Bəyannamə imzalandı. Bugünkü bəyannamə də əlaqələrimizin və müttəfiqlik münasibətlərinin möhkəmlənməsinə yönəlib. Bu bəyannamələrin adlarının özü bizim münasibətlərimizin xarakterinə dəlalət edir. Bu, müttəfiqlər arasında münasibətlərdir. Təbii ki, bunun əsasını ölkələrimizin qardaş xalqları arasında çoxəsrlik tarixə malik olan qarşılıqlı əlaqələr, dostluq və əməkdaşlıq təşkil edir. Bu, bugünkü qarşılıqlı əlaqələrimizin əsas bazasıdır. Qazaxıstan ilə qardaşlıq münasibətləri əcdadlarımızın göstərişi, eləcə də həyati zərurətdir. Çünki Xəzər regionunda, Mərkəzi Asiya və Cənubi Qafqaz regionunda baş verən proseslər bizə regional təhlükəsizliklə bağlı məsələlərdən başlamış nəqliyyat, logistika, energetika, humanitar əməkdaşlıq, ekologiya ilə bağlı məsələlərə qədər bütün istiqamətlər üzrə əməkdaşlığı möhkəmlətməyi diktə edir. Xüsusən ona görə ki, təəssüflər olsun, Xəzərin həm sizə, həm də bizə aid olan sahillərində dənizin sürətlə dayazlaşmasını müşahidə edirik.

Beləliklə, ölkələrimiz arasında müttəfiqlik münasibətləri bizim qarşılıqlı fəaliyyətimizin gələcək inkişafının möhkəm təməlidir. Bu gün biz bu təməli konkret məzmunla zənginləşdiririk və ötən ilin avqust ayında Bakıda qəbul edilmiş qərarlar bu gün artıq reallaşır. O cümlədən Prezident Tokayevin qeyd etdiyi kimi, Qazaxıstan neftinin Azərbaycandan keçməklə tranzitinin başlanması, Orta dəhlizin imkanlarını tam həcmdə səfərbər etmək üçün ölkələrimizin nəqliyyat-logistika infrastrukturlarının birləşdirilməsi üzrə ciddi işin başlanması barədə qərarlar.

Bu gün biz Şərq-Qərb marşrutu üzrə yükdaşımaların artırılması ilə bağlı konkret rəqəmləri, konkret qrafiki müzakirə etdik və bütün bu məsələlərin ən yaxın vaxtda öyrənilməsi üçün müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verdik.

Biz həm də sənaye kooperasiyası, ixrac-idxal əməliyyatlarının nomenklaturunun genişləndirilməsi ilə bağlı məsələləri, o cümlədən gələcəkdə ixrac-idxal potensialının reallaşdırılması üçün sifarişlərin yerləşdirilməsi məsələlərini fəal müzakirə etdik. Təbii ki, biz bir-birimizin infrastrukturunu, bir-birimizin sənaye potensialını bir-birimizə tədarük edə biləcəyimiz mallar hesabına tamamlamalıyıq, beləliklə, əmtəə dövriyyəsini artırmalıyıq. Bu gün bizim ortamüddətli perspektivli əmtəə dövriyyəsini milyard dollara çatdırmaq barədə rəqəmlər səsləndi. Mən hesab edirəm ki, xüsusən bizim əldə etdiyimiz razılaşmalar çərçivəsində, bu tamamilə realdır. Fikrimcə, biz bu həddə kifayət qədər qısa müddətdə çatacağıq. Əsas odur ki, əməkdaşlığı möhkəmlətmək üçün çox müsbət ortaq əhvali-ruhiyyə var.

Onu da qeyd etmək istərdim ki, biz beynəlxalq təşkilatlar çərçivəsində fəal qarşılıqlı əlaqə saxlayırıq, bütün məsələlərə dair bir-birimizi həmişə dəstəkləyirik və dəstəkləyəcəyik. Biz həm də xüsusən ölkələrimizdən birinin üzv olmadığı təşkilatlarda bir-birimizi dəstəkləyəcəyik. Bu, uzun illər boyu bizim münasibətlərin səmimi xarakterini nümayiş etdirir.

Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması məsələsində Qazaxıstanın mövqeyinə görə Prezident Tokayevə təşəkkür edirəm. Mən normallaşmaya dair danışıqlar prosesinin indiki statusu barədə həmkarıma məlumat vermişəm. Biz normallaşma əzmindəyik və İkinci Qarabağ müharibəsi başa çatandan sonra məhz Azərbaycan sülh müqaviləsi üzərində işə başlamağı təklif etdi. Praktiki olaraq bu iş başlanıb, amma bizim istədiyimiz kimi rəvan getmir. Lakin bunun alternativi yoxdur. Hətta 30 illik işğala və Azərbaycan xalqının məruz qaldığı məhrumiyyətlərə, hazırda bərpa etməli olduğumuz dağıntılara baxmayaraq, qonşular arasında münasibətlər normal olmalıdır. Bununla belə, biz gələcəyə baxırıq və hesab edirik ki, suverenlik, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, BMT-nin Nizamnaməsi, beynəlxalq hüququn bütün əsas normaları və prinsipləri əsasında sülh müqaviləsinə nail olmaq mümkündür, bu müqavilə çoxillik düşmənçilik səhifəsini çevirəcək.

Əlbəttə, Qazaxıstanın məhz bizim regionda sülhün bərqərar olunmasına yönəlmiş prinsipial mövqeyi böyük hörmətə layiqdir. Qazaxıstanın beynəlxalq arenada nüfuzunu, ən mühüm qlobal məsələlərə dair ölçülüb-biçilmiş prinsipial mövqeyini xüsusi qeyd etmək istərdim. Biz artıq beynəlxalq təhlükəsizliklə bağlı məsələlərə dair fikir mübadiləsi aparmışıq və bu gün hələ bu barədə diskussiyaları davam etdirəcəyik. Bu məsələlər daimi diqqət, prinsipial, dəqiq və ölçülüb-biçilmiş mövqe tələb edir. Bu halda qazaxıstanlı qardaşlarımızı təbrik etmək istərdim ki, ölkənin beynəlxalq arenada nüfuzu artır və Qazaxıstan haqlı olaraq dünya birliyinin böyük hörmətini qazanıb.

Öz tərəfimdən bir daha demək istərdim ki, Azərbaycanda sizin qardaşlarınız yaşayır, onlar sizə çox hörmət edir, sizi qiymətləndirirlər. Qazaxıstanın bizə münasibətdə əvvəllər də, bu gün də nümayiş etdirdiyi həmrəyliyə görə sizə çox təşəkkür edirik. Biz də öz tərəfimizdən qardaş Qazaxıstan xalqına həqiqi qardaşlıq hisslərini və münasibəti göstərmək üçün nə mümkündürsə edəcəyik.

Hörmətli Kasım-Jomart Kemeleviç, qonaqpərvərliyə, dəvətə görə bir daha təşəkkür edirəm və fürsətdən istifadə edib Sizi yenidən, Sizin üçün münasib vaxtda Azərbaycana səfərə dəvət etmək istəyirəm.

**Prezident Kasım-Jomart TOKAYEV:** Təşəkkür edirəm. Xalqlarımız arasında qardaşcasına qarşılıqlı münasibətlərlə bağlı sözlərinizə görə Sizə xüsusi təşəkkür etmək istərdim. Qazax xalqı üçün də azərbaycanlılar qardaşdırlar. Bu barədə bu gün danışıqlar zamanı da demişəm, indi də deyirəm. Bu, sadəcə, bəlağətli sözlər deyil, hərçənd xüsusən belə tədbirlər zamanı hərdənbir bəlağətli sözlər də demək lazımdır. Bu sözlər, əslində, ölkələrimiz arasında əməkdaşlığın xarakterini əks etdirir. Ümidvaram ki, bütün bunlar daimi olacaq.

## Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana rəsmi səfəri

# keyfiyyətcə yeni mərhələsinə qədəm qoyur

## Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul təşkil edilib

Aprelin 10-da Astanada Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul təşkil edilib.

## Astanada Heydər Əliyev küçəsi açılıb






**Aprelin 10-da Astanada Heydər Əliyev küçəsinin təntənəli açılış mərasimi keçirilib.**





AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev açılış mərasimində iştirak ediblər.

**Mərasimin aparıcısı** dedi:

- Azərbaycan ilə Qazaxıstan arasında diplomatik, mədəni, sosial, siyasi və iqtisadi münasibətlər ilbəil möhkəmlənir. Qazaxıstan Respublikası Prezidentinin tapşırığına əsasən, paytaxtın ən iri küçələrindən birinə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı verilib. Azərbaycanda tərəqqi və genişmiqyaslı quruculuq işləri bu böyük insanın rəhbərliyi ilə başlayıb. Yeni məkan və oradakı memarlıq elementləri qardaş dövlətlər arasında möhkəm və bir-birini qarşılıqlı zənginləşdirən əməkdaşlığın rəmzidir.

Heydər Əliyevin şərəfinə adlandırılmış küçə firavanlaşan Yesil rayonunda yerləşir. Dördzolaqlı küçə Ulu Dala prospekti ilə kəsişir. Küçənin uzunluğu 1400 metrdir. Heydər Əliyev küçəsində dərin mənalı bir monument ucaldılıb. Bu memarlıq nümunəsinə daxil olan elementlər türk köklərinin ortaqlığını, mədəni dəyərlərin yaxınlığını və Azərbaycan xalqına hörməti vurğulayır. Monumentin üzərindəki QR-kodu skanlamaqla Heydər Əliyevin həyatı haqqında daha çox məlumat əldə etmək olar.

Hörmətli xanımlar və cənablar, gəlin, bir-birimizi bu əlamətdar bayram, Qazaxıstanın və Azərbaycanın həyatında mühüm hadisə münasibətilə təbrik edək.

❖ ❖ ❖

Dövlət başçıları "Heydər Əliyev küçəsi" sözləri yazılan lövhənin üzərindən ağ örtüyü götürdülər.

❖ ❖ ❖

Sonra mərasimdə çıxış edən **Qazaxıstan Prezidenti Kasım-Jomart TOKAYEV** dedi:

- Bu hadisənin xüsusi rəmzi mənası var. Heydər Əliyev kimi dünyamiqyaslı şəxsiyyətlərin xatirəsini əbədiləşdirmək və qorumaq bizim borcumuzdur. Astanada onun adını daşıyan yeni küçəni açmaqla biz bu nəcib işə mühüm töhfə veririk. Bu, Azərbaycan xalqının böyük oğluna bizim səmimi münasibətimizin və ehtiramımızın əlamətidir.

Bu küçə Astana gənclərini və qonaqlarını cəlb edən yerdir. Küçə boyunca dünyada ən böyük sferik bina olan "Nur Aləm", Astana Balet Teatrı, Mərkəzi Botanika bağı, habelə şəhərin ən iri ticarət-əyləncə mərkəzi kimi mühüm obyektlər yerləşir.

Qeyd etmək istəyirəm ki, bu küçənin açılışı Qazaxıstanda Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş bir sıra mühüm tədbirlərə start verəcək. O cümlədən bu gün "Qazaxıstan" telekanalında Heydər Əliyevin zəngin həyat yolu haqqında "Görkəmli həyat" adlı sənədli filmin premyerası olacaq. Rəmzi haldır ki, Heydər adının tərcüməsi "irəlidə gedən" deməkdir. Heç bir mübaliğəyə yol vermədən deyə bilərik ki, Heydər Əliyev dinamik inkişaf edən müasir Azərbaycanın memarıdır. Son dərəcə mürəkkəb dövrdə ölkəyə rəhbərlik edən Heydər Əliyev çoxəsrlik Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində müstəsna rol oynayıb. Onun müdrik rəhbərliyi ilə Azərbaycanda dərin siyasi və sosial-iqtisadi islahatlar həyata keçirilib. Bu mürəkkəb, enişli-yoxuşlu yolu qət edən ölkə irəliyə doğru böyük sıçrayış edib, dünya birliyinin nüfuzlu üzvünə çevrilib. Əslində, Heydər Əliyevin adı Azərbaycanın əsl rəmzi olub. Heydər Əliyevin həyat yolu millətə fədakarcasına xidmətin parlaq nümunəsidir. Müasirləri Heydər Əliyevi yüksək insani keyfiyyətlərinə, prinsipiallığına, dürüstlüyünə, ədalətliliyinə görə qiymətləndirirdilər.

Qazaxıstan ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin təşəkkülünə və möhkəmlənməsinə Heydər Əliyev çox qiymətli töhfələr verib. Biz yaxşı xatırlayırıq, o, qazaxlar haqqında həmişə səmimi sözlər deyir, bizim soy-kökümüzün və irsimizin ortaq olmasını vurğulayırdı. Heydər Əliyev deyirdi ki, xalqlarımızın dərin tarixə gedib çıxan kökləri qazax və Azərbaycan xalqları arasında qarşılıqlı münasibətlərin əsasıdır. Həm qazaxlar, həm də azərbaycanlılar üçün tarix mürəkkəb olub. Lakin bütün çətinliklərə baxmayaraq, xalqlarımız həmişə bir-birini dəstəkləyib, həmişə hiss edib və başa düşüblər ki, onlar eyni kökə mənsubdurlar. Bu sözlər 1997-ci il iyunun 10-da deyilib. Ölkələrimiz arasında müasir möhkəm və ahəngdar qarşılıqlı münasibətlər bu sözləri təsdiq edir. Bu münasibətlər strateji tərəfdaşlıq və müttəfiqlik ruhunda inkişaf edir.

Hörmətli İlham Heydər oğlu, Siz öz dahi atanızın quruculuq işini ləyaqətlə davam etdirirsiniz. Sizin nüfuzlu, güclü liderliyinizlə Azərbaycan tərəqqi və inkişaf yolunda inamla irəliləyir. Dövlətlərimiz arasında hərtərəfli əməkdaşlığın möhkəmlənməsinə Sizin şəxsi töhfənizi yüksək qiymətləndiririk. Fürsətdən istifadə edib əməkdaşlığımızın inkişafında mühüm mərhələ olan bu səfərinizə görə Sizə bir daha təşəkkürümü bildirmək istərdim.

Bu gün bizim çoxşaxəli əməkdaşlığımızın bundan sonrakı inkişafına təkan verən çox mühüm sənədlər imzalanıb. Qazaxıstan ilə Azərbaycan arasında müttəfiqlik, tərəfdaşlıq münasibətlərinin parlaq və ümidverici gələcəyi var. Buna görə də əsla şübhə yoxdur ki, biz bundan sonra da dövlətlərimizin xalqlarına xidmət məsələsində vahid mövqelərdən çıxış edəcəyik. Diqqətinizə görə sağ olun.

❖ ❖ ❖

**Azərbaycan Prezidenti İlham ƏLİYEV** çıxış edərək dedi:

- Hörmətli Kasım-Jomart Kemeleviç, əziz dostlar.

Mənim Qazaxıstana səfərim sona yaxınlaşır. Qonaqpərvərliyə, səmimi qəbula, mənə və bizim nümayəndə heyətinin üzvlərinə xoş münasibətə və bu gün səfər çərçivəsində bu gözəl, mən deyərdim, tarixi mərasimdə iştirak etməyimizə görə Prezident Tokayevə bir daha təşəkkürümü bildirmək istəyirəm.

Hər bir azərbaycanlı kimi məndən ötrü də Heydər Əliyevin adı çox əzizdir. Təkcə ona görə yox ki, o, mənim atamdır, həm də ona görə ki, bu insan müasir müstəqil Azərbaycanın ən çətin dövründə xalq tərəfindən dəvət edildi və ən ağır dövrdə ölkəyə rəhbərlik etdi. Heydər Əliyev haqqında danışarkən onun Sovet Azərbaycanına rəhbərlik etdiyi dövrü də xatırlamamaq olmaz, bu dövr də quruculuq, inkişaf dövrü idi. O vaxt - ötən əsrin 60-cı illərinin sonundan 80-ci illərinin əvvəlinə qədər Azərbaycan onun rəhbərliyi ilə sosial-iqtisadi inkişafa görə SSRİ miqyasında qabaqcıl mövqelərə çıxmışdı. Sonra Moskvada Sov.İKP MK-nin Siyasi Bürosunun - sovet dövlətinin ali məşvərət orqanının üzvü qismində və hökumətin sədrinin birinci müavini vəzifəsində işlədiyi dövr olub. O vaxt Heydər Əliyev, əslində, keçmiş SSRİ-nin xalq təsərrüfatının bir sıra ən mühüm sahələrinə rəhbərlik edirdi.

Həyatının müəyyən dövründə o, haqsızlığa, təzyiqlərə məruz qalırdı. Ona qara yaxılır, böhtan atılırdı. Lakin Azərbaycan xalqı ona həmişə inanırdı və ən çətin dövrdə - Azərbaycan xalqının gələcəyi məhz onun kimi insanlardan asılı olanda o, ölkəyə rəhbərlik etdi və Azərbaycanı faktiki olaraq dünyanın siyasi xəritəsindən silinməkdən xilas etdi. Təəssüf ki, o vaxt məhz bu barədə söhbət gedirdi, çünki daxili ziddiyyətlər ölkəni didib-parçalayırdı, vətəndaş müharibəsi tam sürətlə gedirdi, eyni zamanda Azərbaycan torpaqları əlaltından işğal edilirdi. Bu ən mürəkkəb dövrdə Heydər Əliyev Azərbaycana rəhbərlik etdi və mahiyyət etibarilə xalqımızın sonrakı bəlalarının və faciələrinin qarşısını aldı. Onun Prezident vəzifəsində olduğu 10 il - 1993-2003-cü illər sabitlik, inkişaf və Azərbaycanın gələcək sıçrayışı üçün təməl qoyulması dövrü oldu.

Heydər Əliyev bizə onun işlərini davam etdirməyimizi vəsiyyət edib. Onun əsas vəsiyyəti ondan ibarət idi ki, biz torpaqlarımızı işğaldan azad etməli, ərazilərimizi özümüzə qaytarmalı, Azərbaycan xalqının ləyaqətini bərpa etməliyik. Biz onun xatirəsinə, vəsiyyətlərinə sadiqik, onun bütün tapşırıqlarını şərəflə yerinə yetirmişik. Bu gün, Ulu Öndərin 100 illik yubileyi ərəfəsində inamla deyə bilərik ki, onun düşündüklərinin hamısı reallaşıb.

Kasım-Jomart Kemeleviç dedi ki, Heydər Əliyev qardaş qazax xalqına xüsusi münasibət və sevgi bəsləyirdi. Bu, həqiqətən, belədir, mən bunun şahidiyəm.

→ 8

## Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana rəsmi səfəri

# Azərbaycan-Qazaxıstan münasibətləri müttəfiqliyin keyfiyyətcə yeni mərhələsinə qədəm qoyur

## Astanada Heydər Əliyev küçəsi açılıb



7 ←

O, qazaxların ənənələrini, adətlərini yaxşı bilir, qazax xalqının mədəniyyətinə, onun çoxəsrlik tarixinə hörmət bəsləyir, qazaxlarla azərbaycanlıların qardaşlığını çox yüksək qiymətləndirirdi. O, türk dünyasını daha sıx birləşdirmək üçün əlindən gələni edirdi. Bu gün biz onun işinin, fəaliyyətinin nəticələrini, o cümlədən bunda görürük ki, türk dünyası birləşir. Biz bu gün beynəlxalq arenada böyük nüfuz sahibi olan güclü təşkilat yaratmışıq.

Bu gün səfərimi başa çatdıraraq Qazaxıstan Prezidentinə və xalqına bir daha təşəkkürümü bildirmək, Qazaxıstan xalqını və Prezident Kasım-Jomart Kemeleviçi sosial-iqtisadi inkişaf, Qazaxıstanın beynəlxalq nüfuzunun möhkəmlənməsi yolunda qazanılmış böyük nailiyyətlər münasibətilə təbrik etmək istərdim. Bu gün Qazaxıstan, - bu barədə bu gün mətbuat konfransında danışmışam, - dünya birliyinin nəzərində böyük nüfuza malikdir, beynəlxalq məsələlərdə mühüm rol oynayır. Qazaxıstanın irəli sürdüyü və reallaşdırdığı təşəbbüslər, sözün geniş mənasında, Avrasiya məkanında etimad tədbirlərinin, sülhün möhkəmlənməsinə yönəlib. Biz də dostlar, qardaşlar kimi sizin uğurlarınıza ürəkdən sevinirik.

Bu gün biz müttəfiqlik səviyyəsinə çatmış əməkdaşlığımızın möhkəmləndirilməsinə dair sonrakı addımları müəyyənləşdirdik. Biz müttəfiqlərik, biz qardaşlarıq, biz dostlarıq. Bugünkü mərasim bizim münasibətlərimizin sarsılmazlığına, qardaşlığımıza və qarşılıqlı hörmətimizə daha bir sübutdur. Heydər Əliyevin xatirəsinə bu cür münasibətə, dostluğa, qardaşlığa görə Prezidentə və bütün qazaxıstanlı qardaşlarımıza təşəkkürümü bildirmək istəyirəm. Sağ olun.

❖ ❖ ❖

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Heydər Əliyev küçəsində yerləşən Botanika bağında ağac əkdilər.

Daha sonra dövlət başçıları şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşüb söhbət etdilər.

## Səfər başa çatdı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasına rəsmi səfəri aprelin 10-da başa çatıb.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Qazaxıstanın Baş naziri Alixan Smailov və digər rəsmi şəxslər yola saldılar.

## Astana Beynəlxalq Maliyyə Mərkəzi ilə tanışlıq











**Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Astana Beynəlxalq Maliyyə Mərkəzində olublar.**

AZƏRTAC xəbər verir ki, mərkəzin rəhbəri Renat Bekturov investisiyaların cəlb edilməsi və regional təşəbbüslərin dəstəklənməsi üçün Maliyyə Mərkəzinin potensialı, o cümlədən burada Azərbaycan layihələrinə beynəlxalq investorlarda maraq yaratmaq və sərmayələrin strukturlaşdırılması imkanları barədə dövlət başçılarına məlumat verdi.

Diqqətə çatdırıldı ki, Astana Beynəlxalq Maliyyə Mərkəzi 2018-ci ildə fəaliyyətə başlayıb. Onun əsas funksiyaları Qazaxıstan iqtisadiyyatına investisiyaların cəlb olunmasına kömək göstərilməsi, ölkənin maliyyə sahəsinin, o cümlədən fond bazarının inkişaf etdirilməsi və beynəlxalq kapital bazarlarına inteqrasiya olunmasıdır.

2023-cü il martın sonunda mərkəz vasitəsilə cəlb olunan investisiyaların həcmi 8,1 milyard ABŞ dolları təşkil edib. Onun yurisdiksiyasında 73 ölkədən 1800-dən çox şirkət qeydə alınıb. Maliyyə Mərkəzinin vergi rejiminin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının vergi şəffaflığı qlobal standartlarına uyğun olduğu təsdiq edilib.

Mərkəzin nəzdində fəaliyyət göstərən "Astana International Exchange" (AIX) Birjası portfel investisiyalarının cəlb olunması üzrə səmərəli platformaya çevrilib, Qazaxıstanda yaşıl və dayanıqlı maliyyələşdirmə sahəsində regional liderlik strategiyasının həyata keçirilməsi üzrə fəal iş aparan "Yaşıl" maliyyə mərkəzi, startap ekosistemi, təşəbbüs bazarı, elektron ticarət, korporativ innovasiyalar və yeni texnoloji istiqamətlərin inkişafına yardım etməyə cavabdeh olan "Tex Hub"a malikdir. Hazırda Maliyyə Mərkəzinin yurisdiksiyasında dünyanın 300 texnoloji, İKT və finteks şirkətləri, o cümlədən "Amazon Data Services Kazakhstan", "Minebest", "Bitfury", "OneWeb", "Binance" və digər qlobal şirkətlər qeydiyyata alınıb.

Prezident İlham Əliyev sərmayədarların sərbəst fəaliyyəti üçün etibarlı və münbit investisiya mühitinin əhəmiyyətini xüsusi vurğuladı. Orta dəhlizlə bağlı müzakirələrin aparıldığını qeyd edən dövlətimizin başçısı bildirdi ki, bu dəhliz təkcə tranzit imkanlarının genişləndirilməsi baxımından deyil, müxtəlif sahələrdə biznesin inkişafı üçün də mühüm əhəmiyyət daşıyır. Azərbaycan Prezidenti Qazaxıstan ilə birgə istehsalatların yaradılması və investisiya layihələrinin reallaşdırılması üçün nümayəndə heyətlərinin səfərlərinin önəmini qeyd etdi. "Biz bir çox hallarda paralel kursla hərəkət edirik və Orta dəhliz vasitəsilə artıq bütün infrastrukturları tam birləşdiririk", - deyən Prezident İlham Əliyev Qazaxıstanın işgüzar dairələrinin nümayəndələrini ölkəmizə səfərə dəvət etdi.

Sonda Prezident İlham Əliyev mərkəzin xatirə kitabına ürək sözlərini yazdı.

# Baş nazir Əli Əsədov Rusiyanın Həştərxan vilayətinin qubernatoru ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov aprelin 10-da ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinlə görüşüb.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan Respublikası ilə Həştərxan vilayəti arasında səmərəli əməkdaşlıq müsbət qiymətləndirilib, Azərbaycan-Rusiya əlaqələrinin inkişafında bu qarşılıqlı fəaliyyətin rolu qeyd edilib.

Həştərxanda Ümummilli Lider Heydər Əliyevin 100 illiyi ilə əlaqədar bir sıra tədbirlərin keçiriləcəyindən məmnunluq ifadə olunub.

"Xəzər - dostluq dənizi" motoyürüşünün əhəmiyyəti vurğulanıb, qeyd olunub ki, bu motoyürüşün iştirakçıları artıq Azərbaycana gəliblər.

Görüşdə Azərbaycan və Həştərxan vilayəti arasında ticari-iqtisadi, nəqliyyat, tranzit sahələrində, sənaye kooperasiyası, o cümlədən maşınqayırma sahəsində, eləcə də limanlararası əlaqələr və humanitar qarşılıqlı fəaliyyət sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunub.

# Azərbaycan-Macarıstan münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə çatıb

Milli Məclisin Sədri Sahibə Qafarova aprelin 10-da Macarıstanın Azərbaycandakı səfiri Tamaş Torma ilə görüşüb. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfiri salamlayan Sahibə Qafarova ona ölkəmizdəki diplomatik fəaliyyətində uğurlar arzulayıb.



Ötən il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin tamam olduğunu deyən Milli Məclisin Sədri bu illər ərzində əməkdaşlığımızın dinamik inkişaf etdiyini və strateji tərəfdaşlıq səviyyəsinə çatdığını qeyd edib. Spiker bildirib ki, münasibətlərimizin inkişafında dövlət başçılarımızın qarşılıqlı səfərlərinin, keçirdikləri görüşlərin və imzalanan sənədlərin xüsusi rolu var. Bu baxımdan Prezident İlham Əliyevin cari il yanvarın 30-da Macarıstana rəsmi səfəri çərçivəsində strateji tərəfdaşlıq haqqında imzalanmış ikinci sənəd olan Strateji tərəfdaşlığın dərinləşdirilməsi haqqında Birgə Bəyannamə əməkdaşlığımızı yeni səviyyəyə qaldırıb.

Söhbət zamanı parlamentlərarası əlaqələrdən danışan Sahibə Qafarova 2021-ci ildə Macarıstana rəsmi səfərini və orada keçirdiyi görüşləri məmnunluqla xatırladaraq, bu səfərin qanunvericilik orqanlarımız arasında münasibətlərin daha da genişlənməsinə töhfə verdiyini diqqətə çatdırıb. O, həmçinin bildirib ki, hər iki ölkənin parlamentlərindəki qarşılıqlı dostluq qrupları qanunverici orqanlar arasında körpü rolunu oynayırlar. Deputatlarımızın beynəlxalq təşkilatlarda əməkdaşlığı təqdirəlayiqdir.

Söhbət zamanı Sahibə Qafarova Azərbaycanın 2020-ci ildə öz ərazilərini erməni işğalından azad etməsindən sonra bölgədə yaranan mövcud vəziyyət barədə də danışıb.

Görüşə görə təşəkkürünü bildirən Macarıstanın Azərbaycandakı səfiri Tamaş Torma diqqətə çatdırıb ki, müasir dünyada parlament diplomatiyasının əhəmiyyəti getdikcə artmaqdadır. Dost və strateji tərəfdaş münasibətlərinə malik olan Macarıstan və Azərbaycan parlamentlərində fəaliyyət göstərən dostluq qrupları əlaqələrimizin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edirlər. Deputatlarımız beynəlxalq parlament təşkilatlarında uğurla əməkdaşlıq edir, ölkələrimizin maraqları baxımından bir-birinə dəstək verirlər. Macarıstanın müşahidəçi statusuna sahib olduğu Türk Dövlətləri Təşkilatı çərçivəsində türk dünyası ilə artan əməkdaşlıq ölkələrimizin mövqelərinin daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

Sonra görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Xəzərdən "qara qızıl" çıxaran qurğular sırasına daha bir platforma qoşulacaq

## Jurnalistlər də ACE ilə tanış oldular

Azərbaycanın neft mövzusunda yazan bir qrup jurnalisti yeni ACE ("Azəri Mərkəzi Şərqi") platformasının üst modullarının inşa edildiyi Bayıl tikinti-quraşdırma sahəsində olmuşdur. Səfər ölkəmizdə ən iri neft-qaz və ixrac layihələrinin operatoru olan bp şirkəti tərəfindən təşkil edilmişdir.



Məlum olduğu kimi, bir həftə əvvəl Prezident İlham Əliyev burada olmuş və üst modulların dənizə rəmzi yola salınmasında iştirak edərək yeni qurğuya xeyir-dua vermişdir. Qeyd edək ki, dövlətimizin başçısı keçən ilin dekabr ayında Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda tikilən dayaq blokunun da rəmzi yola salınmasında iştirak etmişdir. Bu da "Azəri-Çıraq-Günəşli" (AÇG) sahəsində quraşdırılacaq yeni platformanın önəminə bir daha diqqət çəkir.

Sözügedən qurğu eyniadlı layihə çərçivəsində inşa edilib və fəaliyyəti boyu 300 milyon barel neft hasil etmək gücündə layihələndirilib. ACE layihəsi isə AÇG yataqlarının tammiqyaslı işlənməsi üzrə "Hasilatın Pay Bölgüsü Sazişi"nin əsrin ortasına qədər uzadılması çərçivəsində həyata keçirilir.

Tikinti sahəsində media nümayəndələrinə bütün bunlar barədə ətraflı məlumat verilib. Bildirilib ki, layihə üzrə bir neçə istiqamətdə iş aparılıb. O cümlədən dənizdə və Səngəçal terminalında ACE-nin ilk neftini sahilə gətirmək və qəbul etmək üçün müvafiq işlər artıq sona çatmaqdadır.

Bu ilin mart ayında Xəzərə yola salınmış dayaq bloku hazırda üst modulların yolunu gözləyir. Bu modullar da öz daimi yerində quraşdırılandan sonra ilk quyunun qazılmasına başlanılacaq. ACE-dən ilk hasilatın isə gələn ilin əvvəllərində alınacağı gözlənilir.

"Azərbaycan"ın yaxın nömrələrinin birində ACE layihəsi və platforması haqda ətraflı bəhs oluanacaq.

*"Azərbaycan"*

# Milli Məclis Aparatı ilə Milli Arxiv İdarəsi arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb

Aprelin 10-da Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəisi Əsgər Rəsulovla görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, aparat rəhbəri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin arxiv işinə həmişə böyük diqqət və qayğı göstərməsindən söz açıb. O, Prezidentin sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı"nın arxiv işi sahəsində həyata keçirilən islahatların davamlılığının təmin olunmasında, arxiv fəaliyyətinin yeni dövrün tələblərinə uyğun təkmilləşdirilməsində, cəmiyyətdə arxiv işinin rolunun və arxivçi peşəsinin nüfuzunun artırılmasında əhəmiyyətindən danışıb.

Dövlət proqramında Azərbaycanın milli sərvəti olan arxiv fondunun zənginləşdirilməsi, sistemləşdirilməsi, dövlət mühafizəsi və arxivlərdən səmərəli istifadəni təmin etmək üçün qarşıya qoyulan vəzifələrə toxunan Milli Məclis Aparatının rəhbəri sənəddə arxiv işi sahəsinə dövlət nəzarətinin gücləndirilməsi və səmərəli idarəetmənin təşkili məqsədilə qanunvericiliyin təkmilləşdirilməsinin nəzərdə tutulduğunu deyib. Fərid Hacıyev buna uyğun olaraq ötən il Milli Məclisdə arxiv işinin müasir dövrün çağırışlarına uyğunlaşdırılması və idarəetmənin təkmilləşdirilməsi məqsədilə "Milli arxiv fondu haqqında" qanuna dəyişikliklər edilməsi barədə qanun layihəsinin qəbul olunduğunu bildirib.

Son illər Milli Məclisdə arxiv işinin modernləşdirilməsi, informasiya potensialının zənginləşdirilməsi ilə bağlı görülən işlərdən söz açan aparat rəhbəri bu istiqamətdə göstərdikləri peşəkar yardıma və dəstəyə görə Milli Arxiv İdarəsinə təşəkkür edib. O, bu səmərəli əməkdaşlığın daha da irəli aparılması üçün Milli Məclisin Sədri Sahibə Qafarovanın təşəbbüsü ilə Azərbaycan parlamenti ilə Milli Arxiv İdarəsi arasında imzalanacaq anlaşma memorandumunun əhəmiyyətini yüksək dəyərləndirib və sənədin Milli Məclislə Milli Arxiv İdarəsi arasında əməkdaşlığa öz töhfəsini verəcəyini bildirib.

Milli Arxiv İdarəsinin rəisi Əsgər Rəsulov son illər dövlət arxivlərində saxlanılan sənədlərdən daha səmərəli istifadə, yeni elektron xidmətlərin yaradılması, müasir iş metodlarının tətbiqi istiqamətində böyük işlər görüldüyünü bildirib. O, Milli Məclisin rəhbərliyi tərəfindən parlamentdə arxiv şəraitinin yaxşılaşdırılması və arxiv sənədlərinin sistemləşdirilməsinin təkmilləşdirilməsi istiqamətində görülən işləri təqdir edib. Əsgər Rəsulov dövlət arxivinin komplektləşdirilməsinin mühüm mənbəyi olan Milli Məclislə əməkdaşlığı yeni səviyyədə davam etdirməkdən məmnunluğunu bildirib.

Sonra Milli Məclis Aparatı ilə Milli Arxiv İdarəsi arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb. Memorandumu Milli Məclis adından Fərid Hacıyev, Milli Arxiv İdarəsi adından Əsgər Rəsulov imzalayıblar.

Tədbirdə Milli Məclis Aparatı rəhbərinin müavinləri Yaşar Əməşov, Rüstəm Mahmudov, Milli Məclisin komitələrin və komissiyaların işinin təşkili şöbəsinin müdiri Gülnarə İsmayılova, Milli Arxiv İdarəsi rəisinin müavini Həsən Həsənov, idarənin şöbə müdiri Cəmilə Abasova və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Paytaxtda və bölgələrdə şəhid ailələri və müharibə əlillərinə 50 mənzil və fərdi ev verilib









Bu gün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Bakının Ramana, Kürdəxanı qəsəbələrində, Abşeron, Samux, Yevlax, Biləsuvar, Masallı, Bərdə, Saatlı rayonlarında və Naxçıvan şəhərində daha 50 mənzil və fərdi ev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim olunub.

AZƏRTAC xəbər verir ki, tədbirdə əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq şəhid ailələri və müharibə iştirakçıları ilə bağlı genişmiqyaslı sosial dəstək proqramının icra olunduğunu bildirib.

Qeyd olunub ki, sosial dəstək paketinin mühüm istiqamətlərindən biri - şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı İkinci Qarabağ müharibəsindən sonra 5 dəfə genişlənib. 2021-ci ilin əvvəlindən İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələri və həmin müharibə ilə əlaqədar əlilliyi olanlar da mənzillə təmin olunurlar. Mənzillə təminat tədbirlərinin davamı kimi bu gün Bakı və bölgələrdə daha 50 mənzil və fərdi ev təqdim edilir. 44 günlük Vətən müharibəsindən sonra 4 min 560, ümumilikdə ötən dövrdə 13 min 360 mənzil və fərdi ev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim edilib. Dövlət başçısının tapşırığı ilə bu il şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə ən azı 1500 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub. Ölkə Prezidentinin fərman və sərəncamları ilə son beş ildə 4 sosial islahat paketinin icra olunduğu, şəhid ailələri və müharibə iştirakçılarına yönələn sosial ödənişlərin də hər ilin əvvəlindən artırıldığı diqqətə çatdırılıb.

Mənzillərlə təmin edilən vətəndaşlar daim dəstəklə əhatə olunduqlarını bildiriblər. Onlar həmçinin sosial məişət şəraitlərinin yaxşılaşdırılması üçün aparılan işlərə, bu gün isə müasir tələblərə uyğun yaşayış şəraitinin yaradıldığı yeni mənzillərlə təmin olunduqlarına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

# Din xadimləri ilə görüş keçirilib



Azərbaycan İlahiyyat İnstitutunun (Aİİ) rektoru, dosent Aqil Şirinov Sumqayıtda din xadimləri ilə görüşüb. Təmsil etdiyi institut haqqında geniş məlumat verən rektor müəssisədə təhsilin tamamilə ödənişsiz olduğunu vurğulayıb. Daha sonra bildirib ki, Azərbaycanda yüksəksəviyyəli ali dini təhsil ocağının olması xaricə gedib dini təhsil almaq ehtiyacını aradan qaldırır. "Dinşünaslıq" və "İslamşünaslıq" ixtisasları üzrə tələbə qəbulu həyata keçirən ali təhsil müəssisəsində tələbələrə bütün dərsliklərin pulsuz paylandığını, eyni zamanda onlara yeməkpulu və adlı təqaüdlərin də verildiyini diqqətə çatdırıb.

Rektor qeyd edib ki, hər bir ölkənin özünəməxsus dini mühiti mövcuddur və bu xüsusiyyətlər mütləq nəzərə alınmalıdır: "Məsələn, digər ölkədə verilən din təhsilində istər-istəməz onların öz ənənələrinin spesifik xüsusiyyətləri nəzərə alınır və dini təhsil ona uyğun şəkildə tədris olunur. Bizdə də təhsildə Azərbaycan reallığı, ölkəmizin tarixi dini ənənəsi əsas götürülür. Beləcə, institutumuzdan məzun olacaq tələbələr dini insanlara olduğu kimi, radikallıqdan, xurafatdan uzaq və elmi şəkildə çatdıra bilən kadrlar olacaqlar. Bütün bunların fonunda dəyərlərimizi özündə əks etdirən dini təhsilin aparılması üçün ixtisaslaşmış kadrların hazırlanması Azərbaycan İlahiyyat İnstitutunun qarşısında duran ən mühüm vəzifələrdən biridir".

Görüş müzakirələrlə davam edib.

*"Azərbaycan"*

2018
2023

## Qlobal lider, qurucu rəhbər, müzəffər komandan



# Prezident göstəriş verir...

## Zamanı qabaqlayan addımların, layihələrin, hadisələrin başlanğıc anı

**Prezident göstəriş verdi - tez-tez eşitdiyimiz ifadədir!**

Həm də hamımız yaxşı bilirik ki:

*Bu, adi göstəriş deyil, ali göstəriş sayılır!*

*Bu göstəriş böyük dövlətin mürəkkəb icra mexanizminin hansısa bir qovşağının işə salınması deməkdir!*

Belə ki, ali göstəriş gələn kimi icra sistemi işə düşərək tapşırığı yerinə yetirməyə başlayır.

**Adətən, Prezident öz göstərişi ilə hansısa vaxtı çatmış məsələnin həllinə yaşıl işıq yandırır.**

*Beləliklə, gecikmələrə yol verilmədən hər iş vədəsində görülərək başa çatır, dalaqalma və ləngimə halları baş vermir.*

**Ötən dövrdə görülən işlər və icra olunan layihələr göstərir ki, Azərbaycan Prezidenti İlham Əliyevin göstərişləri həm də zamanı və hadisələri qabaqlama xarakteri daşıyır!**

*Bu göstəriş reallaşma mərhələsinə çatanda fərmana, sərəncama, bəzən hətta əmrə də çevrilə bilir.*

*Artıq sirr deyil ki, heç kimin bilmədiyi, proqnoz etmədiyi, hətta ağlına belə gətirmədiyi məsələlərdə İlham Əliyev hamını önləməyi bacarır.*

**Həm də artıq bu qabaqlamalar onun dəyişməz iş üslubuna çevrilib!**

**Bunu cənab İlham Əliyev prezidentliyinin iyirmi ili ərzində dəfələrlə sübuta yetirib!**

❖❖❖

Qeyd olunduğu kimi, adətən, nəhəng layihələrin icrasına Prezidentin göstərişi ilə başlanılır.

Tapşırıq əsasında işçi qrupu yaradılır, məsələ araşdırılır, öyrənilir, zəruri tədqiqatlar aparılır, müəyyən təkliflər söylənilir.

Növbəti mərhələdə ehtiyac duyularsa, layihənin geoloji əsasları, maliyyə mənbəyi, texniki parametrləri müəyyənləşdirilir.

Sonra müvafiq qərar layihəsi hazırlanır.

*Göstərişdən başlayaraq fərman və ya sərəncamla başa çatan ideya gerçəkləşmə mərhələsinə qədəm qoyur.*

**Beləliklə, çox mühüm bir layihənin, xalqımızın və dövlətimizin maraqlarına xidmət edən, gücümüzü artıraraq rifahımızı yüksəldəcək ideyanın real işə çevrilməsinə başlanır.**

❖❖❖

*Yalnız uzun müddət keçdikdən, layihələr işə düşdükdən sonra biz onların (həm də təkcə biz yox) dövlət başçısının uzaqgörənliyinin, siyasi fəhminin nəticəsi olduğuna inanır və sevinərək alqışlayırıq.*

Bəlkə də bu hal bir dəfə baş versəydi, onu haradasa təsadüf saymaq olardı...

**Ancaq Azərbaycanın reallaşdırdığı bütün meqalayihələr elə bir zamanda işə düşür ki, məhz həmin dövrdə bütün dünyanın ona ciddi ehtiyac duyduğunu görürük.**

❖❖❖

Bu tip layihələr üçün daha bir xarakterik məqam var:

*Adətən, dünya onları vədəsində və lazımınca qavramadığından, ya da Azərbaycanın etməli olduğunu istəmədiyindən kömək göstərməkdən, maliyyə yardımı ayırmaqdan imtina edir.*

Məsələn, böyük güclər Ulu Öndər Heydər Əliyevin "Əsrin müqaviləsi" əsasında hasil olunan neftin qeyri-ənənəvi marşrutla dünya bazarına çıxarılmasına mane olmaq istəyirdilər.

**Heydər Əliyev inadından dönmədi, illərlə yorulmadan mübarizə apardı!**

**Nəhayət, istəyinə nail oldu!**

*Artıq otuz ildir ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri Azərbaycana və bütün dünyaya xeyir verir!*

❖❖❖

Bakı-Tbilisi-Qars transmilli layihəsi də eyni aqibət yaşadı.

Dəmir yolu xətti Ermənistan ərazisindən keçmir deyə ona müqavimət göstərildi, tanınmış dünya bankları maliyyə ayırmaqdan boyun qaçırdı.

**Prezident İlham Əliyev də dediyinin üstündə möhkəm dayandı!**

**Bu layihəni Azərbaycanın daxili imkanları hesabına, öz gücü ilə həyata keçirdi!**

Həm də təkcə dəmir yolu xəttini çəkmədi...

*Bakı Dəniz Limanını yaratdı!*

*"Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizlərini işə saldı!*

*İki yüzdən çox yükdaşıma gəmisi inşa etdirərək Azərbaycanı Xəzər dənizində ən böyük mülki donanma sahibi etdi.*

*Okeanlara heç bir çıxışı olmayan Azərbaycanı logistika mərkəzinə çevirdi!*

❖❖❖

Prezident İlham Əliyev bütün bu işləri görəndə Rusiya-Ukrayna müharibəsi başlamamışdı.

Kimsə yeni dünya düzəninin formalaşmasına aparacaq hadisələrin proqnozunu ağlına belə gətirmirdi!

**Amma cənab İlham Əliyev vaxtında, hətta deyərdik ki, zamanı qabaqlamaqla bütün bu işləri inadla, qətiyyətlə gördü!**

*Uzun illər ərzində müasir daşımalar və logistik infrastrukturunun yaradılmasına yatırımlar etdi.*

**Bu gün isə Mərkəzi Asiyadan daşınan yüklərin Azərbaycan üzərindən Avropaya yönləndirilməsi az qala zərurətə çevrilib.**

❖❖❖

**Cənab İlham Əliyev Azərbaycan Prezidenti seçiləndə ölkə bir sıra problemlərlə üz-üzə idi.**

Regionlara elektrik enerjisi böyük fasilələrlə verildiyindən məişətdə yaranan çətinliklərdən əlavə, kənd təsərrüfatında, xüsusən yay aylarında suvarmada gərginliklər yaşanır, bu hesabla xeyli məhsul itirilirdi.

Qaçqın və məcburi köçkünlər çadır düşərgələrində çox ağır şəraitdə yaşayır, işsizlikdən, yayda istidən, qışda soyuqdan əziyyət çəkirdilər.

Ölkəyə Rusiyadan qaz idxal olunur, bəzən isə siyasi təzyiq kimi mavi yanacağın qiymətinin artırılması ilə bağlı təhdidlər baş verirdi.

Sahibkarlığın inkişafı, ölkəyə investisiya cəlbi ilə bağlı müəyyən çətinliklər də vardı.

*Bir neçə problemi eyni vaxtda həll etmək tələb olunurdu.*

*Odur ki, düzgün qərarlar qəbul etmək, perspektivli layihələrə üstünlük vermək, davamlı və sürətli iqtisadi inkişafa nail olmaq son dərəcə vacib idi.*



Prezident seçkiləri dövründə cənab İlham Əliyev bir nəfər məcburi köçkünün belə çadır şəhərciyində qalmayacağını, habelə günün bütün saatlarında Azərbaycanın bütün yaşayış məntəqələrinə elektrik enerjisinin veriləcəyini vəd etmişdi.

**Məsələ son dərəcə çətin olsa da, İlham Əliyev qərarlarında israrlı idi.**

*Prezidentin tapşırığına əsasən, regionların sosial-iqtisadi inkişafına dair ilk Dövlət Proqramı hazırlanaraq icrasına başlanıldı (Bütövlükdə bu sahədə dörd dövlət proqramı hazırlanaraq əlavələrilə birlikdə həyata keçirilmişdir).*

**İlham Əliyevin daha bir mühüm göstərişi Azərbaycanın enerji təhlükəsizliyi ilə bağlı oldu.**

*Sahənin vəziyyəti dərindən araşdırılaraq təhlil olundu, görüləcək tədbirlər müəyyənləşdirildi, dərhal işə başlanıldı.*

Bakı şəhərindən başlanan proses bütün bölgələri əhatə etdi:

- Bir qisim elektrik stansiyalarında əsaslı təmir və yenilənmə aparıldı;
- Texnoloji cəhətdən köhnə avadanlıqlarla işləyən stansiyalarda modernləşdirmə yolu ilə müasir qurğular quraşdırıldı;
- Köhnə elektrik stansiyalarında əsaslı yenidənqurma hesabına istehsal gücü qat-qat artırıldı;
- Elektrik enerjisi istehsal edən yeni qurğuların inşasına start verildi.

Növbəti mərhələdə isə daha gərəkli və uzaqgörən addımlar atıldı.

❖❖❖

Bir vacib məqamı da xüsusi vurğulamaq istəyirik:

*İşğal altındakı torpaqlar azad edildikdən dərhal sonra Qarabağ və Şərqi Zəngəzur bölgəsindəki dağ çaylarının yaratdığı imkanlardan səmərəli istifadəyə start verildi.*

**Yenə də Prezidentin göstərişi ilə ərazidəki çayların qarşısı kəsilərək süni göllər yaradıldı, düşmənin dağıdıb getdiyi qurğular işlək vəziyyətə gətirildi.**

*Beləliklə, həm ərazidə süni göllər hesabına su ehtiyatları toplanaraq kənd təsərrüfatının sürətli inkişafına şərait yaradıldı, həm də bərpaolunan enerji istehsalı sürətlə artırıldı.*

**Bu gün Avropa təbii qazla yanaşı, "yaşıl enerji"yə də ciddi ehtiyac duyur.**

**Prezident İlham Əliyevin müdrik uzaqgörənliyi sayəsində Azərbaycan bu ehtiyacın da ödənilməsində mühüm və səmərəli rol oynayır.**

Qeyd edək ki, Azərbaycan çox böyük "yaşıl enerji" potensialına malikdir.

Bu artıq təsdiq olunmuş faktdır.

Yalnız Xəzər dənizində külək enerjisinin potensialı 157 qiqavatdır, quruda külək və günəş enerjisinin potensialı 27 qiqavatdır.

Qarabağ və Şərqi Zəngəzurda potensial 10 qiqavata yaxındır.

Həmçinin Naxçıvan Muxtar Respublikasında böyük bərpaolunan enerji potensialı müəyyən edilib.

2022-ci ilin yanvar ayında Səudiyyə Ərəbistanını təmsil edən "ACWA Power" şirkətinin inşa etdiyi 240 meqavat gücündə Külək-Elektrik Stansiyasının, mart ayında isə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən tikilən 230 MVt gücündə Qaradağ Günəş-Elektrik Stansiyasının təməlləri qoyulub.

Hazırda 500 meqavatlıq günəş-elektrik stansiyasının tikintisinin mümkünlüyü ilə bağlı danışıqlar aparılır.

Azərbaycan strateji investorların biri ilə 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat günəş enerjisini istehsal etməyi planlaşdırır. Onların 80 faizi ixrac olunacaq. Azərbaycan 2037-ci ilə qədər ən azı 6 qiqavatlıq əlavə gücləri yaratmağı planlaşdırır.

2022-ci ildə Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya hökumətləri arasında "yaşıl enerji" sahəsində strateji tərəfdaşlıq haqqında saziş imzalanıb.

Bu sənəd ötən il dekabrın 17-də Prezident İlham Əliyevin Buxarestə səfəri zamanı imzalanıb və bunun sayəsində Qara dənizin dibi ilə elektrik kabeli çəkiləcək.

Bununla Azərbaycandan Şərqi və Mərkəzi Avropaya "yaşıl enerji" ixrac ediləcək.

*Onu da qeyd edək ki, artıq 4 kiçik su-elektrik stansiyası, 9 yarımstansiya, 1 Rəqəmsal İdarəetmə Mərkəzi istismara verilib.*

5 kiçik su-elektrik stansiyası və 2 yarımstansiyada işlər yekunlaşıb. 7 su-elektrik stansiyası və 1 yarımstansiyada isə işlər davam edir.

**Müstəqillik dövründə Azərbaycan artıq mavi yanacaq ixracatçısı kimi də tanındı.**

**Daha dəqiq desək, ölkəmiz qaz idxalçısından qaz ixracatçısına çevrildi!**

**Tezliklə "yaşıl enerji" ixracına da başlanacaqdır.**

❖❖❖

**Prezident İlham Əliyev həm də yüksək zövq sahibidir.**

**Biz Bakının yenidən tikilib qurulması zamanı bir daha bunun şahidi olduq.**

Bakı qədim, özünəməxsus ənənələri olan şəhərdir.

Həm də dəniz kənarında yerləşir, "amfiteatr" xüsusiyyətlərinə malikdir.

Şəhərsalmada bu və digər məsələlər hökmən diqqətdə saxlanılır.

**Cənab İlham Əliyevin göstərişləri əsasında şəhərsalmada və Bakının yeni Baş planının hazırlanmasında bütün bu cəhətlər nəzərə alındı.**

Bakının milli memarlıq xüsusiyyətləri qorunmaqla zamanın əl gəzdirdiyi tarixi binalar təmir olundu, yeniləndi, ömrü uzadıldı.

*Yeni, müasir memarlıq üslublarına əsaslanan layihələr paytaxta gətirilərək şəhərimizi məzmun və görünüşcə daha da gözəlləşdirdi, baxımlı etdi.*

**Prezident İlham Əliyevin göstərişləri əsasında müstəqillik dövründə Bakıda inşa olunan yeni binalar həm də dünya memarlığının ən yeni nümunələri sayılır.**

Onların bəzilərini yada salaq:

- Heyrətdoğuracaq gözəlliyə malik Heydər Əliyev Mərkəzi;
- Milli elementlərlə bəzədilmiş Heydər Əliyev Fondunun binası;
- Odlar Yurdu Azərbaycanın paytaxtı Bakının rəmzi sayılan, "Alov qüllələri" adlanan nəhəng "şüşə" binaları;
- Xəzər sahilində yerləşən böyük idman və konsert tədbirlərinin keçirilməsi üçün hər cür şəraiti olan, üstəlik, rekord sayılacaq qədər qısa müddətdə tikilən "Büllur saray" ("Bakı Kristal Zalı");
- Öz orijinallığı ilə seçilən Beynəlxalq Muğam Mərkəzi;
- Heydər Əliyev prospekti boyunca yerləşən, eyni üslubda tikilərək fərqli görünüşə malik modern inzibati binalar;

→ 11

2018
2023

## Qlobal lider, qurucu rəhbər, müzəffər komandan



# Prezident göstəriş verir...

## Zamanı qabaqlayan addımların, layihələrin, hadisələrin başlanğıc anı

10 ←

- Dəniz kənarı boyunca, habelə paytaxtın müxtəlif ünvanlarında inşa olunan müasir hotel binaları;
- Bir vaxtlar hisli-paslı ərazi sayılan "Qara şəhər"də salınan yeni "Ağ şəhər" yaşayış kompleksi;
- UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına salınan, ikinci ömrünü yaşayan, əcnəbi turistlərin ən çox sevdikləri yerə çevrilən İçərişəhər Memarlıq Qoruğu;
- Dünyanın heç yerində tayı-bərabəri olmayan, Xəzərin sahili boyu on kilometrlərlə uzanan Dənizkənarı Milli Park;
- Ən nəhayət, Milli Olimpiya Komitəsinin Prezidenti kimi cənab İlham Əliyevin göstərişləri əsasında yaradılan nəhəng idman sarayları və qurğuları.

*Ölkəmizə gələn qonaqları valeh edərək heyrətləndirən, Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirən bütün bu memarlıq inciləri, bina və qurğular əsrlər boyu insanlara xidmət göstərərək onlara sevinc və rahatlıq gətirəcəkdir!*

❖❖❖

**Prezident İlham Əliyevin müdrikliyi və uzaqgörənliyi qəbul etdiyi qərarlarda, verdiyi göstəriş və tapşırıqlarda daim öz əksini tapır!**

Ulu Öndər Heydər Əliyev Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərinin çəkilməsinə öz xeyir-duasını vermişdi.

*İlham Əliyev çox böyük uzaqgörənlik və siyasi fəhmlə uzunluğu 980 kilometr olan bu kəmərin meqalayihəyə çevrilməsi üçün zamanında zəruri göstəriş və tapşırıqlarını verdi.*

**Sanki Rusiya ilə Ukrayna arasında müharibənin baş verəcəyini, üçüncü dünya müharibəsi təhlükəsini, ABŞ-nin və Qərbin Ukraynanın tərəfini tutaraq Rusiyanı güclü sanksiyalara məruz qoyacağını, Avropada güclü mavi yanacaq böhranı yaşanacağını çox-çox irəlicədən görürdü və bilirdi.**

Əvvəlcə TANAP, sonra TAP hesabına böyüyən bu layihə bütövlükdə uzunluğu 3500 km olan "Cənub qaz dəhlizi"nə çevrildi.

Həm də elə bir vaxtda ki, sanki Avropadakılar layihənin yekunlaşaraq işə salınmasını gözləyirdilər...

*Prezidentimizin uzaqgörənliyi sayəsində Azərbaycan bir neçə mühüm problemi çox qısa zamanda həll etdi:*

- Avropanın ən etibarlı qaz təchizatçılarından birinə çevrildi;
- Yaranmış ehtiyac və zərurət sayəsində Avropanın qaz bazarına maneəsiz daxil oldu;
- Qısa müddətdə texniki məsələləri də həll etməklə Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya, Rumıniya və Macarıstanla qarşılıqlı maraqları təmin edən müqavilələr bağladı;
- Artıq dövlət başçısı Azərbaycanın yüz il ərzində Avropanın mavi yanacağa olan ehtiyacını təmin edəcək yeni yataqların istismarı və ixrac kəmərinin imkanlarının artırılması ilə bağlı müvafiq göstərişlərini vermiş, tapşırığın icrasına başlanılmışdır.

*Bu gün Azərbaycan dünyada tək neft ölkəsi kimi deyil, təbii qaz ixracatçısı kimi də məşhurlaşmışdır.*

*Getdikcə daha da artan və möhkəmlənən bu əməkdaşlıq ölkəmizin Avropa dövlətləri simasında yeni dostlar və tərəfdaşlar qazanmasına da imkan yaradır.*

❖❖❖

**Müstəqil Azərbaycanda gənclər siyasətinin əsasını Ulu Öndər Heydər Əliyev qoymuşdur.**

**Bu sahənin inkişafını və mövcud problemlərinin həllini isə cənab İlham Əliyevə həvalə etmişdi.**

Milli Olimpiya Komitəsinin prezidenti kimi cənab İlham Əliyev gənclərlə işi daim diqqət mərkəzində saxlamış, hətta dövlət başçısı seçildikdən sonra da qayğı və dəstəyini gənclərdən heç zaman əsirgəməmişdir.

*İlham Əliyev idmana təkcə fiziki kamilləşmə vasitəsi kimi baxmır.*

*Dəfələrlə öz çıxışlarında mənən zəngin, vətənpərvər, milli maraqların qorunmasında və torpaqların işğaldan azad edilməsində fədakarlıq göstərəcək yeni gənclər nəslinin tərbiyələndirilməsinin vacibliyini qeyd etmiş, bununla bağlı gərəkli addımlar atmışdır.*

Beləliklə, Prezidentin göstərişi ilə yüksək biliklərə, intellektual səviyyəyə malik gənclərin yetişdirilməsi üçün dövlət proqramı əsasında və dövlət hesabına dünyanın tanınmış ali təhsil ocaqlarında magistratura təhsili almaq üçün minlərlə gənc xarici ölkələrə göndərilmişdir.

Müasir hərbi biliklərə yiyələnmiş yeni gənc nəslin tərbiyəsini də təmin edən sistem yaradılmışdır.

**Dövlət başçısının tapşırığı və şəxsi nəzarəti ilə indiyədək ölkəmizdə 40-dan çox Olimpiya İdman Mərkəzi tikilərək gənclərin istifadəsinə verilmişdir.**

Qısa bir zamanda Azərbaycan idman dövlətinə çevrilmiş, minlərlə gənc dünya, Avropa birinciliklərində, Olimpiya oyunları və müxtəlif beynəlxalq yarışlarda iştirak edərək saysız-hesabsız medallar qazanmışlar.

Azərbaycan gənci istənilən idman növü üzrə yarışlarda qalib gələrək dövlət bayrağının yüksəldilməsini və himnimizin səsləndirilməsini şərəf borcu hesab edir.

*Prezidentin göstərişi ilə daim qaliblərə yüksək məbləğdə mükafatlar verilir, onlar mənzillərlə təmin olunurlar.*

Təkbətək idman növlərində düşmən dövlətin idmançılarını məğlubiyyətə uğradan Azərbaycan gəncləri 44 günlük Vətən müharibəsində bunu hərb meydanında da təkrarladılar.

**Məhz Birinci Qarabağ müharibəsindən sonra doğularaq böyüyən, cənab İlham Əliyevin Prezidentliyi dövründə yetişən gənclər Vətən müharibəsində misilsiz hünər və igidliklər göstərdilər, düşmən ordusunu torpaqlarımızdan qovdular, Şuşanı yalın əllə, əlbəyaxa döyüşərək geri qaytardılar!**

❖❖❖

**Müzəffər Ali Baş Komandan İlham Əliyev ixtisasca hərbçi deyil.**

**Heç zaman orduda peşəkar zabit kimi xidmət etməyib.**

*İlham Əliyev dünyanın ən prestijli təhsil ocaqlarından sayılan MDBMİ-ni əla qiymətlərlə bitirərək diplomat ixtisasına yiyələnib.*

*Həm də adi diplomat deyil, diplomatlara dərs demiş müəllim-diplomat, yüksəksəviyyəli diplomatdır.*

*Bu gün də onun şəkli MDBMİ-nin ən yaxşı müdavimlərindən biri olaraq təhsil ocağının Şərəf lövhəsini bəzəyir.*












**Ancaq İlham Əliyev Qarabağın azadlığı uğrunda apardığı mübarizədə yüksək komandan məharəti və peşəkar hərbçilərə məxsus ali keyfiyyətlər nümayiş etdirdi!**

**İlk dəfə müharibə etməsinə baxmayaraq, XXI əsrin ən yeni müharibəsini apardı!**

**Ortaya yeni müharibə nümunəsi, hamının öyrənəcəyi örnək qoydu!**

**Dünyanın ən güclü dövlətlərini belə Azərbaycanın hərbi nümunəsini öyrənməyə, islahatlar apararaq Azərbaycan Ordusu timsalında öz ordularında dəyişiklik və yenilənmə aparmağa vadar etdi!**

Faktiki olaraq hamını kiçik Azərbaycandan nümunə götürməyə sövq etdi!

*Bütün bunların əsası İlham Əliyev xarizmasından irəli gəlir!*

*Hər bir dövlətin rəhbəri həm də həmin dövlətin Ali Baş Komandanı sayılır!*

*Beləliklə, son söz söyləyəni, qəti qərar qəbul edəni olur!*

Deməli, həm də:

- Təkliflər içərisində ən mükəmməlini seçmək;
- Nümunələr əsasında ən yaxşısına üstünlük vermək;
- Variantlar arasında məhz hansının qəbul ediləcəyini təyin etmək səlahiyyəti də ondadır!

**Cənab İlham Əliyev işğal altındakı torpaqları azad edəcək ordu yaradılmasında ən mühüm və məsuliyyətli göstərişlərini verdi:**

- Ordu hansı texnologiyalara əsaslanan silahlarla silahlanmalıdır;
- Hansı strategiya və taktika tətbiq olunmalıdır;
- Müharibə aparılacaq ərazinin relyefinə uyğun hansı yeni qoşun növləri yaradılmalıdır;
- Uzun illər boyu nə kimi taktiki təlimlər keçirilərək ordunun peşəkarlığı yüksəldilməlidir;
- Ölkənin hava hücumundan müdafiəsi hansı silahlarla və necə təşkil olunmalıdır;
- Hərbi əməliyyatlar zamanı düşmənin ön cəbhə ilə arxanın əlaqə və təminatı necə kəsilməlidir;
- Hücumlar necə və hansı istiqamətlərdə aparılmalıdır.

**Bütün bunlar əvvəldən axıradək Müzəffər Ali Baş Komandanın göstərişləri əsasında baş verib:**

- Müharibədə tam qələbəni təmin edən göstərişlər!
- Düşmən ordusunu məhv edərək diz çökdürən göstərişlər!
- Düşmənin belini sındıraraq kapitulyasiya aktına qol çəkməyə məcbur edən göstərişlər!
- İşğal altındakı torpaqları azad edərək xalqın qisasını erməni faşistlərindən alan göstərişlər!

**Ən nəhayət, Azərbaycanı məğlub dövlətdən qalib ölkəyə, vüqarlı, milli mənliyi geri qaytarılan dövlətə çevirən göstərişlər!**

❖❖❖

Adətən, Prezidentin verdiyi göstərişlərin əsasında dövlətin iqtisadi maraqları da dayanır.

Əslində, bu maraqlar öz növbəsində müstəqil Azərbaycanın daha da qüdrətlənməsinə, xalqın sosial rifahının durmadan yüksəlməsinə xidmət edir.

Dünyada elə ölkələr var ki, əsas gəlirləri turizmdən olur.

Turist, əslində, "qonaq" deməkdir.

Dünyada yeni, maraqlı nəsə axtaran, görmədiklərini görmək istəyən qonaq!

Turist hər hansı ölkəyə səfərə getməzdən öncə bilmək istəyir ki, orada təhlükəsizlik, rahatlıq tapacaqmı, görmək istədiklərini, bəlkə də indiyədək görmədiklərini görə biləcəkmi?

Normal istəkdir və ona görə də bu yolda pul xərcləməyə hazırdır.

**Prezident İlham Əliyev Azərbaycanın dünya turizm məkanlarından birinə çevrilməsinə göstəriş verib.**

Bu göstəriş real imkanlara əsaslanır.

Əvvəla, Azərbaycan təbiəti xüsusi gözəlliyə malikdir, dünyadakı on iki iqlimin doqquzundan bizdə var.

İkinci, xalqımız mehriban, gülərüz, multikulturaldır, yəni bütün dinlərə hörmətlə yanaşır.

Üçüncü, ölkənin hüquq-mühafizə orqanları peşəkardır, məsuliyyətlə çalışır, heç kəsi heç bir təhlükə gözləmir, istəyirsən gecə səhərədək Bakının küçələrini gəz.

Dördüncü, maraqlı tarixi abidələrimiz, muzeylərimiz, sərgi salonlarımız var.

Beşinci, unikal mətbəxə - zəngin menyu və xörəklərə sahibik.

Dövlət də turistlərin rahatlığı üçün hər şeyi edib: rahat yol infrastrukturu, beynəlxalq hava limanları, hotellər şəbəkəsi, istirahət və əyləncə mərkəzləri mövcuddur.

Azərbaycanın dünyada tanıdılması sahəsində də səmərəli işlər aparılır: reklam çarxlarının sistemli nümayişi ilə yanaşı, il ərzində çoxsaylı azarkeşlərin cəlb olunduğu idman, o sıradan telekanallarda yarım milyard insanın tamaşa etdiyi "Formula-1" yarışları müntəzəm şəkildə keçirilir.

**Prezidentimizin göstərişinə əsasən, işğaldan azad edilərək cənnətə çevrilməsi prosesi gedən Qarabağda və Şərqi Zəngəzurda da turizmin inkişafı üçün indidən zəruri addımlar atılır.**

*İnanırıq ki, turizmə maneçilik törədən COVID-19-un fəsadları tam aradan qaldırıldıqdan, dövlət başçısının tapşırığı ilə başlanan işlər yekunlaşdıqdan sonra Azərbaycan başdan-başa dünya turistlərinin ən çox sevdikləri və səyahət etdikləri ölkəyə çevriləcəkdir.*

❖❖❖

Gətirilən misalların və faktların sayını istənilən qədər artırmaq mümkündür!

Amma bütün faktlar və məqamlar eyni fikri və həqiqəti təsdiq edir:

- Prezident İlham Əliyevin hər göstərişi, hər tapşırığı mükəmməldir, ölçülü-biçilidir, uzaqgörənlik nümunəsidir!
- Həmin göstərişlər təkcə sabahın uğur və nailiyyətlərini təmin etmir, həm də sonrakı günlərin qələbələrinin mühüm əsaslarını yaradır!

**Əslində, müstəqil Azərbaycanda baş verən hər bir dəyişiklik, inkişaf və yenilik başlanğıcını məhz İlham Əliyevin ilkin göstərişlərindən alır - nəyi, necə və nə vaxt etməyi dəqiq bilən və qətiyyətlə icra edən Müzəffər Ali Baş Komandan İlham Əliyevin!**

Hələ bundan sonra da çoxsaylı göstəriş və tapşırıqların, xalqın arzularının ifadəçisi olan çoxsaylı uğur və nailiyyətlərin şahidinə çevriləcəyik!

**Bəxtiyar SADIQOV**

# 2018 2023

# Qlobal lider, qurucu rəhbər, müzəffər komandan



# İlham Əliyevin prezidentliyinin zəfər dolu beş ili



**Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ölkə rəhbəri kimi son beş illik fəaliyyətini ən dəqiq və dürüst xarakterizə edən məfhum zəfər məfhumudur. Çünki onun rəhbərliyi altında Azərbaycan zəfər dolu bir dövr yaşamaqdadır. Təbii ki, bu zəfərlərdən ən böyüyü 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazandığımız böyük qələbədir.**

Qlobal pandemiyanın tüğyan etdiyi bir zamanda - 2020-ci ildə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan 44-günlük Vətən müharibəsində böyük zəfər çalmış, Qarabağı və Şərqi Zəngəzuru işğaldan azad etmiş və ərazi bütövlüyümüzü bərpa etmişdir. Azərbaycan keçmiş SSRİ-nin dağılmasından sonra yenidən əldə etdiyi müstəqilliyi dövründə öz tarixinin demək olar ki, ən ciddi çağırışı ilə üz-üzə qalmışdı. Beynəlxalq hüquqla müəyyən edilmiş və BMT tərəfindən tanınmış ərazilərimizin 20 faizi Ermənistan tərəfindən işğala məruz qalmış, suverenliyimiz pozulmuşdur. Bizə qarşı hökm sürmüş 30 illik çağırışa Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində ləyaqətli və qəhrəmancasına cavab verilmiş, torpaqlarımız düşmən tapdağından azad edilmiş, milli kimliyimizin və qürurumuzun əsas rəmzlərindən olan Şuşa azad olunmuş, ərazi bütövlüyümüz bərpa, müstəqilliyimiz və suverenliyimiz bərqərar edilmişdir.

Böyük zəfərlə tariximizin ən böyük çağırışını həll etdik. Amma çağırışlar davam edir və edəcək, çünki tarix əslində çağırışlardan ibarətdir. Yeni və təxirəsalınmaz çağırışlar qarşımızda durur: zəfərimizin nəticələrinin beynəlxalq səviyyədə tam surətdə tanıtmaq və təsbit etmək, işğaldan azad edilmiş torpaqlarımızın öz doğma sakinləri ilə məskunlaşdırmaq məqsədilə Böyük qayıdışı həyata keçirmək. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycan hər iki istiqamətdə fəal və yorulmadan çalışır, hətta bu fəaliyyət mücadilə səviyyəsində gedir. Sanki Vətən müharibəsində döyüşdə və səngərdə başladığımız zəfər yürüşü indi beynəlxalq diplomatik sahədə və Qarabağ və Şərqi Zəngəzurun bərpa və yenidən qurulması işində əzm və qətiyyətlə paralel surətdə davam edir.

Bu böyük zəfərdən sonra qarşımızda duran əsas vəzifələrdən biri işğaldan azad edilmiş və işğal zamanı viran qoyulmuş şəhər və kəndlərimizin, ümumiyyətlə, Qarabağın və Şərqi Zəngəzurun bərpası, yenidən qurulması və inkişafıdır. Vətən müharibəsinin bitməsindən ötən 2-3 il ərzində işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işlərinin miqyası və qazanılan nailiyyətlər artıq Müzəffər Ali Baş Komandan İlham Əliyevin tariximizə həm də qurucu Prezident kimi düşəcəyinə əminlik yaradır. İşğaldan azad edilmiş Füzulidə və Zəngilanda iki beynəlxalq hava limanının tikilib istifadəyə verilməsi, Laçında üçüncü beynəlxalq hava limanının inşaatının sürətlə getməsi, Zəngilan rayonunun Ağalı kəndində "ağıllı kənd"in inşa edilməsi və artıq ilk doğma sakinlərinin orada məskunlaşması və Füzuli rayonunun Dövlətyarlı kəndində "ağıllı kənd"in təməlinin qoyulması və tikinti işlərinin aparılması, Tərtər rayonunun Suqovuşan qəsəbəsinin bərpası və sakinlərinin oraya qayıtması Prezident İlham Əliyevin böyük quruculuq baxışının ilk praktik nümunələridir. Bundan əlavə, Şuşaya gediş-gəlişi təmin edən Zəfər yolunun inşası, digər çoxsaylı yol-nəqliyyat və infrastruktur layihələrinin həyata keçirilməsi, xəstəxana, məktəb və sair sosial müəssisələrin yaradılması, hotellərin, elektrik stansiyalarının, yeni iş yerlərinin açılması da bu qəbildən olan quruculuq işləri sırasındadır.

Müharibə zamanı BMT-nin 30 il ərzində icra edilməmiş qalan 4 qətnaməsini Azərbaycan özü təkbaşına 44 gün ərzində icra etdi. İndi isə bərpa, yenidənqurma, məskunlaşdırma və reinteqrasiya işlərini dövlətimiz heç kəsin yardımı olmadan həyata keçirir. Bu çağırışların və qarşıda duran problemlərin təkbaşına həll edilməsi nəinki hər kiçik dövlətin, hətta hər böyük dövlətin də işi deyil. İkinci Dünya müharibəsindən də bildiyimiz kimi, müharibədən çıxmış ölkələrin köməyinə digər ölkələr və beynəlxalq təşkilatlar gəlməsəydilər, bu işləri görmək mümkünsüz olardı. ABŞ-nin Marşal planı buna misaldır. Müasir dövrdə də buna aid çoxlu nümunələr var. Azərbaycan o nadir ölkələrdəndir ki, bunu təkbaşına edir. Amma bunun ən müsbət tərəfi ondan ibarətdir ki, məhz belə işlərə görə bizim müstəqilliyimiz formal xarakter daşımır, həqiqi və faktiki müstəqillikdir. Ona görə də müstəqil daxili və xarici siyasət yürüdürük. Bu strategiyanın, bu siyasətin memarı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevdir.

İşğaldan azad edilmiş ərazilərin planlı və sürətli şəkildə bərpası və yenidən qurulması işlərinin tam vüsətlə davam etdirilməsi ilə yanaşı, ümumilikdə ölkə əhalisinin sosial-iqtisadi vəziyyətinin və həyat şəraitinin yaxşılaşdırılması, bütün regionlarımızın inkişafı məqsədini güdən proqramların icrası da uğurla həyata keçirilir. Bütün bu nəhəng işlər isə böyük resurs və vəsaitlər tələb edir. Bu vəsait və resurslar Prezident İlham Əliyevin yürütdüyü siyasət nəticəsində qazandığımız iqtisadi uğurlar sayəsində əldə olunur.

İlham Əliyev bu il yüz illiyini qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyev məktəbinin, sözün əsl mənasında, yetirməsidir. Təkcə ona görə yox ki, o, Heydər Əliyevin oğludur, onun ailəsində, onun tərbiyəsi ilə böyüyüb formalaşıb. Hərçənd bu amil olduqca mühümdür. Həm də ona görə ki, o, Heydər Əliyevin dövlətçilik təcrübəsini yaxından izləmiş, müstəqillik dövründə Ulu Öndərin rəhbərliyi altında Azərbaycanda müxtəlif vəzifələrdə çalışmışdır. Belə bir deyim var ki, xoşbəxt, uğurlu müəllim o müəllimdir ki, şagirdi, tələbəsi özündən də böyük uğur qazansın. Bu mənada Ulu Öndər xoşbəxtdir, ruhu şaddır. Dünya liderləri Heydər Əliyevin Azərbaycan hüdudlarını aşan siyasətçi olduğunu qeyd edirdilər. Bu gün tam əminliklə demək olar ki, İlham Əliyev nəinki Azərbaycan, hətta region çərçivəsinə sığan siyasətçi deyil, onun siyasəti region hüdudlarını aşaraq trans-regional və qlobal xarakter daşıyır.

Prezident İlham Əliyevin peyvənd millətçiliyi və pandemiya ilə mübarizə məsələsindəki qətiyyətli təşəbbüsləri, Qoşulmama Hərəkatının inkişafına verdiyi töhfələr, dünyada idman və Olimpiya hərəkatına göstərdiyi xidmətlər, beynəlxalq sülhməramlı işlər və humanitar məsələlərə verdiyi dəstək, dinlər və sivilizasiyalar arasında əməkdaşlıq və dialoqa verdiyi təkan onun siyasətinin Azərbaycan və region hüdudlarını aşdığını təsdiq edir. Növbəti dəfə Prezident seçilməsinin beş ilinin tamam olduğu bu günlərdə də İlham Əliyev yorulmadan Azərbaycanın milli maraqlarını beynəlxalq aləmdə təmsil və təmin edir. Son günlər Tacikistan, Qazaxıstan, Gürcüstan rəhbərləri ilə keçirdiyi rəsmi görüş və danışıqlar, eləcə də müxtəlif beynəlxalq təşkilatların, transmilli şirkətlərin rəhbərləri, hökumət və dövlət başçıları ilə təmasları onun çoxşaxəli və yorulmaz fəaliyyətinin təzahürləridir.

**Adil ƏLİYEV,**
***Milli Məclis Sədrinin müavini***

# Xalqın inandığı, etimad göstərdiyi və taleyini etibar etdiyi lider

**Xalqımızın Ulu Öndər Heydər Əliyev ideyalarına sadiqliyinin göstəricisi kimi tariximizə həkk olunan sonuncu prezident seçkilərindən 5 il ötür.**

Əvvəlki seçkilərdə olduğu kimi, 2018-ci il aprelin 11-də keçirilmiş növbəti prezident seçkisinin də nəticələri göstərdi ki, möhtərəm İlham Əliyev Azərbaycan seçicisinin inandığı, güvəndiyi və öz taleyini etibar etdiyi siyasi liderdir. Bir daha təsdiq olundu ki, cəmiyyətimiz Heydər Əliyevin müəyyən etdiyi strateji xəttə, İlham Əliyev siyasi kursuna heç bir altenativi qəbul etmir. Çünki bu siyasət inkişaf, quruculuq, yüksək rifah və güclü dövlətçilik deməkdir.

2018-ci ilin seçkiləri Prezident İlham Əliyevin 15 illik fəaliyyətinin möhtəşəm tarixi uğur hesabatı oldu. Bu hesabatın hər bir səhifəsi xalqımızın görmək istədiyi uğurlarla əlamətdardır. 15 il böyük zaman kəsiyi olmasa da, bu dövrdə Azərbaycanın inkişafı istiqamətində əldə olunan nailiyyətlər bir neçə onilliyə bərabərdir. İqtisadiyyatımızın 3 dəfə artması, Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin istifadəyə verilməsi, Bakı-Tbilisi-Qars dəmir yolu, "Cənub qaz dəhlizi"nin təməlinin qoyulması, Azərbaycanın kosmik kluba daxil olması kimi hadisələr 15 ildə qazanılan tarixi nailiyyətlərdir.

Azərbaycanın 2003-2018-ci illərin ən böyük inkişaf göstəricilərindən biri də ordu quruculuğudur. Bu illərdə Silahlı Qüvvələrimizin ən müasir döyüş imkanlarına malik hərbi gücə çevrilməsi tam təmin edildi. 2016-cı ilin Aprel döyüşləri isə göstərdi ki, torpaqlarımızın işğaldan azad edilməsinə lap az qalıb.

2003-2018-ci illərdə regional və beynəlxalq miqyasda da böyük uğurlar əldə olundu. Müdrikcəsinə həyata keçirilən enerji siyasəti Azərbaycanın qlobal mövqelərini daha da möhkəmləndirdi, 2012-2013-cü illərdə respublikamız 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasında təmsil olundu. Regional miqyasda isə Azərbaycan artıq uzun illərdir ki, lider dövlət statusu daşıyır. Bu müstəvidə respublikamızın vacib uğurlarından biri də Ermənistanın bütün regional layihələrdən təcrid edilməsidir.

Bütün bu uğurların müəllifi və memarı isə möhtərəm Prezident İlham Əliyevdir. Məhz İlham Əliyevin müdrik və qətiyyətli siyasəti nəticəsində 2003-2018-ci illərdə Azərbaycanın fəxr yaradan yüksəliş və tərəqqi tarixi yazıldı. Bütün bunların məntiqi yekunu olaraq 2018-ci ilin növbədənkənar prezident seçkiləri də cənab İlham Əliyevin növbəti siyasi qələbəsi ilə başa çatdı. Seçkilərin nəticəsi belə bir obyektiv tarixi gerçəkliyin növbəti təsdiqi oldu ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasi kurs Azərbaycanın alternativsiz inkişaf yoludur.

Onu da fəxrlə qeyd etmək istərdim ki, əvvəl prezident seçkiləri kampaniyası dövründə Ulu Öndər Heydər Əliyevin, sonra isə möhtərəm İlham Əliyevin vəkili kimi fəaliyyət göstərmişəm. Həmin vaxtlarda yerlərdə seçicilərlə keçirilən görüşlər zamanı xalqımızın Ulu Öndərə və onun layiqli davamçısı olan cənab İlham Əliyevə sevgisinin, etimadının şahidi olurdum. Bəli, bir lider üçün xalqın sevgisindən böyük nə ola bilər? Seçkilərdə vəkil kimi fəaliyyətim həm də mənə göstərilən böyük etimad idi.

Cənab İlham Əliyevin növbəti prezidentlik müddətinin 5 ili də tariximizdə qürurverici hadisələrlə yadda qalıb. "Cənub qaz dəhlizi"nin tam istifadəyə verilməsi, Azərbaycan qazının tarixdə ilk dəfə olaraq birbaşa Avropa bazarlarına çatdırılması, üçüncü peykimizin orbitə çıxarılması kimi hadisələr dövlətimizin həm iqtisadi imkanlarını artırıb, həm də qlobal nüfuzunu yüksəldib.

Seçkilərdən sonra Milli Məclisdə and içən Prezident İlham Əliyev demişdi ki, biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməli və gələcəyə baxmalıyıq. Aradan ötən 5 ilin uğurları təsdiq edir ki, Prezident İlham Əliyevin bu sözləri reallığa çevrilməkdədir. Məsələn, ənənəvi enerji növlərini ixrac edən Azərbaycanın bu dövrdə alternativ enerji mənbələrinin yaradılması və ixracı istiqamətində atılan addımlar göstərir ki, respublikamız həqiqətən nailiyyətlərlə kifayətlənməyən və gələcəkdə daha çox uğurları hədəfləyən dövlətdir.

Ötən 5 il həm də hərtərəfli islahatlar dövrüdür. Bu islahatlar Prezident İlham Əliyevin inkişaf strategiyasının mühüm tərkib hissəsi kimi bütün sahələri əhatə edərək böyük dəyişikliklərə gətirib çıxarıb. Bu gün iqtisadi və sosial sferalarda, idarəçilikdə islahatların uğurlu nəticələri aydın görünür.

2018-ci aprelin 11-də seçkilərdən sonra xalqımıza müraciətində göstərilən böyük etimada görə minnətdarlığını bildirən İlham Əliyev demişdi ki, gün gələcək və işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq. Verdiyi bütün vədləri layiqincə yerinə yetirən möhtərəm İlham Əliyev öz uzaqgörən və düşünülmüş siyasəti ilə Azərbaycan bayrağını Qarabağda, Şərqi Zəngəzurda, Şuşada ucaltdı. Beləliklə, İlham Əliyevin növbəti prezidentlik müddətində müəllifi olduğu ən böyük uğur torpaqlarımızın işğaldan azad edilməsidir. Buna görə cənab İlham Əliyev tariximizə həm də şanlı zəfər salnaməsini yazan şəxsiyyət kimi daxil oldu.

İşğaldan azad edilən şəhər və kəndlərimiz indi böyük tikinti meydanını xatırladır. Cənab İlham Əliyev indi şəhər və kəndlərimizi yenidən qurur, keçmiş məcburi köçkünlər tədricən doğma evlərinə qayıdırlar. Artıq Zəngilanın Ağalı və Tərtərin Talış kəndlərində həyat öz axarına düşüb.

Prezident İlham Əliyevin respublikamıza rəhbərliyi həm də cəmiyyətimizdə humanizm dəyərlərinin daha da möhkəmlənməsinə yol açıb, Ulu Öndərin bu sahədə əsasını qoyduğu ənənələr davam etdirilib. Fəaliyyətinin təməl prinsiplərində humanizm dəyərləri dayanan Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) də daim Prezident İlham Əliyevin yürütdüyü siyasətdən güc alaraq öz missiyasını uğurla həyata keçirir. Xatırladım ki, cənab İlham Əliyevin prezident kimi fəaliyyətə başladığı ilk aylarda imzaladığı sərəncamlardan biri AzQAC-a dövlət qayğısının artırılması ilə bağlı olub. 2007-ci ildə isə Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü ilə "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" qanun qəbul edilib. Cəmiyyətin bütün yubileylərində AzQAC üzvləri dövlət başçısı tərəfindən "Tərəqqi" medalı ilə təltif olunublar. Son olaraq 2020-ci ildə AzQAC-ın 100 illiyi münasibətilə və aztəminatlı vətəndaşlara sosial xidmət və humanitar yardım göstərilməsi sahəsindəki xidmətlərinə görə əməkdaşlarımız Prezident İlham Əliyev tərəfindən 3-cü dərəcəli "Vətənə xidmətə görə" və 3-cü dərəcəli "Əmək" ordenləri, həmçinin "Tərəqqi" medalları ilə təltif olunublar. Bu diqqət və qayğı fəaliyyətimizə verilən ali qiymət olmaqla yanaşı, bizləri humanizm missiyamızı daha inamla həyata keçirməyimizə sövq edir.

Sonuncu prezident seçkilərindən ötən 5 il tariximizin yüksəliş və zəfər həkk olunmuş növbəti uğurlu mərhələsidir. Eyni zamanda geridə qalan hər bir il Prezident İlham Əliyevin uğur hesabatının yeni və möhtəşəm nailiyyətlərlə zənginləşdiyini göstərir. Bütün bunların fonunda görünən həm də odur ki, Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycan bundan sonra da bütün hədəflərinə qətiyyətlə çatacaq. Bu şərəfli yolda və şanlı missiyasında möhtərəm Prezident İlham Əliyevə müvəffəqiyyətlər arzu edirik.

***Novruzəli ASLANOV,***
***Milli Məclisin deputatı,***
***Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti***

2018
2023

# Qlobal lider, qurucu rəhbər, müzəffər komandan



# Tarixinin ən qüdrətli Azərbaycanının və onun ən möhtəşəm Zəfərinin müəllifi



**11 aprel 2018-ci il - cənab İlham Əliyevin növbəti dəfə Prezident seçilməsindən beş il ötür. Beş il öncə xalqdan yenidən etimad mandatı alan dövlət başçımız qısa zaman ərzində elə genişmiqyaslı uğurlara imza atdı ki, bu dövrü Azərbaycan tarixinin ən möhtəşəm qürur səhifəsi kimi qiymətləndirilir.**

**Beş il öncə ölkəmizdə keçirilən sayca 8-ci rəsmi prezident seçkilərində 8 namizəd iştirak edirdi. Xalq Azərbaycanı zülmətdən işıqlı sabaha çıxaran, inkişaf konsepsiyasını müəyyənləşdirən Ulu Öndər Heydər Əliyevin layiqli varisinin yenidən prezident seçilməsi üçün mütəşəkkillik nümayiş etdirdi və cənab İlham Əliyev şəffaf, azad, demokratik şəraitdə keçirilən seçkilərdə seçicilərin mütləq əksəriyyətinin səsini qazanmaqla alternativsiz Lider olduğunu bir daha təsdiqlədi.**

## Son 5 ilin mühüm uğurlu göstəriciləri

Bu bir həqiqətdir ki, Azərbaycan son 20 ildə misli görünməyən möhtəşəm uğurlar qazanıb. Əgər Ümummilli Lider Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə Azərbaycanda hakimiyyətə qayıdıb ölkəni uçurumun qarşısından alıb, tənəzzüldən yeni inkişaf yoluna çıxarmaqla adını tariximizə xilaskar lider kimi yazdırdısa, Prezident İlham Əliyev bu xilaskarlıq strategiyasını davam etdirib həm tarixinin ən qüdrətli dövləti, həm də ikiəsrlik münaqişəyə, 30 illik müharibəyə Zəfərlə son qoyan qüdrətli sərkərdə kimi xalqın qəlbində əbədi heykəlini ucaltdı.

2018-ci ildən ötən 5 ilə nəzər yetirsək, Prezident İlham Əliyevin həyata keçirdiyi möhtəşəm iqtisadi və sosial islahatların, yeni inkişaf strategiyasının, qlobal miqyaslı layihələrin şahidi olarıq. Tarixə qısa ekskurs edib son 5 ildəki mühüm uğurlara xronoloji ardıcıllıqla nəzər yetirək:

*- 2018-ci ildə yenidən Prezident seçilən İlham Əliyev həmin ili "dərin islahatlar ili" adlandıraraq sosial-iqtisadi və struktur islahatlarına başladı;*

*- Ən möhtəşəm layihələrdən biri - "Cənub qaz dəhlizi"nin açılış mərasimi oldu;*

*- Azsaylı kosmik dövlətlərdən olan Azərbaycanın sayca 3-cü "Azerspace-2" peyki orbitə buraxıldı;*

*- TANAP qaz kəməri istifadəyə verildi;*

*- Ələt Beynəlxalq Ticarət Limanı fəaliyyətə başladı;*

*- Naxçıvanda Günnüt döyüşlərində ordumuz böyük üstünlük əldə etdi;*

*- Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq prioritetləri sənədi paraflandı;*

*- 2019-cu ildə Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü keçirildi. Təşkilata sədrlik Azərbaycana keçdi.*

*- TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsi açıldı;*

*- "Şimal-2" elektrik stansiyası istismara verildi;*

*- Prezidentin böyük sosial islahatlar paketi qəbul edildi;*

*- Ölkə əhalisinin problemli kreditləri həll olundu;*

*- Azərbaycan əhalisinin sayı 10 milyon nəfərə çatdı;*

*- Dünya Bankının "Doing Business-2019" hesabatında Azərbaycan 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşdı. Bu sənədə əsasən ölkəmiz ən islahatçı 10 ölkə sırasında yer aldı;*

*- 2020-ci ilin fevral ayında VI çağırış Milli Məclisə seçkilər keçirildi;*

*- Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (İndiki adı Türk Dövlətləri Təşkilatı) COVID-19-a qarşı mübarizə ilə bağlı xüsusi sessiyası təşkil olundu;*

*- Prezident İlham Əliyevin təşəbbüsü ilə qlobal pandemiya ilə mübarizə istiqamətində BMT-nin xüsusi iclası çağırıldı;*

*- Tariximizin ən möhtəşəm Zəfəri qazanıldı. Prezident İlham Əliyev 30 illik münaqişəyə son qoyaraq adını Azərbaycan tarixinə Müzəffər Ali Baş Komandan, Qalib Sərkərdə kimi yazdırdı;*

*- 2021-ci ildə Prezidentin Fərmanı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradıldı;*

*- Dövlət başçısının sərəncamı ilə Şuşa Azərbaycanın mədəniyyət paytaxtı elan edildi;*

*- Prezident İlham Əliyevin "Zəfər yolu" adlandırdığı Füzuli-Şuşa avtomobil yolu istifadəyə verildi;*

*- Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi imzalandı;*

*- Prezident İlham Əliyevə türk dünyasının Ali Ordeni təqdim olundu;*

*- 2022-ci ildə Böyük qayıdışa start verildi. Zəngilanın Ağalı kəndindən 86 ailə 30 ildən sonra yurdlarına döndü;*

*- Rumıniyada "Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalandı. Sazişə əsasən Azərbaycan Qara dənizin altı ilə Avropaya enerji xətti çəkəcək; - Qarabağ və Şərqi Zəngəzurda yeni sosial-iqtisadi infrastrukturlar tikilib istifadəyə verildi;*

Bütün bunlar Prezident İlham Əliyevin təkcə ötən 5 illik zəngin siyasi fəaliyyətinin, həyata keçirdiyi müstəqil siyasətin, reallaşdırdığı qlobal layihələrin, apardığı sosial-iqtisadi islahatların, ordu quruculuğunun bəhrəsidir.

2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılan şanlı Zəfər isə Ali Baş Komandan İlham Əliyevin prezidentlik dönəmində qazandığı nailiyyətlərin zirvəsi oldu. Bu böyük Qələbə ilə cənab İlham Əliyev Azərbaycanın hərbi və iqtisadi qüdrətini bir daha dünyaya nümayiş etdirmiş oldu.

## Davamlı islahatlar və yeni inkişaf strategiyası

Beş il öncə aprelin 11-də keçirilən prezident seçkilərində qalib gələn cənab İlham Əliyev Milli Məclisdə keçirilən andiçmə mərasimində ona etimad mandatı verən xalqa təşəkkürünü bildirərək bundan sonra da siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayanacağını bəyan etdi.

Vədinə, sözünə sadiq olan Prezident kimi ölkə vətəndaşlarının sosial-iqtisadi durumunun, rifah halının daha da yaxşılaşdırılması istiqamətində mütərəqqi islahatların, sosial-iqtisadi layihələrin həyata keçiriləcəyini deyən cənab İlham Əliyev bununla da gələcək uğurların yol xəritəsini müəyyənləşdirdi. Dövlət başçısı bəyan etdi ki, növbəti illərdə görüləcək işlərlə bağlı çox aydın planlar və proqramlar var ki, bunlar Azərbaycanın sürətli inkişafına zəmanət verir. Məhz bu layihələrlə Azərbaycan daha da qüdrətli ölkəyə çevriləcək.

Əhalinin sosial problemlərinin həlli istiqamətində hər zaman mühüm qərarlar qəbul edən möhtərəm dövlət başçısının prezident seçkisindən sonra ilk imzaladığı fərman şəhid ailələrinin sosial məsələlərinin həlli istiqamətində oldu. Fərmana əsasən 12 min şəhidin 18 mindən çox vərəsəsinə dövlət tərəfindən 11 min manat vəsait ödənildi.

Hər zaman xalqın yanında olan, problemi, qayğısı ilə maraqlanan Prezident həyata keçirdiyi siyasətlə mütləq əksəriyyətin inamını bir daha qazandı.

Humanizmi ilə nümunə göstərilən, bağışlamağı bacaran Azərbaycan Prezidenti 2018-ci ilin mayın 24-də məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə əfv olunması haqqında sərəncam imzaladı. Sərəncam 634 nəfərə şamil edildi. Azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş 607 şəxs cəzanın çəkilməmiş hissəsindən azad olundu. 634 nəfərə verilən azadlıq yüzlərlə ailəyə bəxş edilən sevinc payı oldu. Xüsusi ilə qeyd etməliyik ki, Prezident İlham Əliyev əksər bayramlarda. əlamətdar günlərdə əfv sərəncamları imzalamaqla insanlara yeni həyat bəxş edir.

Azərbaycan Prezidentinin həyata keçirdiyi iqtisadi islahatların uğurlu nəticələri məhz sosial paketlərin qəbulunu şərtləndirdi. Dövlət başçısının hazırladığı sosial paketlər milyonlarla insanın pensiya, müavinət, təqaüd, əməkhaqqı, sosial yardım və digər sosial ödənişlərinin artımına real zəmin yaratdı.

İqtisadi islahatlarla yanaşı, Prezidentin siyasi, struktur islahatıarı isə daha çevik idarəetmə strukturunun yaradılması istiqamətində vacib rol oynadı. Məhz bu islahatlarla dövlət idarəetmə sistemində şəffaflığı təmin etdi, idarəetmənin yeni fəaliyyət üslubunu formalaşdırdı. Xüsusən də gənc kadrların mühüm vəzifələrə təyin edilməsi Prezidentin gənclərə etimadının göstəricisi kimi qiymətləndirilir. Dövlət başçısı hər zaman Azərbaycan gənclərinə güvənərək onlara öz dəstəyini əsirgəməyib. Ölkə gəncliyi də bütün zamanlarda Prezidentin yürütdüyü siyasətin təbliğatçısı kimi üzərilərinə düşən vəzifələri uğurla reallaşdırıb.

Ümumiyyətlə, bütün islahatlar zamanı Prezident İlham Əliyev düşünülmüş addımlar ataraq ilk növbədə xalqın və dövlətin maraqlarını, milli mənafeyi nəzərə almaqla qərarlar qəbul edir. Həmçinin cəmiyyətin islahatlara münasibətinə çox yüksək önəm verməklə xalqın fikri ilə hesablaşır, razılıq və narazılıqları diqqətə almaqla onları fəaliyyətində əsas götürür. Ona görə də xalq Prezidentin həyata keçirdiyi yenilikləri, dəyişiklikləri müsbət dəyərləndirərək ona öz dəstəyini nümayiş etdirir.

Struktur islahatlarına gəlincə isə Prezidentin həyata keçirdiyi yeni siyasi kurs idarəetmə sisteminin daha da təkmilləşdirilməsinə xidmət edir. Qısa zaman ərzində Prezident Administrasiyası, Nazirlər Kabineti, digər dövlət qurumları, yerli icra hakimiyyəti orqanlarında reallaşdırılan islahatlar adları çəkilən qurumların strukturlarının optimallaşdırılmasına xidmət etdi. Əlbəttə ki, bütün strukturlarda islahat aparıldığı üçün bu proses Ali Qanunverici orqandan da yan keçə bilməzdi. Milli Məclisə keçirilən seçkilər də bu islahatların tərkib hissəsi oldu.

2020-ci ilin fevral ayında keçirilən seçkilər VI çağırış Milli Məclis qarşısında da mühüm çağırışlar müəyyənləşdirdi. Milli Məclisin ilk iclasında çıxış edən Prezident İlham Əliyev parlamentin qarşısında olan çağırışları təhlil etdi və müvafiq tövsiyələrini verdi. Dövlət başçısı fəaliyyətdə əsas istiqamətlər kimi kəmiyyətə deyil, keyfiyyətə üstünlük verilməsini, müasir dövrün tələblərinə uyğun çalışmağı, mövcud qanunvericilik bazasını təhlil etməyi və təşəbbüskar olmağı göstərdi.

Parlament seçkilərindən sonra yeni tərkibdə formalaşan Milli Məclisin rəhbərliyinə müxalifət nümayəndəsinin seçilməsi də Azərbaycan hakimiyyətinin bu istiqamətdə həyata keçirdiyi genişmiqyaslı islahatların bundan sonra da davam etdiriləcəyinin göstəricisi idi. Bu, əlbəttə ki, ilk növbədə siyasi sistemin yeni konfiqurasiyasına yol açan islahatların tərkib hissəsi kimi qiymətləndirilməlidir.

## İki düşmənlə savaş, böyük Zəfər və yeni inkişafın milli prioritetləri

2020-ci il dövlət idarəetmə sistemləri üçün həm də sınaq ili oldu. Çünki dünya indiyə qədər görünməyən qlobal böhranla üzüzə gəldi. Əksər ölkələr vətəndaşların sağlamlığı və iqtisadiyyatın qorunması üçün mümkün olan bütün vasitələrdən istifadə etməyə çalışdı. Amma qlobal pandemiya böhranı dünya iqtisadiyyatını demək olar ki, çökdürdü.

Pandemiya ilə mübarizə tədbirlərinin, insan sağlamlığının qorunması istiqamətində atılan addımların istənilən ölkənin iqtisadiyytına göstərdiyi mənfi təsirlər özünü göstərdi. Təbii ki, bu durum dünyanın bir parçası olan Azərbaycandan da yan keçmədi. Ancaq buna baxmayaraq, siyasətinin mərkəzində hər zaman ölkə vətəndaşı dayanan Prezident İlham Əliyevin həyata keçirdiyi qabaqlayıcı tədbirlər ölkə iqtisadiyyatına o qədər də ciddi təsir etmədi. Böhran dövründə də vədinə sadiqliyini bir daha isbatlayan dövlət başçısı məhz pandemiya ilə mübarizə dövründə sosial paketlər təqdim etməklə vətəndaşının qayğısına qaldı. İşləməyən vətəndaşın maaşı dövlət tərəfindən ödənildi. Ölkədə heç bir sosial layihənin təxirə salınmaması, vətəndaşın sosial rifahının yaxşılaşdırılması istiqamətində önəmli qərarların qəbul edilməsi onu göstərdi ki, Azərbaycan dövləti cənab İlham Əliyevin söylədiyi kimi istənilən böhrandan qurtulmaq gücündədir. Məhz pandemiya dövründə 5 milyona yaxın insanın geniş sosial paketlə əhatə edilməsi, dövlət sektorunda çalışan və işsiz olan 900 min insanın əməkhaqqı ilə təmin edilməsi, 760 min sahibkara lazımi maliyyə dəstəyi göstərilməsi, 600 min insana hər ay 190 manatın ödənilməsi bunun real təsdiqidir.

Prezident İlham Əliyevin qlobal böhranla mübrizə istiqamətində gördüyü işlər Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən bir çox ölkələrə nümunə göstərildi. Qısa zamanda ölkədə maska istehsal edən zavod açıldı, modul tipli xəstəxanalar tikildi, ölkəyə vaksinlər gətirildi. Prezident İlham Əliyev Qoşulmama Hərəkatının sədri kimi "vaksin millətçiliyinə" qarşı mübarizə apardı və dünyanın əksər ölkələri Azərbaycan Prezidentinin bu təşəbbüsünü dəstəklədi.

Dünyanı ağuşuna alan, yüz minlərlə insanın ölümünə səbəb olan gözəgərünməz düşmənlə mübarizənin davam etdiyi vaxtda 30 il müddətində torpaqlarımızı işğal altında saxlayan Ermənistanın cəbhədə növbəti təxribatlarına cavab olaraq Azərbaycan Ordusu genişmiqyaslı əməliyyatlara başladı. Ali Baş Komandan İlham Əliyevin "Dəmir yumruq" əməliyyatı ilə düşmənin ötən illər ərzində möhkəmləndirdiyi bütün hərbi istehkamları Azərbaycan Ordusu tərəfindən darmadağın edildi. Erməni əsgəri Azərbaycanın igid oğulları qarşısında duruş gətirə bilməyərək bayrağını, silahını atıb qaçmağa məcbur oldu.

Əlbəttə ki, bu savaş baş verməyə də bilərdi. Əgər Hayastan rəhbərliyi Azərbaycan Prezidentinin münaqişənin həlli ilə bağlı ortaya qoyduğu mövqe ilə razılaşsaydı, hər iki tərəf itki vermədən problem həll oluna bilərdi. Amma Hayastanın yeni baş naziri Nikol Paşinyanın beynəlxalq konfranslardakı iddialı çıxışları, "Qarabağ Ermənistandır" sərsəm fikrini səsləndirməsi və Şuşada yallı gedib danışıqlar prosesindən tamamən uzaqlaşması Azərbaycanın səbir kasasını daşırdı. Amma Nikol Paşinyan cəmi 44 günə əsl sərkərdənin qarşısında diz çökmək məcburiyyətində qaldı. Noyabrın 10-da üçtərəfli Bəyanat imzalandı. Bu sənədin bir bəndinə əsasən Hayastan silahlı birləşmələrinin Ağdamı, Laçını və Kəlbəcəri tərk etmələrinə vaxt verildi. Bu isə o demək idi ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev təkcə savaş meydanında deyil, siyasi-diplomatik gedişdə də Hayastana tarixinin ən ağır məğlubiyyətini yaşatdı.

Bu şanlı Qələbə ilə cənab İlham Əliyev yaratdığı ən qüdrətli Azərbaycanın həm də ən möhtəşəm Zəfərinin müəllifi kimi adını tariximizə yazdırdı. Yəni Azərbaycanın son 200 illik tarixində qazandığı ən böyük qələbənin baş memarı kimi cənab İlham Əliyev həm də xalqın 30 illik sağalmayan yarasına məlhəm oldu.

Prezident İlham Əliyevin Qalib Sərkərdə kimi Şuşaya ayaq basması və mədəniyyətimizin paytaxtında ucaltdığı Azərbaycan bayrağının Qarabağa düşən kölgəsi bütün dünya haylarına elə dağ çəkdi ki, hələ də onun yanğısını hiss etməkdədirlər.

Müzəffər Sərkərdə Şuşadan dünyaya səslənərək bəyan etdi ki, yasadığımız müasir dövrdə hüququn əsasları deyil, güc amili ən mühüm silahdır. Azərbaycan uzun illər beynəlxalq təşkilatların ədalətinə sığınsa da, heç bir nəticəsi olmadı və nəhayət, bu münaqişə öz gücü ilə həll edildi, dünya kimin hansı gücə sahib olduğuna şahidlik etdi.

## Qarabağ və Şərqi Zəngəzurda misli görünməyən quruculuq, Böyük qayıdış

Möhtəşəm Zəfərdən sonra Cənubi Qafqazda yeni reallıqlar yarandı. Bu reallıqları düzgün dəyərləndirən Prezident İlham Əliyev bildirdi ki, bölgədə sabitliyin yeganə təminatı Hayastanla sülh müqaviləsinin imzalanmasıdır. Əks təqdirdə məğlub ölkə yenə də regionda bütün qlobal layihələrdən təcrid ediləcək.

Postmüharibə dövründə də Azərbaycan Prezidenti vəziyyəti doğru-düzgün analiz edərək yeni inkişaf starategiyası müəyyənləşdirdi. 2021-ci ilin fevral ayında "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"i təsdiqlədi və növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair 5 milli prioritet müəyyənləşdirildi - dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı, işğaldan azad olunmuş ərazilərə böyük qayıdış, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Sənəddə qeyd edilir ki, qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcək. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcək.

Beləliklə, 30 il düşmən tapdağında inləyən torpaqlarımızı "dəmir yumruq"la geri qaytaran İlham Əliyev Qarabağ və Şərqi Zəngəzuru dəmir iradə ilə yenidən qurmağa başladı. Bütün şəhərlərin baş planları təsdiq edildi və möhtəşəm layihələrin icrasına başlanıldı.

İşğaldan azad edilən ərazilərdə həyata keçirilən tikinti-quruculuq proseslərinə şəxsən nəzarət edən Prezident İlham Əliyev mütəmadi olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına səfər edərək yeni-yeni obyektlərin təməlini qoydu, bəzilərinin açılışını etdi. 2021-ci ildə cənab İlham Əliyev azad edilmiş torpaqlara ümumilikdə 32 dəfə səfər etdi.

44 günlük müharibədə Azərbaycana böyük mənəvi dəstək olan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla qalib sərkərdə İlham Əliyev Şuşa Bəyannaməsini imzaladılar. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəfərdən sonra Qarabağ və Şərqi Zəngəzura 2 dəfə (Füzuliyə və Zəngilana) səfərdə olaraq qardaşı İlham Əliyevlə birgə müxtəlif obyektlərin açılış mərasimində iştirak etdi.

Savaşdan ötən iki il yarım müddətdə Azərbaycan Qarabağ və Şərqi Zəngəzurda yalnız öz iqtisadi qüdrətinə müasir yaşayış kompleksləri, modern yollar, körpülər, tunellər, hava limanları, istilik və elektrik stansiyaları, su xətləri, inzibati binalar, hotellər və digər sosial-iqtisadi obyektlər yaratdı. Prezidentin tapşırığı ilə Qarabağda və Şərqi Zəngəzurda başlayan yenidənqurma işlərinə ötən 3 il ərzində, yəni 2021-ci, 2022-ci və 2023-cü illərdə ümumilikdə 9,7 milyard manatdan artıq vəsait yönəldilib. 2022-ci ildə isə Prezident İlham Əliyev "Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nı təsdiq etdi.

Bir danılmaz həqiqət də budur ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva bütün bu misli görünməyən layihələri reallaşdıran Prezident İlham Əliyevin ən böyük dəstəkçisi, ən yaxın silahdaşı kimi hər zaman yanında olub. Mehriban xanım Əliyeva birinci xanım kimi üzərinə düşən missiyanın məsuliyyətini dərindən dərk edərək, ölkə üçün taleyüklü məsələlərin həllində cənab İlham Əliyevlə birgə addımlayıb. Müharibədən sonra Azərbaycan xalqı işğaldan azad edilmiş torpaqlarımızın real vəziyyəti, erməni barbarlarının 30 ildə həyata keçirdikləri inanılmaz vəhşilikləri və eləcə də bu torpaqlarda reallaşan layihələri məhz Mehriban xanımın telefonunun kamerasından çəkilən görüntülərdən izləyib.

Bu gün Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən quruculuq işlərində, xüsusən də barbar hayların yox etmək istədikləri dini, mədəni abidələrimizin yenidən bərpasında Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun da əvəzsiz xidmətləri var. İşğaldan azad edilən ərazilərimizdə məscidlərimiz, mədəniyyət və dini abidələrimiz fond tərəfindən yenidən bərpa edilir və bütün bunlar tarixi keçmişimizin qorunub-saxlanmasında Mehriban xanım Əliyevanın müfəssəl işi və tariximizə, mədəniyyətimizə hörmətinin, ehtiramının bariz təcəssümüdür.

Qalib ölkənin alternativsiz lideri olan cənab İlham Əliyev yeni inkişaf strategiyası ilə Azərbaycanı Ulu Öndər Heydər Əliyevin görmək istədiyi, yəni dünyaya Günəş kimi doğan ölkəyə çevirərək daha möhtəşəm zəfərlərə, nailiyyətlərə doğru inamlı addımlar atmaqdadır. Qalib ölkənin qalib xalqı isə öz liderinin ərtafında sıx birləşməklə daim Prezidentin yanında olduğunu bəyan edir.

**Səttar MÖHBALIYEV,**
***Milli Məclisin deputatı,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

2018
2023

# Qlobal lider, qurucu rəhbər, müzəffər komandan



# İlham Əliyevə müxalifətdən tam dəstək



**Tarixinin ən qüdrətli Azərbaycanının müəllifi İlham Əliyevin növbəti dəfə prezident seçilməsindən 5 il ötür. Dövlət başçısının xüsusən bu müddətdə həyata keçirdiyi uğurlu daxili və xarici siyasət, həmçinin hərbi diplomatiyası nəticəsində Azərbaycan tarixi nailiyyətlərə və möhtəşəm zəfərə imza atıb, regionda yeganə güc sahibi olduğunu isbatlayıb.**

Ötən dövrdə uzun illər işğal altında qalmış torpaqlarımızın Ali Baş Komandanın rəhbərliyi ilə öz hərbi gücümüz hesabına düşmən tapdağından azad edilməsi ölkəmizin gücünü bir daha göstərdi. Vətən müharibəsi tariximizin qəhrəmanlıq salnaməsinə çevrildi. Bu tarixi yazan isə müzəffər sərkərdə İlham Əliyev oldu.

Ölkə rəhbərinin düşünülmüş siyasəti, uğurlu fəaliyyəti müxtəlif partiya mənsubları tərəfindən də yüksək qiymətləndirilir. Milli Məclisdə təmsil olunan müxalifət partiyalarının sədrləri bununla bağlı bizimlə fikirlərini bölüşüblər.

## Adı tarixə düşən müzəffər sərkərdə

***Asim MOLLAZADƏ,***
*Demokrat İslahatlar Partiyasının sədri, Milli Məclisin deputatı:*

- Prezident İlham Əliyevin son 5 ildəki fəaliyyətində yeni strateji sistem yaratması, daxili və xarici siyasətimizi, hərbi gücümüzü gücləndirərək torpaqlarımızı işğaldan azad etməsi mühüm rol oynayır. 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan dünyada strateji mövqeyə malik və qüdrətli dövlət kimi tanındı.

Prezident İlham Əliyev 2020-ci ildə İkinci Qarabağ müharibəsində müzəffər sərkərdə kimi adını tarixə yazdırdı. Nəticədə uzun illər ərzində erməni tapdağında qalan torpaqlarımız işğaldan azad edildi və ölkəmizin ərazi bütövlüyü təmin edildi. Ali Baş Komandan beynəlxalq təşkilatların otuz il ərzində həll edə bilmədiyi Qarabağ problemini cəmi 44 gündə rəşadətli ordumuzun gücü, qüdrəti ilə həll etdi və ədalət bərpa olundu. Bununla xalqımızın qüruru, inamı özünə qayıtdı.

Müharibədən ötən dövrdə isə dövlət başçısı Ermənistanla sülh müqaviləsinin imzalanması, regionda təhlükəsizliyin, əmin-amanlığın bərqərar olması üçün addımlar atır.

İlham Əliyev həm ölkədə, həm də xaricdəki bütün çıxışlarında Azərbaycanın milli maraqlarını qoruyur və bu istiqamətdə fikirlərini bildirir.

Bundan başqa, ölkəmiz son illərdə müxtəlif Avropa ölkələrinin enerji sahəsində etibarlı tərəfdaşına çevrilib. Bu da həyata keçirilən, ölkəmizin rəhbərinin təşəbbüsü ilə reallaşdırılan böyük və əhəmiyyətli enerji layihələrinin nəticəsidir.

Ümumiyyətlə, son illərdəki islahatlar Azərbaycanın inkişafını sürətləndirib və ölkəmizi dünyada tanıdıb. Ümid edirəm ki, bu islahatlar prosesi uğurla davam edəcək. Həmçinin ölkədə idarəetmə sistemindəki dəyişikliklər də bu inkişafa əsas verib.

Prezident İlham Əliyevin düşünülmüş, balanslaşdırılmış xarici siyasəti nəticəsində bir çox ölkələrlə əlaqələr genişlənib, müxtəlif istiqamətlərdə əməkdaşlıq artıb. Elə bunun nəticəsində ölkəmizə xarici investorların da marağı getdikcə çoxalır.

Son beş ildə baş tutmuş beynəlxalq mühüm tədbirlərə Azərbaycanın uğurla evsahibliyi etməsi də ölkəmizin nüfuzunu artırıb. Bütün bunlar məhz İlham Əliyevin müdrik siyasətinin nəticəsidir.

## Böyük qələbənin müəllifi

***Fəzail AĞAMALI,***
*Ana Vətən Partiyasının sədri, Milli Məclisin deputatı:*

- 2003-cü il Azərbaycan dövlətçiliyində kifayət qədər gərgin və həyəcanlı il idi. Ulu Öndərimizin səhhətində yaranmış ciddi problemlər onun Türkiyədə, daha sonra ABŞ-də müalicə olunması xalqımızda böyük həyəcan və nigaranlıq yaratmışdı. Xalqın böyük sevgisi və inamı ilə 2003-cü ilə qədər ölkəmizi böyük fəlakətlərdən qurtarıb müasir Azərbaycan dövlətinin əsasını qoyan Ulu Öndər Heydər Əliyevdən sonra hakimiyyətə kimin gələcəyi və həmin şəxsin yaradılmış müasir dövlətimizə töhfələr verə biləcəyi və ya verə bilməyəcəyi, Azərbaycanın yenə ayrı-ayrı dövlətlərdən asılı olacağı və digər suallar hər birimizi düşündürməkdə idi.

Belə bir zaman kəsiyində xalqımızın gözü vətənsevər, dövlətə və Heydər Əliyev ideyalarına sadiq olan İlham Əliyevə doğru yönəlmişdi. İlham Əliyev artıq 2003-cü il ərəfəsində Milli Məclisin deputatı kimi həm Avropa Şurasında Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi, həm də digər platformalarda özünü parlaq və böyük gələcəyi olan siyasətçi kimi təqdim etməkdə idi. Digər tərəfdən, Azərbaycanın yeni neft strategiyasının əsaslarının yaradılmasında Azərbaycan Neft şirkətinin Birinci vitse-prezidenti kimi də olduqca önəmli töhfələrini verməkdə idi. Təbii ki, biz də xalqımızın mütləq əksəriyyəti ilə bərabər idik. Xalqın dəstəyi, iradəsi ilə hakimiyyətə İlham Əliyevin gəlməsinin vacibliyini önə çəkirdik. Bu, ilk növbədə, xalqımızın Heydər Əliyevə və onun dövlətçilik konsepsiyasına inam və sədaqəti ilə bağlı idi. İlham Əliyevin dövlət başçısı seçilməsi onun üstün keyfiyyətlərə malik olması ilə bərabər, həm də Heydər Əliyev siyasi kursunun davamlı olması baxımından da etibarlı idi. Belə bir vaxtda xalqımız yanılmadı və Ulu Öndərin müraciəti ətrafında sıx birləşərək 2003-cü ildə İlham Əliyevi prezident seçdi.









İlham Əliyev Ulu Öndərimizin bütün istiqamətlərdə siyasətini yüksək səviyyədə davam etdirməyə başladı. Neft strategiyasının reallaşmasında həlledici rol oynayan prezident, ilk növbədə, Azərbaycanın Avropaya inteqrasiya olunmasına xüsusi diqqət və əhəmiyyət verdi. Bununla bağlı irəliyə doğru konkret addımlar atıldı. Ölkənin idarə edilməsində bu və ya digər boşluqları aradan qaldırmaq üçün struktur dəyişiklikləri etdi. 2003-cü ildə qəbul edilmiş regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramının icrasını sürətləndirdi. Əslində, İlham Əliyev bütün mənalarda Azərbaycan xalqının ona göstərilən inam və etimadını yüksək səviyyədə doğrultdu. Eyni zamanda müasir dünyanın çağırışlarını Azərbaycan dövlətinin güclənməsinə transfer edərək beynəlxalq nüfuzunu artırmaq sahəsində həyata keçirdiyi tədbirlər onun beynəlxalq səviyyədə dövlət başçısı kimi nüfuzunu artırdı. İlham Əliyev qətiyyətli, prinsipial, olduqca dürüst, verdiyi sözə əməl edən və Azərbaycanın milli və dövlət maraqlarını nəzərə alıb fəaliyyətini bu istiqamətə yönəldən və reallaşdıran parlaq bir siyasətçi və dövlət xadimi kimi özünü təsdiqlədi. Təsadüfi deyil ki, Azərbaycan xalqı növbəti dəfə də İlham Əliyevə etimad göstərdi, böyük səs çoxluğu ilə o, prezident seçildi. Onun prezident kimi ikinci dönəmində xalqımızın qarşısında ciddi sual dayanırdı ki, Konstitusiyanın vermiş olduğu məhdudiyyətlər İlham Əliyevin ikinci dönəmdən sonra prezident seçilməsini məhdudlaşdıracaqmı? Belə bir vaxtda Ana Vətən Partiyası təşəbbüslə çıxış etdi ki, Konstitusiyaya dəyişiklik olunsun və Azərbaycan xalqının seçimini, onun seçim hüququnu Konstitusiya ilə məhdudlaşdıran maddə aradan götürülsün.

Ümumiyyətlə, Azərbaycanda prezident seçkilərinin keçirilməsi konkret müddətlə məhdudlaşdırılmasın, çünki bu səlahiyyət xalqa aiddir.

Sonrakı dövrdə İlham Əliyevin xalqın etimadını qazanması dəyərli nəticələrini verdi. Biz nəticə etibarilə 44 günlük Vətən müharibəsində qələbə əldə etdik. Bu qələbənin müəllifi Azərbaycan xalqı ilə, xalqın iradəsinə söykənərək torpaqlarımızı işğaldan azad edən Ali Baş Komandan İlham Əliyev oldu. Əminəm ki, bundan sonra da dövlət başçısı mürəkkəb beynəlxalq vəziyyətlərdə qarşılaşmış olduğu çətinlikləri aradan qaldıraraq ölkəmizi daha uğurlu gələcəyə doğru aparacaq. Ulu Tanrının xalqımıza bəxş etdiyi möhtərəm cənab Prezident öz xidmətini uğurla davam etdirəcək.

## Azərbaycanın bütövlüyünün başlanğıcı

***Tahir KƏRİMLİ,***
*Vəhdət Partiyasının sədri, Milli Məclisin deputatı:*

- Prezident İlham Əliyevin son 5 ildəki fəaliyyətində ilk olaraq yada düşən Qarabağ zəfəridir. Əlcəzairdə keçirilmiş islam dövlətlərinin konfransında Azərbaycandan əhalisi dəfələrlə çox olan ölkələrin nümayəndələri ilə rəsmi, qeyri-rəsmi görüşlər keçirirdik. Onların hamısı İlham Əliyevə heyranlığını ifadə edirdi. Bildirirdilər ki, on milyonluq dövlətə, başçısına son yüz illərdə ilk dəfə islam torpağını geri qaytarmaq şərəfi qismət olub. Bu, çox böyük, qürurlu hadisədir. Azərbaycan tarixində daim xatırlanacaq.

Bu, təkcə Qarabağın işğaldan azad edilməsi deyil, ümumiyyətlə, Azərbaycanın bütövlüyünün başlanğıcıdır. Bu başlanğıcı isə cənab Prezident qoyub. Azərbaycan bundan sonra bu istiqamətdə səylərini, uğurlu siyasətini davam etdirəcək. Prezidentin ötən 5 ildəki fəaliyyəti haqqında geniş danışmaq mümkündür. Bu illər ərzində ölkə həyatında mühüm hadisələr baş verib. Dövlət başçısının uğurlu, balanslaşdırılmış xarici siyasəti nəticəsində Azərbaycan qüdrətli, tanınmış ölkəyə çevrilib.

Xüsusən, Prezident İlham Əliyevin Qoşulmama Hərəkatına uğurlu sədrliyi, pandemiya kimi çətin dövrdə Azərbaycanı layiqli şəkildə təmsil etməsi dünyada rezonans doğurdu. Qarabağ və Şərqi Zəngəzur işğaldan azad edildikdən sonra həmin ərazilərdə dərhal yenidənqurma və bərpa işlərinin həyata keçirilməsi böyük hadisədir. Prezidentin nüfuzu ölkə daxilində və xaricdə daha da artıb. Buna şübhə yoxdur. Yaxın günlərdə Laçın yolu üzərində nəzarəti də bərpa etdik. Ümid edirəm ki, Xankəndiyə nəzarətimiz də bərpa olunar. Prezidentin strategiyasını tam müdafiə edirik və alqışlayırıq. Təki hər şey dövlətimizin, xalqımızın istədiyi kimi olsun.

## Uğurlu xarici siyasət, dünyada tanınan Azərbaycan

***Razi NURULLAYEV,***
*Milli Cəbhə Partiyasının sədri, Milli Məclisin deputatı:*

- Son beş ilə nəzər salsaq, yaddaqalan və xalqımızın, regionumuzun taleyini dəyişən ən mühüm məsələ işğal altında olan torpaqlarımızın erməni tapdağından azad edilməsi oldu. Artıq biz Xudafərin körpüsünü şəkillərdə görmürük, Şuşanı xəyallarımızda canlandırmırıq. Şuşaya gedə və qala bilirik. Azad olunmuş bütün şəhər və kəndlərimiz yenidən qurulur. Həm də ona görə yaddaqalan hadisədir ki, son 200 il ərzində Azərbaycan torpaqlarını qazana bilməmişdi, ancaq itirmişdi.

İlham Əliyevin rəhbərliyi altında Azərbaycan ilk dəfə torpaqlarını qaytara bildi. Bu gün ölkəmiz xarici siyasətdə xeyli öndədir. Azərbaycanla hesablaşan ölkələr var. Ölkəmiz artıq tanınır. Zaman var idi ki, xarici ölkələrdə olanda Azərbaycan deyəndə sözü belə deyə bilmirdilər. İndi isə ölkəmizi hər kəs tanıyır. Yalnız neft və qazına görə deyil, həm də 2020-ci ildə Azərbaycanın apardığı mübarizədə, müharibədə yeni müasir hərbi texnologiyalardan istifadə edərək öz torpaqlarını işğaldan azad etməsinə görə. Ölkəmizin bu uğuru bu gün həm də dünyanın müxtəlif hərbi məktəblərində dərs kimi keçirilir, öyrədilir. Bu da təbii ki, İlham Əliyevin prezidentliyi dövrünə düşdü və bunu o bacardı.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycanın yüksəliş salnaməsinin müəllifi

**Bu gün cənab İlham Əliyevin növbəti müddətə Azərbaycan Prezidenti seçilməsinin beşinci ili tamam olur. 2018-ci il aprelin 11-də keçirilən seçkilərdə xalqımız növbəti dəfə öz müdrik seçimini edərək inkişafı, quruculuğu, yüksək sosial rifahı təmin edən, Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən siyasi kursun davamına səs verdi. Seçkilərin nəticələri, namizədlərin topladıqları səslərin faizləri göstərdi ki, Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevin siyasi kursunu qətiyyətlə davam etdirən, Ümummilli Liderin ideyalarının həyata keçməsini layiqincə təmin edən möhtərəm İlham Əliyevin ətrafında sıx səfərbərdir.**

Hər bir namizədin seçkilərdə uğur əldə etməsinin başlıca səbəblərindən biri onun müəyyən etdiyi siyasi və sosial-iqtisadi hədəflər, bununla bağlı seçicilərə təqdim etdiyi proqramdır. 2018-ci ilin prezident seçkilərində də İlham Əliyev öz platformasını təqdim etdi. Yeni Azərbaycan Partiyasının 2018-ci il fevralın 8-də keçirilən VI Qurultayında çıxış edən dövlət başçısı qarşıda duran bütün vəzifələrə, ayrı-ayrı məsələlərə toxunaraq bildirdi ki, gələcək inkişafımızla bağlı çox aydın təsəvvürümüz, proqramlarımız var. Azərbaycan növbəti illərdə öz uğurlu, dinamik inkişaf tempini nəinki saxlayacaq, onu daha da yüksəldəcəkdir. Təbii ki, dövlət başçısının qarşıdakı dövrdə hədəfləri seçkilərin nəticələrində rol oynayan amillərdən biri oldu.

Cənab İlham Əliyevin seçkilərdəki qələbəsini təmin edən ən əsas amillərdən biri də Azərbaycanın 2003-2018-ci illərdə keçdiyi dinamik inkişaf yolu oldu. Başqa cür desək, 2018-ci ilin seçkilərinə qədər 15 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan bütün uğurlar seçkinin nəticəsini müəyyən etdi. 2003-2018-ci illərdə əldə olunmuş göstəricilərin statistikasına nəzər salaq. Bu dövrdə ümumi daxili məhsul 3,2 dəfə, büdcə gəlirləri 13,5 dəfə, ölkənin strateji valyuta ehtiyatları 26,6 dəfə, xarici ticarət dövriyyəsi 4,6 dəfə, ixracın həcmi 6 dəfə, regionlarda ümumi məhsul buraxılışının artımı 3,6 dəfə, əhalinin nominal gəlirləri 8,6 dəfə, maaş və pensiyalar 8 dəfə, minimum əməkhaqqı 12,9 dəfə, əhalinin banklardakı əmanəti 30 dəfə artıb. Respublikamızda 2 milyona yaxın yeni iş yeri açılıb, işsizliyin səviyyəsi 9,2 faizdən 5 faizə, yoxsulluğun səviyyəsi 44,7 faizdən 5,4 faizə enib. Bu rəqəmlər 2003-2018-ci illərdə əldə olunan inkişaf statistikasının çox az bir qismini əhatə edir. Cəmi bir neçə rəqəmin fonunda aydın görünür ki, 15 ildə Azərbaycanın qazandığı uğurlar olduqca möhtəşəmdir.

Bununla yanaşı, Prezident İlham Əliyevin yürütdüyü müstəqil xarici siyasət, Azərbaycanın milli maraqlarını qətiyyətlə təmin etməsi, regionda liderlik statusunu möhkəmləndirməsi, qlobal enerji təhlükəsizliyi məsələsində söz sahibi olan dövlətə çevrilməsi əldə olunan digər uğurları tamamlayaraq ölkəmizin yüksəliş və uğur salnaməsinin ayrı-ayrı səhifələrini təşkil etdi. Bütün bunlar kompleks şəkildə 5 il əvvəl cənab İlham Əliyevin prezident seçkilərindəki qələbəsinin əsasında dayandı. Seçkilərin nəticələri isə xalqımızın mütləq əksəriyyətinin İlham Əliyevin ətrafında sıx həmrəyliyinin və öz rəhbərinin şəxsiyyyətinə, yüksək siyasi və liderlik keyfiyyətlərinə növbəti dəfə etimadının əyani təcəssümü oldu.

Seçkilərdən sonra, 2018-ci il aprelin 18-də keçirilən andiçmə mərasimində Prezident İlham Əliyev qarşıda duran vəzifələr barədə bir daha söz açdı: "…Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik. Hər bir sahə üzrə bizim konkret proqramlarımız, planlarımız var. Həm beynəlxalq məsələlərlə, həm bölgələrimizin möhkəmləndirilməsi, siyasi-iqtisadi islahatların dərinləşməsi, sosial siyasət, ordu quruculuğu ilə bağlı bizim konkret proqramlarımız var".

Ötən 5 illik zaman kəsiyində qazandığımız uğurlar göstərir ki, Prezident İlham Əliyevin inkişaf strategiyasının nəticəsi kimi cəmiyyət həyatının bütün sahələrində əvvəlki illərdə baş verən keyfiyyət dəyişiklikləri davamlıdır və dövlət başçısının müəyyən etdiyi proqramlar, qarşıya qoyduğu məqsədlər sistemli şəkildə reallaşır. Ən mühümü də odur ki, bu məqsədlər vahid sahə üzrə yekunlaşmayaraq, kompleks xarakter daşıyır. Təsadüfi deyil ki, dövlət başçısının hələ andiçmə mərasimində anonsunu verdiyi islahatlar bütün sahələri əhatə edib. 2018-ci ildən sonra başlanan yeni islahatlar həm sosial, həm də iqtisadi sahələrdə böyük canlanma yaradıb, vətəndaş məmnuniyyətinin daha da yüksəlməsinə yol açıb. Yeni islahatların bir istiqaməti kimi idarəçilikdə həyata keçirilən dəyişikliklər, xüsusən gənc kadrlara etimad göstərilməsi və onların məsul vəzifələrdə irəli çəkilməsi də ötən 5 ilin uğurları sırasında yer alır.

"Cənub qaz dəhlizi" vasitəsilə respublikamızın Xəzərdən ixrac etdiyi təbii qazın Avropa bazarlarına çıxarılması, Azərbaycanın Qoşulmama Hərəkatına, Türk Dövlətləri Təşkilatına sədrliyi Prezident İlham Əliyevin ötən beş ildəki uğurları sırasında yer alan tarixi hadisələrdir. Bu dövrdə respublikamız qlobal bəlaya çevrilən COVID-19 pandemiyasının sınağından da layiqincə çıxıb. Prezident İlham Əliyevin pandemiya ilə mübarizədə beynəlxalq həmrəyliyi təmin etməsi bir daha onun yüksək liderlik keyfiyyətlərinin təcəssümü kimi tarixə düşdü.

Prezident İlham Əliyevin ötən 5 illik fəaliyyətinin ən böyük hadisəsi 2020-ci ilin Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsidir. Dövlət başçısı Vətən müharibəsinə qədər bütün çıxışlarında bəyan edirdi ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq, nəyin bahasına olursa-olsun torpaqlarını azad edəcəkdir. Cənab Prezident Azərbaycanı inkişaf etdirməklə, ordumuzun döyüş imkanlarını artırmaqla həm də torpaqlarımızın azad edilməsi üçün münbit şəraiti formalaşdırdı və Ermənistanın növbəti hərbi təxribatı bu tarixi missiyanın yerinə yetirilməsinə yol açdı.

Vətən müharibəsindəki zəfərin baş müəllifi olan cənab İlham Əliyevin qətiyyəti və iradəsi ilə Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq işləri də ötən beş ilin qürurverici nailiyyətlərindən biridir. Prezident İlham Əliyev indi qurucu lider əzmi ilə azad olunmuş torpaqları dirçəldir, düşmənin viran qoyduğu kənd və şəhərlərimizə yenidən həyat bəxş edir. Bu baxımdan cənab İlham Əliyevin növbəti müddətə prezidenliyinin ötən 5 ilinin fəxarət doğuran digər hadisəsi Böyük qayıdışın ilk ünvanı olan Zəngilanın Ağalı kəndinin sakinlərinin 30 ilə yaxın həsrətdən sonra öz doğma evlərinə dönüşü oldu.

Prezident İlham Əliyev qətiyyətli siyasəti ilə Vətən müharibəsində yaradılan yeni reallıqların əsaslarını daha da möhkəmləndirir. Dövlət başçısı beynəlxalq müstəvidə Azərbaycanın milli maraq və mənafelərini layiqincə qoruyur, qlobal enerji təhlükəsizliyinin təmini prosesində respublikamızın söz sahibi kimi üstün mövqelərini təmin edir. Tarixinin ən qüdrətli dövlətinə çevrilən müasir Azərbaycanı növbəti illərdə isə daha böyük nailiyyətlər gözləyir.

***Cəbi QULİYEV,***
***Milli Məclisin deputatı***

2018
2023

# Qlobal lider, qurucu rəhbər, müzəffər komandan



◆ Müəllifi İlham Əliyevdir




# İlham Əliyevin ASAN modeli

**Hökumət-vətəndaş münasibətlərində çevik mexanizmlərin tətbiqi, bu sahədə innovativ yeniliklərə geniş yer verilməsi və şəffaflığın tam təmin olunması Azərbaycanda inkişafı xarakterizə edən meyarlardan biridir.**

Bu barədə söz açarkən ilk yada düşən isə "ASAN xidmət" mərkəzləridir. Müəllifi Prezident İlham Əliyev olan və dünyada maraqla qarşılanan vətəndaşlara "ASAN xidmət" modeli Azərbaycanın milli brendidir.

## 360-dan çox xidmət, 61 milyona yaxın müraciət

"ASAN xidmət" mərkəzləri Prezident İlham Əliyevin 2012-ci il 13 iyul tarixli fərmanına əsasən, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində yaradılıb. Məqsəd vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azalması, onlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinə nail olunması, peşəkarlıq səviyyəsinin artırılması, dövlət strukturlarına etimadın daha da gücləndirilməsi, şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, elektron xidmətlərdən daha geniş istifadə olunması, bu sahədə aparılan institusional islahatların səmərəliliyinin artırılmasıdır.

10 ildən artıq tarix göstərir ki, dövlət orqanları tərəfindən göstərilən xidmətlərin vahid və əlaqələndirilmiş formada həyata keçirilməsini təmin edən "ASAN xidmət" mərkəzləri respublikamızda hökumət-vətəndaş münasibətlərinin keyfiyyətcə tamamilə yeni müstəviyə keçməsinə yol açıb. Fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında qurulan "ASAN xidmət" mərkəzləri vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşmanın formalaşdırılmasını təmin edib.

Hazırda 24 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 7-si Bakı şəhərində, 2-si Gəncədə, 2-si Sumqayıtda olmaqla, digərləri Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi və Balakəndədir. Lənkəran, Salyan və Naxçıvanda isə ilk "ASAN xidmət" mərkəzləri inşa olunur.

Bu mərkəzlərə müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən 360-dan çox xidmət göstərilir. "ASAN Kommunal" mərkəzlərində isə "Azərişıq" ASC, "Azərsu" ASC və "Azəriqaz" İB tərəfindən 55 növ xidmət göstərilir. Bu günədək "ASAN xidmət" mərkəzlərinə 8 milyon 624 mindən çox vətəndaşın 61 milyona yaxın müraciəti daxil olub. Keçirilən rəy sorğularına əsasən vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,8 faiz təşkil edir.












## "ASAN xidmət" həm də səyyar formada həyata keçirilir

"ASAN xidmət" həm də respublikamızın regionlarında səyyar formada həyata keçirilir. 2013-cü ilin iyun ayından indiyə kimi xüsusi təchiz edilmiş 10 Səyyar "ASAN xidmət" avtobusu və səyyar "ASAN qatar" vasitəsilə 2 milyon 773 mindən çox vətəndaşa səyyar formada xidmət göstərilib.

Səyyar şəkildə göstərilən xidmətlər Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən təqdim olunur. Eyni zamanda 3 növ funksional yardımçı xidmət - tərcümə və tibb xidməti, o cümlədən "Azərpoçt" MMC tərəfindən göstərilən bank xidmətləri təşkil edilir. Bura şəxsiyyət vəsiqələrinin, ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, əmək pensiyalarının təyin edilməsi, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, mənzillər üzərində mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması və yaşayış evləri (fərdi) üzərində mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması barədə çıxarışların (ilkin qeydiyyat istisna olmaqla) verilməsi, daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışların verilməsi, notariat və digər xidmətlər daxildir.

Bu günlərdə Astara rayonuna səfərimiz zamanı Səyyar "ASAN xidmət"in fəaliyyəti ilə tanış olduq. Masallı Səyyar "ASAN xidmət" avtobusu aprelin 3-dən Astarada şəhər Mədəniyyət evinin qarşısında vətəndaşlara xidmət göstərir. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sektor müdiri Mehdi Məmmədlinin sözlərinə görə, Astarada indiyədək səyyar xidmət 18 dəfə həyata keçirilib. Bunun 12-si Səyyar "ASAN xidmət" avtobusu, 6-sı isə Səyyar "ASAN qatar" vasitəsilə reallaşıb. Səyyar "ASAN xidmət" avtobusları vasitəsilə 53261, Səyyar "ASAN qatar" vasitəsilə isə 15019 vətəndaş müraciəti daxil olub.

## Prezidentə minnətdarıq

Astarada Səyyar "ASAN xidmət"dən yararlanan sakinlərlə də söhbətləşdik. Sürücülük vəsiqəsini dəyişən rayonun Təngəli kənd sakini Etibar Mahmudov deyir ki, cəmi 10-15 dəqiqəyə ona yeni sürücülük vəsiqəsi təqdim ediblər: "Bizə ən yaxın "ASAN xidmət" mərkəzi Masallıdadır. Düzdür, Masallı o qədər də uzaq deyil, amma səyyar avtobusun gəlməsi yerinə düşdü. Çox məmnun qaldım. Operativ şəkildə yeni sürücülük vəsiqəsi aldım. Bizə bu imkanları yaratdığı üçün Prezident İlham Əliyevə sonsuz təşəkkürlərimizi çatdırıram".

Rayonun Ərçivan kənd sakini Xədicə Zeynalova isə vərəsəlik sənədi üçün gəlmişdi: "Valideynlərimdən qalan torpaq sahəsi üçün vərəsəlik sənədi almalı idim. Bunun üçün bir neçə quruma müraciət etmək lazım gəlir. Amma səyyar avtobusun gəlməsi ilə məsələni operativ həll etdim. Məni güləruz qarşıladılar, müraciətimə baxdılar və qısa müddətdə vərəsəlik sənədimi hazırlayıb verdilər. Sağ olsun Prezidentimiz, vətəndaşlara xidmətlə bağlı bundan gözəl nə ola bilər ki?"

Astara şəhər sakini Aytən Məmmədli isə həm özü, həm də ikiyaşlı övladı üçün şəxsiyyət vəsiqəsi ilə bağlı müraciət etmişdi: "Gələndə bir qədər narahat idim ki, vaxt çatmaz. Hələ günorta olmayıb, biz artıq sənədlərimizi verdik. Həm mənim, həm övladımın müraciətini qeydə aldılar. Belə yüksək xidmət olduqca sevindiricidir".

Müşahidələrimiz göstərdi ki, nahara qədər vətəndaşların demək olar ki, böyük əksəriyyətinin sənədləri qəbul edilmişdi. Hər kəs xidmətdən məmnun və hər kəs minnətdar idi. Səyyar "ASAN xidmət" avtobusu hələ aprelin 28-nə kimi Astara şəhərində fəaliyyət göstərəcək.

***Rəşad CƏFƏRLİ,***
***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

*Bakı-Astara-Bakı*

# Müxalifət prezidentin siyasətini təqdir edir

2018-ci il aprelin 11-də keçirilmiş prezident seçkilərində xalqımız İlham Əliyevə növbəti dəfə etimad göstərdi. Bu gün sonuncu prezident seçkilərindən 5 il ötür. 5 ildə respublikamızda baş verən müsbət dəyişikliklər, inkişaf prosesləri və torpaqlarımızın azad olunması göstərir ki, İlham Əliyev Azərbaycanı öz milli hədəflərinə doğru qətiyyətlə aparan liderdir.
Məsələ ilə bağlı siyasi partiya liderlərinin fikirlərini öyrəndik. Onların sözlərinə görə, Azərbaycanın qüdrətlənməsində Prezident İlham Əliyevin xidmətləri əvəzolunmazdır.







## Vətən müharibəsindəki qələbənin müəllifi

Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə qeyd edib ki, 2018-ci ilin 11 aprel seçkilərindən ötən 5 il müddətdə Prezident İlham Əliyev ciddi uğurlara imza atıb: "Seçkilərdən dərhal sonra Prezident məhkəmə hüquq sistemində, sosial-iqtisadi və digər sahələrdə islahatların tətbiq olunmasının vacibliyini vurğuladı. Eyni zamanda ölkənin siyasi sistemində islahatların aparılmasının vacibliyi ilə bağlı mövqe bildirdi. Ötən dövrdə bu istiqamətdə ciddi addımlar atılıb. İslahatların həyata keçirilməsinə mane ola biləcək məmurlar işdən kənarlaşdırılıb, ciddi kadr dəyişiklikləri baş verib, idarəetmədə mühüm yeniliklər baş verib. Siyasi islahatlar çərçivəsində Prezident Administrasiyasında Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi yaradılıb. Bu şöbənin fəaliyyətə başlaması ilə ölkədə olan siyasi partiyalarla fərqli müstəvidə iş aparılmağa başlanılıb, partiyaların dirçəlməsi prosesinə start verilib, onların ölkənin ictimai-siyasi həyatında çəkisi daha da güclənib".

Partiya sədri deyib ki, siyasi sfera ilə bağlı atılan addımlar bütövlükdə ölkənin taleyinə təsirsiz ötüşməyib: "Məmurlar cəzalandırılıb, bəzi icra başçıları həbs olunub, onlar barədə ölçü götürülüb və yeni idarəetmə sisteminə keçidin əsası qoyulub. Yerlərdə Prezidentin nümayəndəlik institutları formalaşıb. Hələlik bu sistem işğaldan azad olunmuş ərazilər üçün nəzərdə tutulsa da, cənab İlham Əliyevin dediyinə görə, bu istiqamətdə digər ciddi islahatlara gedilməsi nəzərdə tutulub. Təbii ki, ölkənin iqtisadi və hərbi gücünün artırılması, regionda əsas aparıcı dövlətə çevrilməsi istiqamətində də mühüm addımlar atılıb".

A.Əlizadənin sözlərinə görə, bu prezidentlik dönəmində İlham Əliyevin ən böyük uğuru ondan ibarət olub ki, 44 günlük müharibədə düşmənə sarsıdıcı zərbə endirildi, torpaqlarımız işğaldan azad olundu və möhtəşəm tarixi zəfərə imza atıldı. Hazırda azad olunan torpaqlarımıza qayıdış prosesi həyata keçirilir. Bunun əsasında isə təbii ki, aparılan uğurlu siyasət, ordunun gücləndirilməsi, müasir silahların alınması, əsgər və zabitlərimizin bir sıra peşə ixtisası təlimlərinə cəlb olunması dayanıb. Bütün bunlar Azərbaycan Ordusunun daha da güclənməsinə səbəb olub.

## Xalqımız İlham Əliyevə güvənməkdə zərrə qədər də yanılmayıb

Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib ki, son 30 ildə taleyimizdən "yol xəritəsi", birləşdirici xətt kimi keçən önəmli hadisələr baş verib: "Son illərin əsas siyasi hadisələrindən biri isə 2018-ci il aprelin 11-də növbədənkənar prezident seçkilərinin keçirilməsi olub. Bu seçkilər Azərbaycanın ən yeni tarixində həlledici mərhələnin başlanğıcı, start nöqtəsidir. Prezident seçkilərindən az sonra ölkədə siyasi islahatlara start verildi, yeni siyasi konfiqurasiyanın formalaşması və siyasi dialoqun real prosesə çevrilməsi istiqamətində bir sıra ciddi addımlar atıldı, siyasi partiyalara münasibətin dəyişməsi özünü əməli surətdə göstərməyə başladı. Bu, ölkədə milli birlik və siyasi həmrəylik mühitinin oturuşması yolunda atılmış ən mühüm addımlardan biri idi. Bunu, həmçinin demokratik açılım adlandırmaq və yeni siyasi münasibətlər sisteminə keçid kimi dəyərləndirmək mümkündür".

Partiya sədri bildirib ki, İlham Əliyev xalqımızın ona göstərdiyi etimada söykənərək ölkədə yeni siyasi münasibətlər sisteminin yaradılması istiqamətində inqilabi addımlar atıb: "Bu gün həmin addımların müsbət nəticələrini görməkdəyik. Ötən 5 il ərzində hakimiyyətin siyasi partiyalarla əməkdaşlığının real məzmun qazanması istiqamətində böyük məsafə qət edilib. Biz bu yöndə görülən işlərlə bağlı fikirlərimizi ölkə mətbuatında dəfələrlə açıqlamışıq. Bu gün də bir daha qeyd edirik ki, İlham Əliyevin növbəti dəfə prezident seçilməsindən ötən 5 il birmənalı olaraq inqilabi dəyişikliklər dövrüdür".

Ə.Hüseynovun sözlərinə görə, səmimi olaraq etiraf etməliyik ki, Prezident İlham Əliyev ötən illər ərzində xalqımızın etimadını yüksək səviyyədə doğruldub. Ümumiyyətlə, 2003-cü ildən başlayaraq Azərbaycan xalqı İlham Əliyevə bütün seçkilərdə həmişə etimad göstərib və ona güvənib. Zaman da təsdiq etdi ki, xalqımız bu güvənində zərrə qədər də yanılmayıb. Azərbaycan xalqı son 20 ildə Prezident tərəfindən görülən işləri yüksək qiymətləndirir. "11 aprel seçkilərində xalqımız İlham Əliyevə ilk növbədə onun gördüyü işlərin nəticələrinə görə səs verib. Lakin eyni zamanda xalqımızın bu seçimi həm də gələcəyə hesablanmış seçim olub. Azərbaycan xalqı 5 il öncə İlham Əliyevi yenidən dövlət başçısı seçməklə sabitlik və təhlükəsizliyə, tərəqqi və gələcək inkişafımıza səs verib. Bu mənada 11 aprel 2018-ci il xalqımız üçün, ölkəmiz üçün adi təqvim yox, tariximizin növbəti mühüm dönüş nöqtəsidir", - deyə müsahibimiz qeyd edib.

Ə.Hüseynov vurğulayıb ki, bu dönüş nöqtəsinin ikinci özünütəsdiqini Ali Baş Komandan İlham Əliyevin xalqımızın ən ağrılı məsələsi, ən böyük problemi olan keçmiş Dağlıq Qarabağ münaqişəsini hərb yolu ilə həll edib torpaqlarımızın mənfur erməni işğalından azad edilməsinə nail olmasında gördük. Bu, onun bir lider və baş sərkərdə kimi verdiyi vədinə sadiq qalması, içdiyi andı gerçəkləşdirməsi demək idi: "Xatırlayırsınızsa, beş il öncə cənab Prezident andiçmə mərasimində bir daha açıq şəkildə bəyan etdi ki, Azərbaycan xalqı heç vaxt işğal faktı ilə barışmayacaq və torpaqlarımız düşmən tapdağından mütləq azad ediləcək. O, bu fikri bundan öncəki çıxışlarında da dəfələrlə səsləndirmişdi. Lakin budəfəki çıxışın əvvəlkilərdən çox böyük fərqi vardı. İlham Əliyev bu dəfə sadəcə növbəti çıxışını etmirdi, eyni zamanda bir Prezident və Ali Baş Komandan kimi and içir və xalqa söz verirdi".

Partiya sədrinin dediyinə görə, bu andın gerçəkləşməsi özünü çox da gözlətmədi. Biz bu andın təsdiqini 2020-ci il sentyabrın 27-də əks-hücum əməliyyatları ilə başlayan Vətən müharibəsində gördük. Qətiyyətli və mübariz lider, müzəffər ordu və yenilməz xalq birliyinin nəticəsində 44 gün ərzində torpaqlarımız düşmən tapdağından azad olundu, tarixi ədalət bərpa edildi. Beləliklə, Azərbaycanın haqq savaşına strateji baxışlarla, ağıl və çevik qərarlarla rəhbərlik edən İlham Əliyevin adı tarixə torpaqlarımızı işğaldan azad edən, ərazi bütövlüyümüzü bərpa edən lider kimi düşdü. Bu mənada, İlham Əliyev öz adını tarixə qızıl hərflərlə yazdırmaqla yanaşı, həm də tarix yaradan lider oldu.

"Geosiyasi təlatümlərin gündən-günə kəskinləşdiyi və lider böhranının yaşandığı müasir dünyada nadir dövlət başçıları var ki, üzərinə götürdüyü missiyanın məsuliyyətini ləyaqətlə daşımağı və onu müvəffəqiyyətlə həyata keçirməyi bacarır. Bu gün lider böhranının ən acınacaqlı şəkildə yaşandığı məğlub Ermənistanın fonunda Azərbaycanın necə güclü liderə, qətiyyətli sərkərdəyə, kamil dövlət başçısına malik olduğunu hər kəs təsdiqləyir. Bu həqiqəti hətta düşmən ölkənin siyasətçiləri, ekspertləri, media mənsubları, sıravi insanları da qeydsiz-şərtsiz qəbul edirlər. İlham Əliyevin ölkəmizin milli mənafelərini hər zaman və hər yerdə qətiyyətlə qoruması göz qabağındadır", - deyə Ə.Hüseynov bildirib.

## İlham Əliyevin rəhbərliyi ilə bütün mübarizələrdən qalib çıxacağıq

Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev qeyd edib ki, İlham Əliyevin növbəti dəfə prezident seçilməsindən keçən müddət ərzində çoxlu hadisələr baş verib: "Bu hadisələrin ən önəmlisi təbii ki, 44 günlük Vətən müharibəsi oldu. Biz İkinci Qarabağ savaşında dövlət olaraq düşmən üzərində tarixi və parlaq qələbə qazandıq, işğal altındakı torpaqlarımızı azad etdik, dünyaya öz gücümüzü və zəkamızı nümayiş etdirdik. Bu zəfərin memarı Prezident, Ali Baş Komandan İlham Əliyevdir. Prezident İlham Əliyev bu müharibədə liderlik, təşkilatçılıq, sərkərdəlik və diplomatik qabiliyyəti ilə tarixə öz imzasını atdı. Hazırda ölkəmizlə bağlı ciddi proseslər baş verir, xeyli gərginliklər var. Lakin inanıram ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bu mübarizədən də qalib çıxacaq".

Partiya sədrinin sözlərinə görə, Azərbaycan liderinin sayəsində tam müstəqil və dayanıqlı xarici siyasət həyata keçirir. Ölkəmizin taleyüklü məsələlərdə sərgilədiyi prinsipial mövqe həm də Prezidentin möhkəm siyasi iradəsindən və liderlik gücündən irəli gəlir. Bu gün Azərbaycanın qalib xalqa və dövlətə çevrilməsində İlham Əliyevin güclü siyasi zəkasının rolu hər kəsə məlumdur.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

2018
2023

# Qlobal lider, qurucu rəhbər, müzəffər komandan



◆ Zəfərin izi ilə

# İLHAM ƏLİYEV Zəfərinin Şuşa zirvəsi



**Şuşaya azadlıq bəxş edən Müzəffər Ali Baş Komandan indi onun quruculuğunun baş memarıdır**

Yolumuz yenə Şuşayadır...

Zəfər yolu ilə Qarabağın ecazkar mənzərəsinə tamaşa edə-edə zəfərimizin zirvəsinə doğru irəliləyirik. Dağların arxasından boylanan səhər günəşinin şölələri ətrafa yayıldıqca dünyada tayı-bərabəri olmayan bənzərsiz təbiət gözəlliyinə şahidlik edirik.

Daşaltıdan şəhərə doğru qalxarkən diqqətimizi çəkən Kirs dağı istiqamətindən Şuşaya çəkilən yeni yolun körpü və tunellərinin artıq hazır vəziyyətə gətirilməsi olur. Demək olar ki, həmin istiqamətdə tikinti işləri yekunlaşıb, asfalt örtüyü tökülüb. Bu yol, Zəfər yolu ilə Daşaltının üstündə, yəni Şuşanın girəcəyində yaradılmış dairədə birləşərək şəhərə daxil olur.

Şəhərə yaxınlaşırıq. Aylardır burada, Şuşa-Laçın yolunda ekoloji terrora "yox" deyən gənclərin səsləndirdikləri şüarlar hər tərəfə yayılır: "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Azərbaycan vahiddir, sərvətinə sahibdir!", "Ekoloji cinayətə son!", "Stop ekoterror!"...

Gənclər dayanmadan Azərbaycan, ingilis və rus dillərində bu şüarları təkrar edirlər. 4 aya yaxındır ki, burada əsl qəhrəmanlıq nümayiş etdirən gənc fəallarla salamlaşıb hal-əhval tutduqdan sonra şəhərdəki tikinti bumu, möhtəşəm quruculuq işləri ilə tanış olmaq üçün qalaya daxil oluruq...

## Möhtəşəm tikinti bumu: yeni hotellər, yaşayış binaları inşa olunur

Bir vaxtlar "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan, ölkəmizin ictimai-siyasi həyatında mühüm xidmətləri olan bir sıra görkəmli xadimlərin vətəni, eləcə də tarixi mədəniyyət beşiyi və Qarabağın baş tacı olan Şuşada möhtəşəm quruculuq işləri davam edir.

1752-ci ildə Pənahəli xanın tikdirdiyi qədim Şuşamız 28 il erməni barbarlarının vəhşilikləri nəticəsində dağıdıldı, məhv edildi. Amma Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Ali Baş Komandan İlham Əliyev imkan vermədi ki, Hayastan qədim şəhərimizi özününküləşdirsin. Müzəffər Ali Baş Komandan 200 əsrlik münaqişəyə, 30 illik müharibəyə son qoyaraq Azərbaycana qərinələr, əsrlər sonra böyük zəfər qazandırdı. Azərbaycan xalqının əsl qəhrəman oğlu kimi 39 ildən sonra Şuşaya qalib sərkərdə kimi ayaq basdı. Şuşada dalğalandırdığı bayrağın kölgəsi bütün Qarabağa düşdü, Şuşada yandırdığı Novruz tonqalının istisi bütün Azərbaycana yayıldı, xalqın ürəyi dağa döndü.

Bu gün 270 yaşlı Şuşamız İlham Əliyevin xüsusi diqqəti və qayğısı ilə quruculuğun baş meydanına çevrilib. Şəhər yenidən qurulur, ona istəyə uyğun və yaraşan yeni həyat, yeni nəfəs verilir. Burada tikilən hər bir iqtisadi və sosialyönümlü obyektlərin açılışı hər kəsdə ruh yüksəkliyi yaradır.

Hazırda Şuşada 23 ədəd çoxmənzilli bina inşa edilir. Binaların ümumi sahəsi 60 min kvadratmetr təşkil etməklə 450 mənzildən ibarət olacaq və gələn ilin sonuna qədər hazır olacaq. Beləliklə, şuşalılar doğma yurdlarına qayıtmağa başlayacaqlar.

Hazırda şəhərdə hotellər, yeni fərdi evlər də tikilməkdədir. Ən maraqlı binalardan biri isə 154 otaqlı hoteldir. 3 hektardan artıq olacaq hotel və konfrans mərkəzinin inşaat işlərinə bu ilin aprelində başlanılıb. Mərkəz ümumilikdə 154 otaqdan ibarət olacaq. Burada 400 nəfərlik konfrans zalı, görüş otaqları, restoranlar, mağazalar, yeraltı və yerüstü avtodayanacaqlar və digər zəruri infrastruktur yaradılacaq.

Ümumiyyətlə, Şuşa hotel və konfrans mərkəzinin inşası şəhərin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi zəngin mədəni həyatına qovuşması üçün aparılan bərpa-quruculuq işlərində mühüm yer tutur. Xatırladaq ki, qədim dövrdə Böyük İpək yolunun əsas qovşaqlarından biri olan Şuşa Avropa və Şərq şəhərləri ilə birbaşa ticarət əlaqəsi saxlayırdı. Bu şəhərlərdən davamlı gəlib-gedən tacirlərin gətirdikləri malları saxlamaq üçün karvansaralar tikilirdi. Məhz bu baxımdan mərkəz karvansara konsepti əsas götürülərək müasir və milli memarlıq üslublarının sintezi ilə dizayn edilib. Xarici görünüşündə milli memarlıq



















elementləri tətbiq olunacaq. Fasadın üzlənməsində isə şəhərin tarixi binalarının tikintisində işlədilən Şuşa daşından istifadə ediləcək.

Tezliklə Şuşada əvvəlkindən də gözəl yaşayış məhəllələri tikiləcək və öz doğma evlərindən didərgin düşən şuşalılar, eləcə də bütün qarabağlılar, şərqi zəngəzurlular el-obalarına qayıdacaq və ata, baba yurdlarında yaşayışlarına davam edəcəklər. Yəni Qarabağda yeni dövr başlayacaq, quruculuq işlərindən sonra isə müasirləşmə dövrü olacaq.

## Şuşanın işıqları sönmür

Vətən müharibəsindən sonra Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Şuşa şəhəri qısa müddətdə - 37 gün ərzində elektrik enerjisi ilə təmin edildi. Bundan sonra şəhərdə müasir elektrik şəbəkəsinin yaradılması üçün plan hazırlandı. Mövcud şəbəkə əvvəlki vaxtlardan qalma 48 ədəd köhnə transformator məntəqəsindən ibarət idi. Ona görə də 35/04 kVt-luq 9 elektrik yarımstansiyasının inşası planlaşdırıldı.





Artıq onlardan 6-da işlər yekunlaşmaq üzrədir. "Azərişıq" ASC-nin Şuşa Elektrik Şbəkəsinin rəisi Elxan Əhmədov deyir ki, Şuşada Rəqəmsal İdarəetmə Mərkəzinin istifadəyə verilməsi şəhərin dayanıqlı və keyfiyyətli enerji ilə təchizatı baxımından əhəmiyyətli hadisədir. Ənənəvi üçpilləli 35/10-6/0,4kV-luq paylayıcı elektrik şəbəkələrinin yerinə Şuşada qurulan yeni dairəvi elektrik təchizat sxemi müasir dərin-girişli ikipilləli 35/0,4kV-luq şəbəkələrlə əvəz edilib.

Hazırda Şuşa dayanıqlı enerji ilə təmin edilir. 5 ədəd yarımstansiya vasitəsi ilə polisin, hərbi birləşmələrin binaları, küçələr və yaşayş məntəqələri və istilik sistemləri elektriklə təmin edilir. Bir stansiyada ikidövriyyəli 4 ədəd transformator yerləşdirilib. Hər transformatorun gücü 2,5 mvA-dır. Əgər hansısa xətdə qəza olarsa, dərhal digər transformatorlar işə düşür. Yəni Şuşanın elektriklə təminatında heç bir problem yoxdur.

Onu da qeyd edək ki, artıq Şuşa şəhərinin elektrik şəbəkəsi Rəqəmsal İdarəetmə Mərkəzi vasitəsilə idarə olunur. Şəhərdə bütün yerüstü elektrik xətləri ləğv edilir. Bundan sonra ənənəvi işıq dirəklərinə Şuşada rast gəlinməyəcək.

Elxan Əhmədov deyir ki, dayaqlar olmayacaq, bütün şəbəkə beton tunellər vasitəsilə və izolyasiyalı kabellərlə abonentin evinə qədər yeraltı olacaq. Bunu da şərtləndirən amil Şuşa şəhərində qış aylarında qeyri-sabit hava şəraitinin hökm sürməsidir. Artıq qışda da Şuşanın işıqları kəsilməyəcək.

## Heç vaxt daimi içməli suyu olmayan Şuşada indi sular kəsilmir

44 günlük Vətən müharibəsi dövründə düşmən qüvvələri şəhəri tərk edərkən magistral su kəmərini də sıradan çıxarmışdılar. Yaranmış içməli su probleminin həlli məqsədilə ilkin olaraq Daşaltı kəndinin içməli su təchizatı bərpa edilib və Şuşa şəhərini müvəqqəti olaraq maşınlarla su ilə təmin etmək üçün Daşaltıda sudoldurucu məntəqə yaradılıb.

Bununla paralel olaraq Müdafiə Nazirliyinin müvafiq bölmələri ilə birgə təhlükəsizlik tədbirləri görülməklə diametri 325 mm olan Kiçik Kirs-Şuşa magistral su kəmərinin texniki vəziyyəti təftiş olunub.

Məlum olub ki, hərbi əməliyyatlar zamanı mərmi partlayışları nəticəsində şəhəri içməli su ilə təmin edən 9,4 km uzunluğunda polad borulardan ibarət magistral su kəməri üzərində 12 nöqtədə böyük qəzalar əmələ gəlib. Qəzaların qısa müddətdə aradan qaldırılması üçün lazım olan texniki avadanlıq və material tələbatı müəyyən edilib, həmçinin "Azərsu" ASC tərəfindən əlavə mühəndis-mütəxəssis heyəti, qəza-bərpa briqadası Şuşa şəhərinə ezam edilib.

Qəza-bərpa işlərinə cəlb olunmuş texnikaların maneəsiz hərəkəti üçün kəmərin marşrutu boyu mümkün olan yerlərdə istismar yolu salınıb, texnikaların hərəkətinin mümkün olmadığı yerlərə isə mal-materiallar əllə daşınaraq təmir işlərinə başlanılıb. Mürəkkəb relyefə malik ərazidə, meşə və dağ şəraitində magistral su kəmərinin qəzalı hissələri təmir edilib və Kiçik Kirs mənbəyində uzunluğu 9,4 km olan Kiçik Kirs-Şuşa magistral su kəmərinin qəzalı hissələrində bərpa işləri aparılıb. Qısa müddət ərzində Kiçik Kirs - Şuşa və Zarıslı - Şuşa magistral su kəmərlərinin qəzalı hissələri bərpa edilib. 2020-ci il noyabrın 25-də Kiçik Kirs, dekabrın 20-də isə Zarıslı mənbəyindən şəhərə suyun verilməsi təmin olunub. Şəhərdaxili şəbəkədə tənzimləmə işləri aparılıb. "Azərsu" ASC tərəfindən Şuşa şəhəri, Kəlbəcər, Laçın, Zəngilan rayonları və Hadrut qəsəbəsində fasiləsiz xidmət təşkil edilib.

Hazırda isə Şuşaya iki mənbədən - Zarıslı və Kirs dağının ətəyindən içməli su xətti çəkilib. Əvvəllər bu xətlər ayrı-ayrılıqda Şuşanı su ilə təmin edirdi. Ancaq sonradan nasosxana və təzyiqqırıcı inşa edildikdən sonra hər iki xətt bir məntəqədə birləşir və oradan şəhərə suyun verilməsi təmin edilir. Yəni şəhər 24 saat dayanıqlı içməli su ilə təmin olunur. Şəhərin daxilində 6 ədəd qazanxana tikilib və onların hamısı su ilə təchiz edilib.

Şuşa şəhərinin içməli və tullantı su təchizatı sistemlərinin yenidən qurulmasının növbəti mərhələsində şəhərdaxili içməli və tullantı su şəbəkələrinin tamamilə yenidən qurulması, tullantı sutəmizləyici qurğunun inşası nəzərdə tutulur.

Hazırda "Azərsu" ASC tərəfindən Şuşa şəhərində fasiləsiz xidmət təşkil edilib. Xidmət briqadaları mənbələrdə, magistral kəmərlərdə və şəhərdaxili paylayıcı şəbəkələrdə yarana biləcək problemlərin operativ həlli məqsədilə fəaliyyət göstərir.

## Şuşa möhtəşəm turizm mərkəzinə çevriləcək

Şuşa yenidən qurulur və daha möhtəşəm, daha əzəmətli olacaq. Şuşanın yenidən qurması isə İlham Əliyevin adı ilə sıx bağlıdır. Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, böyük şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir bəy Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir.

İllər öncə Ulu Öndər Heydər Əliyev Qarabağın tacı olan Şuşa şəhərinin hər bir azərbaycanlı üçün dəyərini qiymətləndirərkən demişdir ki, "Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə, Azərbaycan yoxdur". Bu bir cümlə, Şuşanın bizim üçün nə dərəcədə dəyərli olduğunun böyük ifadəsi idi.

28 illik həsrətdən sonra Şuşa azadlığına qovuşanda isə xilaskar İlham Əliyev Şuşanı belə qiymətləndirdi: "Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".

Bütün bərpa işlərindən sonra təbiəti və memarlığı ilə gözəl olan şəhər həm də turizm mərkəzinə çevriləcək. Şuşada dalğalanan bayrağımız Rusiya sülhməramlılarının nəzarətində olduğu Xankəndidə yaşayan ermənlərə gözdağı verir, Yuxarı Gövhər ağa məscidinin minarəsindən səslənən azan səsi Şuşanı azadlığına qovuşduran şəhidlərimizin ölməz ruhunu şad edir.

***Rəşad BAXŞƏLİYEV,***
***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

*Bakı-Şuşa-Bakı*

**2018 2023**

## Qlobal lider, qurucu rəhbər, müzəffər komandan



# Qüdrətli Azərbaycan davamlı nailiyyətlər qazanır

***Bu gün Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkələr sırasında öncül yerlərdən birini tutur. Bu inkişafın əsasında uğurla, uzaqgörənliklə reallaşdırılan daxili və xarici siyasət kursu dayanır. Bu strateji kursun Prezident İlham Əliyev tərəfindən müasir dövrün reallıqlarına, tələblərinə və qanunauyğunluqlarına müvafiq surətdə uğurla və qətiyyətlə davam etdirilməsi hazırkı milli inkişafın fundamental əsaslarını təşkil edir.***



Müxtəlif inkişaf modellərinin uğurla tətbiqi və hədəflənən nəticələrin əldə olunması, sosial-siyasi islahatların mütəmadi qaydada həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, vətəndaş cəmiyyəti və hüquqi dövlətin inkişafına maksimum əlverişli şəraitin yaradılması, ictimai-siyasi sabitliyin qorunması, ölkəmizin beynəlxalq münasibətlər sistemində sürətli şəkildə irəliləməsi müasir Azərbaycanın gerçəklikləridir. Əlbəttə ki, bütün bu nailiyyətlərin əsasında güclü lider fenomeni, insanlara doğru yol göstərmək bacarığı ilə xalqı vahid amala səfərbər edən lider dayanır. Azərbaycan tarixinə həkk edilmiş bu parlaq uğurlar Prezident İlham Əliyevin siyasi baxışları və uzaqgörənliyi sayəsində mümkün olub. Dövlətimizin rəhbəri ölkədə baş verənlərin məsuliyyətini daşımaqla yanaşı, beynəlxalq və qlobal məsələlərdə də ciddi təsir gücünə malikdir.

Özünü doğruldan yanaşmaları, uğurlu təşəbbüsləri, ən mühümü isə başqalarında yaratdığı yüksək inam hissi Prezident İlham Əliyevi müasir dünyamızın ən önəmli siyasi liderlərindən biri mövqeyində qərarlaşdırıb. Beynəlxalq siyasi arenada ona böyük rəğbət bəsləyir, təşəbbüslərini dəstəkləyirlər. Azərbaycan Prezidentinin irəli sürdüyü təkliflərin nə qədər məqsədyönlü olduğunu, real nəticələrə hesablandığını tarix dəfələrlə sübuta yetirib. Ona görə dünya liderləri dövlətimizin başçısının baxışlarına böyük önəm verir, ciddi məsələlərdə onunla müzakirələr, məsləhətləşmələr aparırlar.

2023-cü ilin ilk ayları da Azərbaycan dövlətinin bir çox sahələrdəki böyük uğurları ilə yanaşı, diplomatik əlaqələrinin güclənməsi, bu istiqamətdə əldə etdiyi nailiyyətlərlə tarixə yazılır. Azərbaycan Prezidenti İlham Əliyevin xarici səfərlərini, beynəlxalq toplantılarda iştirakı və çıxışlarını nəzərdən keçirdikdə ölkəmizin xarici siyasət xəttinin nə qədər məqsədyönlü şəkildə aparıldığını və gələcəyə hesablanmış aydın hədəflərinə çatdığını görə bilərik.

### Qoşulmama Hərəkatındakı nailiyyətlər

Ölkəmizin rəhbərinin Qoşulmama Hərəkatının Sədri kimi fəaliyyəti Azərbaycanın xarici siyasətinin son illərdəki ən mühüm nailiyyətlərindəndir. Bu il martın 2-də Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşünün təşkili, Azərbaycan Prezidentinin toplantıdakı çıxışı ölkəmizin sədrliyi dövründə bu təşkilata qazandırdığı uğurların nəzərdən keçirilməsinə daha bir imkan yaradır.

Azərbaycan 2019-cu ildə təşkilata üzv ölkələrin yekdil qərarı ilə Qoşulmama Hərəkatına sədrliyə başlayıb. 2022-ci ildə sədrlik müddəti başa çatsa da, üzv dövlətlər ölkəmizin quruma rəhbərlik müddətinin daha bir il də uzadılmasına qərar verdilər. Azərbaycan Qoşulmama Hərəkatının sədri olaraq ədalətin və beynəlxalq hüququn müdafiəsi ilə bağlı bütün dünya üçün örnək yaratdı.

Yada salaq ki, pandemiyanın bütün dünyanı bürüdüyü ilk vaxtlarda bu bəlaya qarşı qlobal imkanların bir araya gətirilməsi təşəbbüsü ilə çıxış edən ilk ölkə məhz Qoşulmama Hərəkatı, onun Sədri Azərbaycan Prezidenti İlham Əliyev oldu. Bu təşəbbüs BMT-yə üzv dövlətlərin böyük dəstəyini qazandı və 2020-ci ilin dekabrında belə bir sessiya təşkil olundu. Dövlətimiz Qoşulmama Hərəkatındakı lider mövqeyi ilə o kritik dövrlərdə peyvənd millətçiliyi həyata keçirən bir çox ölkələrə nümunəvi davranış sərgilədi. Qoşulmama Hərəkatı bütün ölkələrin peyvəndlərdən ədalətli və vahid şəkildə istifadəsini təmin etmək üçün 2021-ci ildə BMT-nin İnsan Hüquqları Şurasında və BMT Baş Assambleyasında qəbul edilmiş iki qətnamənin təşəbbüskarı oldu. Azərbaycan özü yüksək məsuliyyət göstərərək əksəriyyəti Qoşulmama Hərəkatının üzvləri olan 80-dən çox ölkəyə koronavirusla bağlı ikitərəfli kanallar, yaxud Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə maliyyə və humanitar yardımlarını əsirgəmədi. Azərbaycanın sədrliyi ilə bu təşkilatın institusional inkişafı yönündə də çox ciddi uğurlar əldə edildi. Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi, Gənclər Təşkilatı yaradıldı.

Azərbaycan Qoşulmama Hərəkatının gücündən istifadə edərək beynəlxalq təhlükəsizlik arxitekturası ilə bağlı bir çox arzuolunmaz tendensiyaları gündəmə gətirdi. İkili standartlar siyasətinə qarşı mövqeyini ortaya qoydu. BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat kimi Qoşulmama Hərəkatının bütün dünyada daha nəzərəçarpan və səmərəli rol oynaması, yeni dünya düzəninin formalaşmasında fəal iştirakı təşəbbüslərini aktuallaşdırdı. Eyni zamanda keçmiş reallıqlara uyğun qurulmuş BMT sistemində islahatların aparılması, onun Təhlükəsizlik Şurasının tərkibinin genişləndirilməsi və burada bir daimi yerin Qoşulmama Hərəkatına verilməsi təşəbbüsünü gündəmə gətirdi. Həqiqətən belə bir addım, həm coğrafi, həm də mənəvi-siyasi nöqteyi-nəzərdən daha ədalətli yanaşma olardı.

Qoşulmama Hərəkatına üzv ölkələrin bir çoxunun mina və partlamamış hərbi sursatlarla ən çox çirklənmiş ölkələr sırasında olduğunu nəzərə alaraq, Azərbaycanın Hərəkatın səsinin qlobal miqyasda eşidilməsi üçün Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılması təklifini də irəli sürdü.

### Qlobal çağırışlara həssaslıq

Onu da qeyd edək ki, Qoşulmama Hərəkatı Azərbaycanın beynəlxalq proseslərə təsir imkanlarını getdikcə gücləndirən platformalardan yalnız biridir. Ölkəmizin uzun illərdən bəri uğurla evsahibliyi etdiyi Qlobal Bakı Forumu da nüfuzlu beynəlxalq platformaya, bəşəriyyətin taleyi ilə bağlı bir sıra mühüm məsələləri dünyanın diqqətinə çatdırmaq üçün yüksək tribunaya çevrilib. Azərbaycan Prezidentinin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə bu ilin 9 mart tarixində "Dünya bu gün: Çağırışlar və ümidlər" mövzusunda təşkil etdiyi X Qlobal Bakı Forumundakı çıxışı da bunu bir daha təsdiqləmiş oldu. Azərbaycan Prezidenti həmin çıxışında xüsusi vurğuladı ki, hazırda biz soyuq müharibənin bitməsindən sonra bugünədək baş vermiş bəlkə də ən ciddi Şərq-Qərb qarşıdurmasının şahidi oluruq. Qoşulmama Hərəkatı körpülərin salınmasında, münaqişələrin həllində yeni yanaşmaların formalaşdırılması və Qoşulmama Hərəkatının təməl prinsiplərinin - Bandunq Prinsiplərinin təmin edilməsində mühüm rol oynaya bilər və oynamalıdır. Həmin prinsiplər - sülh, əməkdaşlıq, ərazi bütövlüyünə və suverenliyə hörmət, habelə sərhədlərin toxunulmazlığından ibarətdir.

Prezident İlham Əliyev X Qlobal Bakı Forumunda Vətən müharibəsindəki qələbəmizdən sonra regionda yaranmış yeni tarixi reallıqlar, daimi sülhün əldə olunması üçün atılmalı addımlar barədə fikirlərini də bölüşdü, rəsmi Bakının bütün bu məsələlərlə bağlı aydın mövqeyini bir daha diqqətə çatdırdı. Ölkəmizin evsahibliyi ilə təşkil olunan və getdikcə daha böyük beynəlxalq maraq cəlb edən Qlobal Bakı Forumunun onuncusu da dünyamızda mövcud olan ümumi mənzərənin dəyərləndirilməsi, müasir çağırışların nəzərdən keçirilməsi, qlobal problemlərə birgə həllərin tapılması baxımından son dərəcə rəğbətlə qarşılanan və faydalı toplantı kimi tarixə yazıldı.

### Daim xatırlanan siyasət dərsi

Bu il fevralın 18-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində təşkil edilmiş "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" adlı plenar iclas tarixi bir toplantı kimi yadda qaldı. Azərbaycan Prezidenti İlham Əliyevin bu toplantıda iştirakı, plenar iclasdakı proqram xarakterli çıxışı, irəli sürdüyü tezislər isə bölgəmizin bu günü və gələcəyinə aydın strateji baxışı ifadə etməklə həm də daim xatırlanacaq tarix, diplomatiya, siyasət dərsi idi.

Dövlət rəhbərimiz ilk növbədə Rusiya-Ukrayna müharibəsinin ümumi geosiyasi vəziyyəti tamamilə dəyişməsinə, bəzi ənənəvi tərəfdaşlarla ticari əməkdaşlıq sahəsində müəyyən çətinliklərin müşahidə olunmasına diqqət yönəltdi. Belə bir durumda uzun illərdən bəri müasir daşımalar və logistika infrastrukturunun yaradılmasına yatırımlar edərək geniş potensial formalaşdıran Azərbaycanın bu sahədə malik olduğu imkanları nəzərə çatdırdı. Belə ki, Mərkəzi Asiyadan daşınan yüklərin Azərbaycan vasitəsilə Avropaya yönəldilməsi əlavə imkanlar açır.

Bu, eyni zamanda yaşadığımız qitədə sülh və əməkdaşlığın əldə olunmasına, mövcud imkanlardan sosial-iqtisadi inkişaf, insanların rifahı, gələcək nəsillər üçün daha gözəl bir dünyanın qurulması üçün Prezident İlham Əliyevin bütün maraqlı tərəflərə çağırışı idi. Bütün bunları təxminən 30 il əvvəl istəmədən işğalçı müharibəyə cəlb olunan və bunun ağrıacılarını yaşayan, müharibənin xalqlara necə böyük dağıntılar və əziyyətlər gətirdiyini yaxşı bilən, buna görə də Avrasiya qitəsində sülhün bərqərar olmasını istəyən Azərbaycan xalqının rəhbəri diqqətə çəkdi.

Prezident İlham Əliyev panel iclasındakı çıxışı zamanı Ermənistanın 27 il ərzində Azərbaycan ərazisinin 20 faizini işğal altında saxlaması, beynəlxalq hüququ pozması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl etməməsi və bütün bunların müqabilində bu ölkəyə qarşı heç bir sanksiya tətbiq olunmaması faktını xatırlatdı. "Biz hər zaman müharibənin qarşısını almaq üçün Ermənistana qarşı sanksiyaların tətbiq olunmasını istəyirdik. Biz Minsk qrupunun nəticə əldə etməsini gözləyirdik, BMT Təhlükəsizlik Şurasının öz qətnamələrinə hörmət etmələrini gözləyirdik. Lakin heç bir hərəkətin olmadığını gördük və ümumi fikir bundan ibarət idi ki, bu münaqişə dondurulmuşdur".

Azərbaycan Prezidenti ərazi bütövlüyünü və ədaləti bərpa etmək, habelə BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etmək üçün ölkəmizin döyüşmək məcburiyyətində qaldığını, Vətən müharibəsində 3 min şəhid verdiyini diqqətə çatdırdı. Eyni zamanda bildirdi ki, 30 illik işğalı, Livan böyüklüyündə ərazinin tamamilə xarabalıqlar içində olduğunu da unutmamalıyıq. Azərbaycan torpaqlarının işğalı, bir milyon azərbaycanlının evindən didərgin salınması, işğal altında olan ərazilərdəki 67 məsciddən 65-nin dağıdılması və onların təhqir edilməsi - bütün bunlar qonşularımız tərəfindən edilib.

2020-ci ilin noyabrında imzalanmış üçtərəfli Bəyanat, de-fakto Ermənistan tərəfindən kapitulyasiya aktıdır. Əslində, Vətən müharibəsinin nəticələrini, Azərbaycanın bu müharibədə qazandığı tarixi qələbəni beynəlxalq ictimaiyyətlə yanaşı, Ermənistan cəmiyyəti də qəbul edib.

Azərbaycan Prezidenti bir daha bəyan etdi ki, bizim apardığımız müharibənin məqsədi torpaq işğal etmək deyildi. Ona görə 44 gün ərzində şəhər və kəndlərimiz "İsgəndər" raketləri ilə atəşə tutulduğunda belə heç kəs döyüş meydanını tərk etmədi. Müharibə zamanı Ermənistan ordusundakı fərarilərin sayı isə 11 minə çatdı. Bu ona görə baş verdi ki, onların apardığı müharibə işğalçı müharibə idi. "Ermənistanda doğulmuş insanlar üçün Azərbaycana gedib onlara aid olmayan torpaqdan ötrü müharibə etmək həvəsi yox idi".

### Güclənən türk birliyi

Ölkəmizin fəal iştirakı ilə Türk Dövlətləri Təşkilatı da getdikcə güclənir, qlobal proseslərə təsir imkanlarını artırır. Eyni zamanda üzv dövlətlər arasında qarşılıqlı həmrəyliyin, bir-birinə dəstəyin, inam və güvənin parlaq nümunəsini ortaya qoyur. Azərbaycan Prezidentinin təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatının martın 16-da Ankarada keçirilən Fövqəladə Zirvə görüşü də bu baxımdan mükəmməl örnək yaratdı. Fövqəladə Zirvə görüşü fevralda Türkiyənin bir neçə bölgəsində baş vermiş və çoxsaylı insan tələfatına, xəsarət almasına səbəb olmuş güclü zəlzələnin fəsadları ilə bağlı idi. Qeyd edək ki, zəlzələ baş verən andan qardaş Türkiyəyə humanitar yardımlar üçün səfərbər olmuş Azərbaycan xalqı, dövləti çətin anlarında Türkiyəyə ən çox xilasedici, tibb personalı və könüllülər göndərən ölkə idi. Zəlzələ zərərçəkənlərinə yardım məqsədilə dövlətimiz və fərdi vətəndaşlarımız səviyyəsində qardaş Türkiyəyə böyük həcmlərdə maliyyə və humanitar yardımlar da etdi. Azərbaycan bununla hər zaman qardaş ölkənin yanında olduğunu, Şuşa Bəyannaməsi ilə rəsmən müttəfiqlik səviyyəsinə yüksəlmiş münasibətlərə sadiqliyini bir daha real addımları ilə ifadə etdi.

Zirvə görüşündəki tarixi çıxışı zamanı Azərbaycan Prezidenti bu gün bütün dünyada Türkiyə ilə hesablaşaraq ona hörmət etdiklərini, bu ölkənin son 20 ildə cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə böyük və şərəfli yol keçərək, dünyada söz sahibi olduğunu, güc mərkəzinə çevrildiyini vurğuladı. Hərbi güc, müdafiə sənayesi sahəsində böyük uğurlar qazanmış Türkiyədə davamlı sabitliyin təmin olunmasının, ölkənin inkişafının bütün Türk dünyası üçün önəmli şərt olduğunu bildirdi. 2021-ci ilin iyununda Qarabağın tacı olan Şuşa şəhərində Türkiyə ilə Azərbaycan arasında imzalanmış Şuşa Bəyannaməsi əlaqələrimizi rəsmən müttəfiqlik səviyyəsinə qaldırdı. Belə bir müttəfiqlik Azərbaycan və Türkiyənin regiondakı mövqelərini daha da möhkəmləndirir. Bu birgəlik ən müxtəlif təhdidlər qarşısında ölkələrimizi sarsılmaz edir. Azərbaycan Prezidenti bəyan etdi ki, cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan bundan sonra da uzun illər ölkələrimiz arasındakı qardaşlıq əsasında qurulmuş əlaqələrin daha da möhkəmləndirilməsinə böyük töhfələr verəcəkdir.

Dövlət başçısı Vətən müharibəsindəki tarixi qələbəmizdən sonra bölgədəki mövcud vəziyyəti diqqətə çatdırdı. Qarabağın və Şərqi Zəngəzurun Ermənistan işğalından azad olunmasından sonra Azərbaycanın nadir və misligörünməmiş yenidənqurma modeli ilə öz maliyyə resursları hesabına bu ərazilərdə həyata keçirdiyi genişmiqyaslı işlər barədə məlumat verdi. Keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Böyük qayıdış proqramının icrasına artıq başlandığını, yenidənqurma prosesində Türkiyə şirkətlərinin podratçı kimi bir çox infrastruktur layihələrində fəal iştirakına diqqət yönəltdi. İşğaldan azad edilmiş Füzuli rayonunda Özbəkistan tərəfindən məktəbin, Qazaxıstan tərəfindən isə yaradıcılıq mərkəzinin inşasını qardaşlıq jesti kimi dəyərləndirdi.

Azərbaycan Prezidenti həmin Zirvə görüşündəki çıxışı zamanı onu da bəyan etdi ki, türk dünyası türk dövlətlərinin hüdudları ilə məhdudlaşmır və o, daha böyük coğrafiyanı əhatə edir. Dünyada yaşayan azərbaycanlıların sayı 50 milyondan çoxdur və onlardan cəmi 10 milyonu müstəqil Azərbaycan Respublikasında yaşayır.

Qərbi Azərbaycanda etnik təmizləməyə məruz qalan həmvətənlərimizin indi Qərbi Azərbaycan İcmasında birləşdiyi, dövlətimizin onların hüquqlarının bərpası yönündə ardıcıl fəaliyyət həyata keçirdiyi dövrdə bu məsələlərin Türk Dövlətləri Təşkilatlarının da toplantılarında gündəmə gətirilməsi çox əhəmiyyətlidir. Azərbaycan tarixi zəfəri ilə türk dünyasının kommunikasiya baxımından birləşməsi yönündə çox böyük bir tarixi reallıq yaradıb. Vaxtilə türkdilli dövlətlər arasında quru yolla əlaqəni məhdudlaşdırmaq üçün Azərbaycandan qoparılan Zəngəzurdan dəhlizin açılması, əcdadlarımızın əsrlər boyu gedib-gəldikləri bu dəhlizin istifadəyə verilməsi çox böyük perspektivlər yaradır. Bu perspektivdən regionda sülhün, təhlükəsizliyin, qarşılıqlı əməkdaşlıq mühitinin bərqərar olmasına maraq göstərən hər kəs faydalana biləcək.

### Azərbaycan-Çin münasibətləri

Xarici ölkələrlə diplomatik əlaqələrin inkişafından söhbət gedərkən bu sırada Çinlə münasibətlər xüsusilə maraq doğurur. Ümumən, dünyanın gələcəyinə baxış zamanı Çin amilini diqqətdən kənarda qoymaq olmaz. Getdikcə böyüyən iqtisadiyyatı, siyasi iradəsi ilə Çin qlobal proseslərdə zaman keçdikcə daha geniş rol alır və rəsmi Pekinin beynəlxalq siyasi-iqtisadi mənzərəyə təsir imkanlarının zamanla daha da güclənəcəyi şübhə doğurmur. Bu baxımdan, Azərbaycan-Çin münasibətlərinin daim yüksək səviyyədə olması ökəmizin milli maraqlarına xidmət edir.

Azərbaycanın Çinlə münasibətlərə xüsusi önəm verməsini şərtləndirən bir mühüm amil də var. Dünyada güclər balansının qorunması, birqütblülüyün ümumən bəşəriyyət üçün ciddi problemlər yaratmaması üçün qlobal arenada Çin kimi oyunçuların olması çox əhəmiyyətlidir. Hazırda Çin bir hegemon mərkəz tərəfindən verilən ədalətsiz qərarların qarşısında öz iqtisadi-siyasi qüdrətli ilə dayanan və bununla da dünyada birqütblülüyün yaranmasına imkan verməyən əsas təminatçı kimi görünür. Eyni zamanda onu da qeyd etməliyik ki, bəşəriyyət üçün kritik anlarda Çinin davranışlarının digər böyük güclərlə müqayisədə daha ədalətli, insanyönümlü olduğu görünməkdədir. Məsələn, pandemiya dövründə öz ehtiyaclarından qat-qat artıq vaksin toplayaraq xüsusilə kasıb ölkələrin vətəndaşlarını taleyin ümidinə buraxan, onların kütləvi ölümünə yol açan, vaksini də əldə təzyiq alətinə çevirmək niyyətində görünən Avropa ölkələrindən, ABŞ-dən fərqli olaraq Çin həm öz vətəndaşları arasında kütləvi peyvəndləmə aparır, paralel şəkildə həm də digər ölkələrə vaksin ixracını həyata keçirirdi.

Eyni vəziyyət texnologiyalara da aiddir. Qərbin, o cümlədən ABŞ-nin müasir texnologiyalar sahəsindəki üstünlüklərindən istifadə edərək bu sahəni də inhisarında saxlaması, başqa ölkələrin texnologiyalara çıxış imkanlarını məhdudlaşdırmaqla milyonlarla insanı rəqəmsal uçurumun arzuolunmaz səmtində qoyması, beləliklə, onların taleyi ilə bağlı istədiyi qərarı vermək imkanını özündə saxlaması açıq-aşkar görünür. Buna mane olan əsas amil isə Çinin iqtisadi inkişaf tempi, müasir texnologiyaların istehsalındakı yüksək məhsuldarlığıdır. Çin sənayesi, bu ölkənin başqa ölkələrlə tərəfdaşlığa açıqlığı və bütün dünyaya ixrac etdiyi texnoloji məhsullar rəqəmsal imkanları hər kəs üçün əlçatan edir. Belə bir ölkə ilə münasibətlərin daim inkişafı, qarşılıqlı faydalı əlaqələrin genişləndirilməsi Azərbaycanın milli dövlətçilik mənafelərinə daxildir.

Azərbaycanın bir sıra beynəlxalq güclərin Ermənistana havadarlığı ilə cəlb olunduğu regional münaqişənin mahiyyəti də rəsmi Pekinə yaxşı tanışdır. Çünki Çin özü tarix boyu və elə indi də Qərbin mətbəxində hazırlanmış fitnəkar ssenarilərdən qaynaqlanan separatizm meyillərinin əziyyətini çəkib. Ona görə torpaqlarının 20 faizi təxminən 30 ilə yaxın işğal altında qalan, illərdən sonra Vətən müharibəsindəki tarixi qələbəsi ilə işğalçıları ərazilərindən qovaraq regionda yeni tarixi reallıq yaradan Azərbaycanın mövqeyi Çin üçün daha anlaşılandır.

Digər tərəfdən, dünya gücü kimi Çinin özünün də Azərbaycanın müəllifliyi ilə yaradılan bu tarixi reallıqla, bölgənin yaratdığı qlobal imkanlarla bağlı öz geopolitik maraqları olmamış deyil. Rəsmi Pekin "Bir kəmər-bir yol", Orta dəhliz kimi layihələrə xüsusi diqqət göstərir. Dövlətimizin rəhbəri İlham Əliyev və Çin Xalq Respublikasının Sədri Si Cinpin arasındakı dostluq əlaqələri sayəsində hazırda ən yüksək səviyyəyə çatmış Azərbaycan-Çin münasibətləri fonunda bu layihələr iki ölkə üçün də, ümumən dünya üçün də kifayət qədər perspektivli görünür.

### Regionda sülh vaxtıdır

Azərbaycan Prezidenti Cənubi Qafqazda sülh və əməkdaşlıq zamanının çatdığını martın 14-də Almaniyaya səfəri zamanı da bir daha bəyan etdi. Ermənistanın bu şansı qaçırmamalı olduğunu, Cənubi Qafqazda sülh və əməkdaşlıq dövrünün başlanmasının vacibliyini dilə gətirdi. Azərbaycan, Ermənistan və Gürcüstan rəhbərlərinin tarixdə ilk dəfə olaraq Münhen Təhlükəsizlik Konfransı vasitəsilə eyni zamanda bir platformada görüşü də elə regionda sülh və əməkdaşlıq məqsədlərinə xidmət edirdi.

Prezident İlham Əliyevin Almaniyaya səfəri Azərbaycanın Avropanın bu aparıcı ölkəsi ilə münasibətlərinin də yüksək səviyyədə inkişaf etdiyini, hər iki dövlətin bir-birinə qarşılıqlı inam və güvənini, əməkdaşlığın inkişafında maraqlı olduğunu göstərdi. Azərbaycan Prezidentinin səfər zamanı Almaniyanın aparıcı şirkətlərinin rəhbərləri ilə görüşü, tərəfdaşlıq əlaqələrinin inkişafı perspektivlərinin müzakirəsi əhəmiyyətli hadisə oldu.

Bütün bunlar onu göstərir ki, Azərbaycan xarici siyasət xəttini bütün istiqamətlər üzrə uğurla davam etdirir və bu gün tarixinin ən qüdrətli dövrünün yeni nailiyyətlərini qazanır.

### Güclü lider, qalib sərkərdə

Prezident İlham Əliyev XXI əsr tarixində siyasi liderliklə yanaşı, zəfər çalmış hərbi lider obrazını özündə birləşdirir. Bu isə ölkəmizin rəhbərinin potensialının daha bir hüdudsuzluğunun göstəricisidir. Dövlətimizin başçısı ən çıxılmaz məqamlarda, bəzən başqaları üçün həlli mümkünsüz görünən məsələlərdə belə qətiyyətlə məsuliyyəti öz üzərinə götürür və məqsədinə çatır.

Prezidentimizin hadisə və proseslərlə bağlı irəli sürdüyü təşəbbüslər, ortaya qoyduğu mövqe dəfələrlə özünü doğruldub. Eyni zamanda Ali Baş Komandan İlham Əliyev milli maraqlar məsələsində qətiyyətli mövqedə olduğunu hər zaman sübut edib. Bu da onu digər siyasi xadimlərdən fərqləndirən əsas liderlik xüsusiyyətlərindəndir. Siyasətdə sistemli, təmkinli və dəqiq olmalısan. İlham Əliyev bunları, eyni zamanda imkanları, reallıqları düzgün dəyərləndirməyi bacaran liderdir. Bir məqam da bəllidir ki, onun hər bir addımı Azərbaycanın milli maraqlarına uyğundur.

Gələcəyə aydın baxış, liderin təsəvvürdəkiləri reallığa çevirmək məharəti məhz budur!

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

**2018 2023**

## Qlobal lider, qurucu rəhbər, müzəffər komandan






# Qayıdışın qurucusu

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsində cəmi 44 gün ərzində düşmən üzərində çaldığı parlaq zəfər torpaqlarımızın 30 illik işğalına son qoydu, yüz minlərlə vətəndaşımızın yurd həsrətinin geridə qalacağına imkan yaratdı. Yurdlarından zorla didərgin salınaraq illərdir vətəndə qəribçilik çəkən məcburi köçkünlərimizi - cəbrayıllı, zəngilanlı, füzulili, qubadlılı, şuşalı, ağdamlı, kəlbəcərli, laçınlı bəxtəvərlərə çevirdi.**

Müharibə bitdikdən cəmi bir gün sonra üzünü keçmiş köçkünlərə tutaraq, "siz artıq köçkün deyilsiniz" müjdəsini verən qalib lider bu vətəndaşlarımızın illərdir qəlblərində kök salan vətən nisgilini qayıdış xəbəri ilə şadlığa çevirdi.

Bir dövlət başçısı, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı, ən ümdəsi torpağını sevən vətənpərvər şəxsiyyət kimi İlham Əliyev bu insanlarımıza verdiyi sözü qətiyyət və əzmlə yerinə yetirərək onlara yurdlarının azadlığı xoşbəxtliyini yaşatdı.

Sözünə, vədinə sadiq müzəffər lider bunu həm də özünün xoşbəxtliyi sandı və bu kövrək hisslərini dilə gətirərək söylədi ki, mən onlar qədər xoşbəxtəm: "Yəni onlardan fərqlənmirəm. Çünki onları orada görmək, gözlərini görmək, onların sevincini görmək, doğrudan da böyük xoşbəxtlikdir, həddindən böyük xoşbəxtlikdir".

### Çadır şəhərciklərinin ləğvi dövlətimizin böyük uğuru idi

Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev ötən illər ərzində keçmiş məcburi köçkünlərin problemlərinin ardıcıl şəkildə öz həllini tapması istiqamətində mühüm fəaliyyət həyata keçirib. Hələ 2003-cü ildə prezident seçkiləri ərəfəsində İlham Əliyevin proqramının tərkib hissəsini də bu insanların problemlərinin həlli, həyat şəraitlərinin yaxşılaşdırılması təşkil edirdi.

1990-cı illərin əvvəllərində ölkədəki siyasi hərc-mərclik səbəbindən torpaqlarımızın böyük bir hissəsi Hayastan tərəfindən işğala məruz qalmış, bir milyona yaxın vətəndaşımız məcburi köçkünə çevrilmişdi. Məcburi köçkünlüyün ilk illərində dəhşətli məhrumiyyətlərlə, sosial fəlakətlərlə üz-üzə qalan vətəndaşlarımız çadır şəhərciklərinə sığınaraq acınacaqlı şəraitdə yaşamağa məcbur olmuşdular.

Ulu Öndərin apardığı uğurlu siyasət nəticəsində bu çadır şəhərciklərinin xeyli hissəsi 2003-cü ildə ləğv olundu. Belə ki, Heydər Əliyevin 2001-ci il və 2002-ci illərdə imzaladığı müvafiq fərmanlara uyğun olaraq Biləsuvar, Füzuli və Ağdam rayonlarının ərazisində 5081 ailədən ibarət 22800 məcburi köçkün üçün bütün zəruri sosial-texniki infrastrukturu ilə birlikdə 20 qəsəbə salındı və Biləsuvar rayonu ərazisindəki 5 çadır düşərgəsi 2003-cü ilin iyun ayında ləğv edildi.

2007-ci ildə isə Prezident İlham Əliyevin şəxsi əzmi, iradəsi sayəsində Azərbaycanda bütün çadır şəhərcikləri ləğv olundu.

2020-ci il mayın 28-də - Müstəqillik Günündə Prezident İlham Əliyev keçmiş məcburi köçkünlər üçün salınmış "Qobu Park-3" yaşayış kompleksinin açılışındakı çıxışında da çadır şəhərciklərinin ləğv olunmasını dövlətimizin böyük uğuru adlandırdı və söylədi ki, bu, bir daha onu göstərir ki, əgər iradə varsa, əgər siyasət düzgün aparılırsa və əgər insanların ürəyində ən ülvi hisslər reallıqda öz əksini taparsa, istənilən təşəbbüs, istənilən gözəl ideya həyata keçər.

### Son müvəqqəti yaşayış yerindən ilk əbədi qayıdış ünvanına

Dövlət başçısının Müstəqillik Günündəki tarixi çıxışında diqqətçəkən məqamlardan biri isə bu yaşayış məntəqəsinin keçmiş məcburi köçkünlər üçün müvəqqəti yaşayış yeri olmasını vurğulaması idi: "...Bütün Azərbaycan xalqı bilməlidir ki, bu, sizin üçün müvəqqəti yaşayış yeridir. Torpaqlarımız işğaldan azad ediləndən sonra biz bu gün hələ də işğal altında olan torpaqlarda buna oxşar gözəl binalar, şəhərciklər tikəcəyik, ermənilər tərəfindən dağılmış şəhərlərimizi yenidən quracağıq".

Elə Prezident İlham Əliyevlə hər görüşlərində keçmiş məcburi köçkünlər də, dədə-baba torpaqlarına qayıdışla bağlı arzularının tezliklə gerçəyə çevriləcəyinə əmin idilər.

Bəli, bu bir reallıqdır ki, yurdlarından didərgin salınan bu insanların ürəklərindəki torpaqlarına qayıdış ümidini nə Ulu Öndər Heydər Əliyev, nə də Prezident İlham Əliyev sönməyə qoymadı. Bu inamı 1994-cü ildə Horadizə, 2017-ci ildə Cocuq Mərcanlıya gerçəkləşdirilən qayıdış da verdi o insanlarımıza.

Nəhayət, o böyük gün də gəldi və 2020-ci il sentyabrın 27-də Azərbaycan zəfər yürüşünə çıxaraq cəmi 44 gün ərzində düşməni torpaqlarımızdan qovdu və parlaq qələbə qazandı.

Şanlı zəfərin ardınca isə qalib lider İlham Əliyevin növbəti hədəfi işğaldan azad edilən yurdlarımıza əzəli sakinlərinin qayıdışını təmin etməkdi və o, özü bununla bağlı deyir ki, keçmiş köçkünlər üçün elə bir məkan qurmalıyıq ki, bu, 30 il həsrətlə yaşayanlar üçün təsəlli olsun, onlar buna layiqdirlər.

### Milli çağırış

Dövlət başçısı İlham Əliyev Qarabağa və Şərqi Zəngəzura Böyük qayıdışı milli prioritetimiz elan edib, o yerlərə yenidən həyatın qaytarılmasını milli çağırışımız kimi xarakterizə edib. Buna görədir ki, 44 günlük müharibədəki tarixi qələbədən sonra Azərbaycan xalqı Qarabağ və Şərqi Zəngəzurda ard-arda quruculuq və qayıdış Zəfərləri yaşayır. Birbaşa Prezident İlham Əliyevin rəhbərliyi altında işğaldan azad edilən bütün torpaqlarımızda dünyada bənzərinə rastlanmayan quruculuq-bərpa işləri aparılır.

O torpaqlarda ki, 30 illik işğal dövründə Hayastan tərəfindən viran qoyulub, yerləyeksan olunub, bir həyat nişanəsi belə saxlanılmayıb. Hətta vəhşi düşmən o ərazilərimizdə çayları, bulaqları qurudub, meşələrimizi qırıb, yanmış torpaq siyasəti həyata keçirib. Mənfurlar bu vandal yollarla azərbaycanlıların tarixi yurdlarına bir daha dönməmələri kimi iyrənc niyyət güdüblər.

Lakin bu gün nəhəng tikinti-



quruculuq meydanına çevrilən Qarabağ və Şərqi Zəngəzur düşmənin çirkin niyyətinə çatmadığının bariz göstəricisi, hələlik sadəcə Ağalı və Talışdan doğma sakinlərinin ucalan sevinc sədaları isə dövlət başçımızın ifadə etdiyi kimi bu torpaqların əsl sahiblərinin qayıdışının təntənəli ifadəsidir. Çox keçmədən digər işğaldan azad edilən yurdlarımızdan da doğma hənir gələcək.

Qarabağ və Şərqi Zəngəzurda ilk öncə irimiqyaslı infrastruktur layihələri icra olunmağa başlanıb. Bunun üçün dövlətimiz tərəfindən bu yerlərdə qayıdış üçün mühüm layihələr həyata keçirilir, yeni yollar, tunellər çəkilir, elektrik stansiyaları tikilir. Bu istiqamətdə görülən mühüm işlərdən biri də beynəlxalq hava limanlarının istifadəyə verilməsidir. Füzuli Beynəlxalq Hava Limanı cəmi səkkiz ay ərzində tikilib başa çatdırılıb, ötən il oktyabrın 20-də Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi keçirilib. Qarşıda isə bizi Laçın Beynəlxalq Hava Limanının istifadəyə verilməsi kimi mühüm əlamətdar hadisə gözləyir. O cümlədən Qarabağ və Şərqi Zəngəzurda "ağıllı" kənd və şəhərlər qurulur.

### Burada yaşayacağıq, uşaqlar böyüdəcəyik

Sürətli tikinti və quruculuq işləri sayəsində artıq böyük qayıdışın ilk uğurlu təməlləri qoyulub. Qısa zamanda Zəngilanın "ağıllı kənd" konsepsiyası ilə yenidən qurulmuş Ağalı kəndinin sakinləri ötən ilin iyulundan etibarən mərhələli şəkildə doğma od-ocaqlarına qayıdaraq burada yeni və əbədi həyata başlayıblar. "Ağıllı kənd"də müasir şəhərsalma standartları tətbiq olunub və küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğadavamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, günəş panellərinin quraşdırılması kimi amillər bu konsepsiyanın tərkib hissələridir.

Ağalıda Dövlət Xidmətləri Mərkəzi yaradılıb. Eləcə də burada ailə sağlamlıq mərkəzi (tibb məntəqəsi), uşaq bağçası və kənd orta məktəbi tikilib.

30 ilin ardından Ağalı məktəbində çalınan zəng uşaqları dərsə səsləyib, üç onillikdən sonra Ağalını yeni doğulan körpənin hayqırışı bürüyüb...

2022-ci il oktyabrın 19-da Zəngilana yollanaraq ağalılı sakinlərin qonağı olan və onların qayıdış sevincini bölüşən xilaskar lider İlham Əliyev azad edilmiş torpaqlarımıza ilk gələn uşaqlarımızla söhbəti əsnasında vurğuladı ki, sizin burada olmağınız onu göstərir ki, biz azad edilmiş torpaqları tezliklə abadlaşdıracağıq və bu gün hələ də Sumqayıtda, Bakıda, digər rayonlarda yaşayan keçmiş köçkünlər öz dədə-baba torpaqlarına qayıdacaqlar, burada quracaqlar, yaşayacaqlar, uşaqlar böyüdəcəklər.

### Tezliklə bütün keçmiş məcburi köçkünlər yurdlarına qovuşacaqlar

Ağalı sakinlərindən sonra qayıdış xoşbəxtliyini yaşamaq Tərtərin Talış kəndinin sakinlərinin payına düşdü və onlar bu ilin mart ayının 16-da yurdlarına dönərək Novruz bayramını doğma kəndlərində qarşıladılar. Cəmi iki gün sonra, ayın 18-də Talış kəndinə səfər edən dövlət başçısı İlham Əliyev Vətən müharibəsindən sonra Novruz tonqalını üçüncü dəfə Qarabağ torpağında alovlandırdı, xoşbəxtlik hissi ilə bayram təbriklərini xalqımıza bu ulu diyardan çatdırdı.

Martın 28-də isə dövlət başçısı İlham Əliyev qayıdışla bağlı tezliklə yaşanacaq daha bir şad xəbəri verdi, laçınlıların da bu il öz doğma diyarlarına dönəcəklərini müjdələdi.

Digər azad olunan rayonlarımızda olduğu kimi, Vətən müharibəsi başa çatdıqdan dərhal sonra Laçın rayonunda da sürətli tikinti-quruculuq işləri gedir, böyük layihələr həyata keçirilir. Şərqi Zəngəzur iqtisadi bölgəsində yerləşən çətin relyefə malik Laçında yollar çəkilir, tunellər salınır, elektrik stansiyaları quraşdırılır, beynəlxalq hava limanı tikilir.

Laçın şəhərinin yenidən qurulmasına isə ötən ilin avqustun 26-dan sonra start verilib. Birinci mərhələdə Laçın şəhərində 500-ə yaxın fərdi ev inşa edilir və ya ermənilər tərəfindən dağıdılmış evlər yenidən bərpa olunur. Çoxmərtəbəli səkkiz yaşayış binası yenidən qurulur, yaxud tamamilə əsaslı təmir olunur. 30-dan çox ictimai bina inşa edilir. Prezidentin göstərişinə əsasən, bütün bu işlərin cari ilin sonuna qədər başa çatdırılması planlaşdırılıb və bu, birinci mərhələ olacaq. Şəhərin bütün infrastrukturu yenidən qurulur - su, kanalizasiya, elektrik enerjisi xətləri və yollar çəkilir.

Eyni zamanda dövlətimiz Zabux və Sus kəndlərinin tamamilə yenidən qurulması prosesini həyata keçirir. Zabux kəndində 1000-dən çox, Sus kəndində isə 300-dən çox insan yerləşəcək. O cümlədən rayonun Güləbird və Qorçu kəndlərinin baş planı da Prezident tərəfindən təsdiqlənib. Birinci mərhələdə Güləbird kəndində 2400, Qorçu kəndində isə 1300 insanın yerləşməsi nəzərdə tutulur.

Bir sözlə, bu il və gələn il 10 minə yaxın laçınlı keçmiş məburi köçkün öz yurdlarına qovuşdurulacaq.

### Vətən borcunu ödədi, ata vəsiyyətini yerinə yetirdi

Bəli, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı parlaq qələbə Azərbaycan xalqı üçün qürurla dolu əngin üfüqlər açıb.

Bu şanlı zəfər üç onillik boyu əziyyət, mənəvi əzab içində yaşamış keçmiş məcburi köçkünlərin həyatında yeni və xoşbəxt bir səhifə açıb. Yüzminlərlə vətəndaşımızın bir zamanlar arzu kimi görünən torpaqlarına qovuşma istəklərini gerçəyə çevirib, onları məcburi köçkünlük yükündən qurtararaq cəbrayıllı, zəngilanlı, füzulili, qubadlılı, şuşalı, ağdamlı, kəlbəcərli, laçınlı bəxtəvərlərə çevirib...

Bu tarixi zəfər həm də qalib lider İlham Əliyevin vaxtilə vətəni, xalqı qarşısında üzərinə götürdüyü məsuliyyətli bir missiyanın - işğal altında qalan torpaqlarımızın azadlığının uğurla başa çatdırılması idi. Bu qələbə həm də Prezident İlham Əliyevin müqəddəs ata vəsiyyətini yerinə yetirməsi, bu il yüz illik yubileyini təntənəli şəkildə qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirərək torpaqlarımızın azadlığı və qayıdış zirvəsinə yetirməsi idi.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*









2018 2023

# Qlobal lider, qurucu rəhbər, müzəffər komandan





# İlham Əliyevin aqrar islahatları bəhrəsini verir

## Pambıqçılığın inkişafı bir sıra digər sahələrin bərpasına da səbəb olub

**Azərbaycanda həyata keçirilən aqrar islahatlar kənd təsərrüfatında müsbət nəticələrin əldə olunmasına geniş imkan yaradıb.**

Xüsusilə bir zaman unudulmuş, geridə qalmış sahələrin yenidən dirçəldilməsi ardıcıl inkişafa təkan verib. Prezident İlham Əliyevin pambıqçılığın, tütünçülüyün, çəltikçiliyin, çayçılığın və kənd təsərrüfatının digər sahələrinin inkişafı ilə bağlı imzaladığı sərəncamlara uyğun aparılan genişmiqyaslı işlər getdikcə öz bəhrəsini daha çox göstərir.

Pambıqçılığın Azərbaycanda qədim ənənələri var. Xalqımız pambıqçılıqla əsrlər boyu məşğul olub. Ancaq bu sahənin ən sürətli və uğurlu inkişaf dövrü Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Əgər statistikaya nəzər salsaq görərik ki, Ulu Öndərin Azərbaycana birinci rəhbərliyi dövründə pambıq tədarükü bir neçə dəfə artıb. 1980-ci illərin əvvəllərində respublikada ildə 800 min - 1 milyon tona qədər pambıq tədarük edilib.

Ulu Öndər Moskvaya gedəndən sonra Azərbaycanda bütün sahələrdə olduğu kimi, pambıqçılıqda da tənəzzül baş verdi. İldən-ilə pambıq sahələri kiçilirdi və bu proses son illərə qədər davam edirdi.

Müstəqilliyin ilk illərini də yaxşı xatırlayırıq. Bu illər çox ağır keçirdi, dərin siyasi, iqtisadi, hərbi böhran yaşanırdı. Bütün sahələr kimi, kənd təsərrüfatı da tamamilə dağıdılmışdı. Azərbaycan üçün ənənəvi olan pambıqçılıq, üzümçülük məhvə doğru gedirdi. Ancaq 1993-cü ildən sonra Ulu Öndərin rəhbərliyi ilə vəziyyət sabitləşməyə başladı. 1996-cı ildən artıq Azərbaycanda iqtisadi inkişaf başlamışdır.

Prezident İlham Əliyev bu inkişaf istiqamətini uğurla davam etdirərək kənd təsərrüfatında əsaslı dönüş yaratdı. Dövlət başçısı ölkə üçün ənənəvi olan bir çox sahələrin yenidən dirçəldilməsi istiqamətində bir sıra sərəncamlar imzaladı. O cümlədən "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı" qəbul edildi.

Azərbaycanda pambıq istehsalı üçün əlverişli təbii iqlim şəraitinin və ənənələrin mövcudluğu, emal sənayesinin xammala tələbatının yerli istehsal hesabına ödənilməsi imkanları, həmçinin pambıq və ondan hazırlanmış son məhsullar üzrə ixrac potensialı bu sahənin inkişaf etdirilməsi zərurətini yaratmışdır. Buna görə də ölkədə pambıqçılığın inkişafına xüsusi diqqət yetirilməsi aqrar siyasətin prioritet vəzifələrindən biri kimi müəyyən edilmişdir. Ölkənin iqtisadi potensialından daha səmərəli istifadə və ixracyönümlü məhsul istehsalının təşviqi istiqamətində qəbul edilən sözügedən proqram pambıqçılıqda mühüm nəticələrin əldə olunmasına imkan vermişdir. Proqramın icrası pambıqçılıqda sahibkarlığın inkişafını sürətləndirmiş, regionlarda əmək ehtiyatlarından, təbii iqtisadi resurslardan daha səmərəli istifadə olunmasına, infrastrukturun müasirləşdirilməsinə və əhalinin məşğulluğunun artmasına şərait yaratmışdır. Nəticədə aqrar sektorun strateji və ölkəyə valyuta gətirən mühüm sahələrindən olan pambıqçılıq indi bir sıra rayonlarda kənd əhalisinin əsas gəlir mənbəyinə çevrilmişdir.

Kənd Təsərrüfatı Nazirliyinin yaydığı məlumata görə, 2022-ci ildə sahələrdən 322300 ton kondisiya çəkidə pambıq yığılaraq tədarük məntəqələrinə təhvil verilmişdir. Ölkə üzrə orta məhsuldarlıq 30,92 sentner olmuşdur. 2021-ci il mövsümü ilə müqayisədə əkin sahələrinin həcmi (100 min hektar) dəyişməsə də, tarlalardan 35259 ton çox məhsul toplanmışdır. Bu səbəbdən məhsuldarlıq da əvvəlki illə müqayisədə 2,42 sentner artmışdır.

Amma məhsuldarlığın artmasının başqa səbəbləri də var. Düzgün aqrotexniki qulluq, zərərvericilərə qarşı vaxtında və səmərəli mübarizə, yığım prosesinin 100 faizə qədərinin müasir pambıqyığan kombaynlarla aparılması, texnikaların yığımdan əvvəl düzgün dislokasiyası, gübrə və pestisid ilə təminat, düzgün toxum seçimi və digər amillər həmin səbəblərdəndir. Yeri gəlmişkən, qeyd edək ki, ötən mövsüm məhsul yığımı prosesinə ümumilikdə 447 kombayn və 3085 traktor yedəyi cəlb olunmuşdur.

Dövlət dəstəyinin genişləndirilməsi fermerlərin pambıq əkininə marağını getdikcə artırır. Xatırladaq ki, Aqrar Subsidiya Şurasının qərarına əsasən, 2022-ci ilin məhsulu üçün tədarük məntəqələrinə təhvil verilən pambığa görə yalnız məhsul subsidiyası verilmiş, məhsul subsidiyasının məbləği hər tona görə 100 manatdan 170 manata qaldırılmışdır. Bundan əlavə, Kənd Təsərrüfatı Nazirliyinin pambıq tədarükü və emalı müəssisələri ilə apardığı müzakirələr nəticəsində keçən il şirkətlər tərəfindən xam pambığın alış qiyməti yanvar və avqust aylarında hər dəfə 50 manat olmaqla, iki dəfə artırılmışdır. Əvvəl 1-ci sort pambığın 1 tonu fermerlərdən 700 manata alınırdısa, indi təhvil verilən eyni sort pambığın 1 tonuna görə fermerlərə 800 manat ödənilir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə pambıqçılığın inkişafı digər sahələrin də bərpasına imkan yaratdı. Hazırda Azərbaycan dünya bazarına əsasən pambıq mahlıcı və ipliyi ixrac edir. Bununla yanaşı, pambıqçılığın inkişafı ölkəmizdə toxuculuq sənayesinin dirçəldilməsinə də təkan verib. Xammalın yerli məhsuldan olması isə toxuculuq sənayesinə daha geniş imkanlar açır. Pambıq yetişdirən ölkələr belə üstünlüklərdən yararlanırlar. Bu, rəqabət aparmaq üçün istehsalçılarımıza üstünlük qazandıracaq başlıca amildir. Odur ki, gələcəkdə ölkəmiz də dünya bazarına rəqabətqabiliyyətli hazır məhsul çıxara biləcək.

*Rüstəm KAMAL, "Azərbaycan"*

# İlham Əliyevin enerji siyasətinin şah əsəri

## "Şahdəniz" Azərbaycanın müasir neft-qaz strategiyasının rəmzinə çevrilərək ölkəmizlə qoşa irəliləyir

**Bu gün "Cənub qaz dəhlizi" regionda və bir sıra Avropa ölkələrində minlərlə evə və istehsalat sahəsinə istilik bəxş edir.**

Bu möhtəşəm dəhliz Azərbaycan qazını daşıyır, onun çəkilməsinin təşəbbüskarı və reallaşmasının aparıcı qüvvəsi də məhz ölkəmiz olub. Dünyanın bir çox görkəmli siyasətçiləri və neft-qaz mütəxəssisləri vurğulayırlar ki, "Cənub qaz dəhlizi"nin gerçəkləşməsində Prezident İlham Əliyevin müstəsna əməyi və rolu var. Onlar "Cənub qaz dəhlizi"ni "İlham Əliyevin meqalayihəsi" adlandırmaqda heç də yanılmırlar.

Təkcə bir faktı qeyd etmək yetər ki, "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının 2015-ci ildən bəri ildə bir dəfə keçirilən 9 toplantısının 8-nə Azərbaycan evsahibliyi edib. (Həmin tədbirlərdən yalnız biri koronavirus pandemiyası səbəbindən videoformatda keçirilib). Bu da Prezident İlham Əliyevin dünyadakı hörmət və nüfuzunun daha bir təsdiqidir. Çünki Məşvərət Şurasının hər toplantısı sıradan bir tədbir deyil. Dövlətimizin başçısının şəxsən iştirak etdiyi bu iclasların meqalayihənin bütün seqmentlərinin həyata keçirilməsində mühüm əhəmiyyəti olub. Belə ki, layihəyə aid əsas məsələlər məhz bu tədbirdə çözülüb, burada görülmüş işlərdən bəhs olunub, qarşıda duran vəzifələr müzakirə edilib.



"Cənub qaz dəhlizi" Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının qazını nəql edir. "Şahdəniz" son onilliklərdə dünyada kəşf olunmuş ən böyük karbohidrogen yataqlarındandır. "Şahdəniz" həmin yataqdır ki, qədim zamanlardan neft diyarı kimi tanınan Azərbaycan onun sayəsində həm də qaz ixrac edən ölkə kimi şöhrət tapıb.

"Şahdəniz" İlham Əliyevin neft-qaz strategiyasının şah əsəridir!

Xatırladaq ki, "Şahdəniz" yatağı üzrə Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) 1996-cı il iyunun 4-də Bakıda SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) və xarici şirkətlərin konsorsiumu arasında imzalanıb. HPBS Milli Məclis tərəfindən ratifikasiya edilərək həmin il oktyabrın 17-də qüvvəyə minib. 1999-cu ildə isə yataq kəşf edilib.

"Şahdəniz" Bakıdan təqribən 70 kilometr cənub-şərqdə yerləşir. Burada suyun dərinliyi 50 metrdən 600 metrədək dəyişir. Yatağın kollektor dərinliyi 1000 metrdən çoxdur, uzunluğu isə 22 kilometrdir. Bu, 140 kvadratkilometrdən artıq sahəsi və ilkin hesablamalara görə, təqribən 1 trilyon kubmetr mavi yanacaq və 2 milyard barel kondensat ehtiyatı ilə dünyanın ən böyük karbohidrogen yataqlarından biridir. Belə ki, 1997-2001-ci illərdə "Şahdəniz" strukturunda qazılmış kəşfiyyat və qiymətləndirmə quyuları onun dünya səviyyəli qaz-kondensat yatağı olduğunu təsdiq edib.

Bu həmin dövr idi ki, İlham Əliyev SOCAR-da çalışırdı. (1994-2003-cü illərdə şirkətin əvvəlcə vitse-prezidenti, sonra birinci vitse-prezidenti olmuşdur). Prezidentimiz həmin vəzifələrdə işləyərkən "Şahdəniz"in kəşf edilməsində və işlənilməsində böyük rol oynamışdır. Görkəmli geoloq, akademik, SOCAR-ın birinci vitse-prezidenti Xoşbəxt Yuzifzadə " Ömrümün illəri və izləri" kitabında o günləri belə xatırlayır: "İllər ötüb keçdikcə neft və qaz sənayesinin inkişafında İlham Əliyevin xidmətləri barədə düşünəndə Xəzər dənizinin Azərbaycan sektorundakı yataqlara dair müqavilələrə onun hamilik fəaliyyətinin ayrı-ayrı məqamlarını da yada salır və İlham müəllimlə söhbətlərimi xatırlayıram. Yadımdadır, "Şahdəniz" strukturunda 1998-ci ildən qazılan 1 nömrəli axtarış quyusunda işlər bir sıra texniki və texnoloji səbəblərdən uzanırdı. Bundan əvvəl Xəzərin Azərbaycan sektorunda kəşf olunmuş "Əşrəfi" və "Qarabağ" yataqlarından gözlənilən nəticə alınmamış və bu yataqlarda nisbətən az miqdarda karbohidrogen ehtiyatları aşkar edilmişdi ki, bu da respublikada bəzi mütəxəssislər arasında müəyyən söz-söhbətə, müxtəlif şayiələrin yayılmasına səbəb olmuşdu. Belə bir vaxtda cənab İlham Əliyev məni açıq söhbətə dəvət etdi. Mən ona "Şahdəniz" barəsində geniş məlumat verdim. Məlumatı diqqətlə dinlədikdən, müəyyən məsələləri özü üçün dəqiqləşdirdikdən sonra və təqdim etdiyim geoloji məlumatlarla tanış olduqdan sonra o, tam inandı ki, yatağın böyük perspektivləri vardır. Həqiqətən də, "Şahdəniz"dən alınan son məlumatlar həmin söhbət zamanı söylənilən fikirlərin düzgünlüyünü təsdiq etdi".

"Şahdəniz" iki mərhələdə işlənib. Gürcüstan 2006-cı ildən Cənubi Qafqaz Boru Kəməri (CQBK) ilə, Türkiyə 2007-ci ildən Bakı-Tbilisi-Ərzurum (BTƏ) kəməri ilə "Şahdəniz-1" qazı alır. "Şahdəniz-2" isə "Cənub qaz dəhlizi"nin birinci seqmentini təşkil edir və bu mərhələ çərçivəsində çıxarılan mavi yanacaq 2018-ci ilin ortalarından TANAP-la (Trans-Anadolu Qaz Boru Kəməri) Türkiyəyə, 2020-ci ilin son günündən TAP-la (Trans-Adriatik Qaz Boru Kəməri) Avropaya nəql olunur.

"Şahdəniz"in nailiyyətləri göstərdi ki, Ulu Öndər Heydər Əliyevin yeni neft-qaz strategiyası Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və növbəti, daha qlobal layihələrlə təkcə Azərbaycana deyil, bir çox digər ölkələrə də fayda, xeyir-bərəkət gətirir. "Şahdəniz"in işlənməsi bütün dünyaya əyani surətdə sübut etdi ki, ölkəmiz ən mürəkkəb və nəhəng neft-qaz layihələrini də gerçəkləşdirməyə qadirdir. Başqa sözlə, İlham Əliyevin enerji siyasətinin uğurlu nəticələrindən biri olan "Şahdəniz" sanki bugünkü neft-qaz siyasətimizin rəmzinə çevrilərək ölkəmizlə, gündən-günə inkişaf edən iqtisadiyyatımızla qoşa addımlayaraq dünyadakı nüfuzumuzu daha da artırır.

2013-cü il dekabrın 17-də Bakıda, Heydər Əliyev Mərkəzində "Şahdəniz-2" üzrə yekun investisiya qərarının imzalanması mərasimində dövlətimizin başçısının dediyi sözləri xatırlayaq: "Gələcəkdə biz hasil edə biləcəyimiz qədər qaz həcmini nəzərdə tutulmuş kəmərlər vasitəsilə nəql edəcəyik. Təbii ki, "Şahdəniz-2" layihəsi enerji təhlükəsizliyi layihəsidir. Hər bir ölkənin enerji təhlükəsizliyi onun milli təhlükəsizliyindən ayrılmazdır. "Şahdəniz" layihəsinin imzalandığı 1990-cı illərdə bu belə deyildi. Bu gün isə bu, artıq reallıqdır. Enerji təhlükəsizliyinin əsas elementlərindən biri təbii qazdır. Hazırda vəziyyət belədir və zənnimcə, növbəti illərdə heç bir dəyişiklik baş verməyəcəkdir. Bu səbəbdən enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi Azərbaycan kimi istehsalçı ölkə, həmçinin tranzit və istehlakçı ölkələr üçün eyni dərəcədə vacibdir. Əminəm ki, biz istehsalçı, tranzit və istehlakçı ölkələrin maraqlarının düzgün balansına birlikdə nail ola biləcəyik. Hamımız üçün faydalı əməkdaşlıq formatı yaradılacaqdır".

Prezidentimiz qarşıya qoyduğu digər ali məqsədlər kimi buna da nail oldu. Zaman "Şahdəniz"in dəyərinin düşünüldüyündən də qat-qat çox olduğunu göstərdi.

Azərbaycanın neft-qaz strategiyası inamla irəliyə doğru gedir. Nəticədə bu strategiyanın şah əsəri "Şahdəniz" Xəzərdə tək olmayacaq. Prezident İlham Əliyevin dediyi kimi: "Perspektivli yataqlardan çıxarılacaq qazı həm daxili tələbatı ödəmək üçün, eyni zamanda ixrac üçün də nəzərdə tutmuşuq. Hələ ki, bizim ixrac resurs bazamız "Şahdəniz" yatağıdır. Amma yaxın gələcəkdə "Abşeron", "Şəfəq", "Asiman", "Ümid-Babək" və "Azəri-Çıraq-Günəşli"nin dərin qaz adlandırılan yataqlarından qaz hasilatı gözlənilir. Yəni çox böyük resursdur və bütün sadaladığım layihələr üzrə fəal işlər gedir".

Hələlik isə əsas qaz ixracı mənbəyimiz "Şahdəniz"dir.

*Flora SADIQLI, "Azərbaycan"*

# Azərbaycan Prezidenti erməni mifini darmadağın etdi

**30 ilə yaxın işğalda qalan torpaqlarımızın azadlığı ilə nəticələnən, başımızı ucaldan, ruhumuzu yüksəldən 44 günlük Vətən müharibəsində qazandığımız Qələbə həm də ermənilərin uydurduqları mifləri darmadağın etdi.**

Prezident İlham Əliyev çıxışlarında bu məqama toxunaraq demişdir: "Ermənilər bir neçə mif uydurmuşdular ki, onların ordusu "yenilməz ordudur" və onların ordusu bu torpaqları əbədi işğal altında saxlaya bilər. Biz bu mifi dağıtdıq. Erməni ordusu yoxdur bu gün..."

Erməni faşizminin bütün dünyada ifşası, erməni vəhşiliyinin bəşəriyyətə göstərilməsi hər zaman hər bir azərbaycanlının mühüm işi, vəzifəsidir. Bu, əslində, təkcə Azərbaycanın deyil, insanlığı faşizm zəncirindən qoruyan missiyadır.

Birinci Qarabağ savaşından sonrakı dövrdə 2020-ci ilin sentyabrında başlanan Vətən müharibəsinədək ermənilər Qarabağda əbədi olaraq hərbi qələbə əldə etdiklərinə əmin olduqlarını düşünərək əsasən ideoloji, siyasi sahədə də üstünlük qazanmağa, Qarabağdakı müvəqqəti qələbələrini siyasi dairələrdə, danışıqlar masasında da legitimləşdirməyə çalışsalar da, hər dəfə Azərbaycan Prezidentinin tarixi faktlara söykənən dəmir məntiqi ilə üzləşən haylar seytnot vəziyyətinə düşüb yenidən hücuma hazırlaşırdılar. Ermənilərin hər növbəti hücumu məğlubiyyətlə nəticələnirdi. 2020-ci ilin fevral ayında Münhendə keçirilən Beynəlxalq Təhlükəsizlik Konfransında ermənilər Azərbaycan Prezidenti tərəfindən növbəti sarsıdıcı zərbəni aldılar. Dövlətimizin başçısı bütün dünyanın qarşısında canlı yayımda tarixi faktlarla sübut etdi ki, ermənilər Qarabağ xanı İbrahimxəlil xanla rus generalının imzaladığı Kürəkçay müqaviləsindən sonra Qarabağa köçürülüblər. Onlar Qarabağa gəlmədirlər.

2020-ci il oktyabrın 26-da xalqa müraciəti zamanı Münhen Konfransındakı nitqinə toxunan İlham Əliyev bir daha qeyd etdi ki, ermənilər Kürəkçay, Gülüstan, Türkmənçay sülh müqavilələrindən sonra bizim dədə-baba torpaqlarımıza gətiriliblər. Məqsədyönlü şəkildə gətirildilər və ölkəmizin ən dilbər guşələrindən biri olan Qarabağda yerləşdirildilər, onlara şərait yaradıldı. Məqsəd aydın idi - imperiyanın yeni torpaqlarında dini tərkibi dəyişdirmək, müsəlmanları öz dədə-baba torpaqlarından qovmaq, didərgin salmaq və yeni reallıq yaratmaq idi. Bu idi məqsəd və əfsuslar olsun ki, bu məqsədə çatdılar.

İkinci Qarabağ müharibəsi zamanı dövlətimizin başçısının xarici KİV-lərin bəzi təmsilçilərinin erməni lobbisinə xidmət edən, təxribatçı suallarına necə peşəkarlıqla, təkzibedilməz faktlarla, yüksək səviyyədə cavablar verdiyinə şahidlik etdik. Dövlətimizin başçısı erməni saxtakarlıqlarını tarixi faktlarla ifşa edirdi. Necə deyərlər, ermənilər özlərinin qurduqları tələyə düşmüşdülər. Bütün dünya hayların Cənubi Qafqaza XIX əsrin əvvəllərindən başlayaraq köçürüldüyünü, bu gün Ermənistan adlanan dövlətin yerləşdiyi ərazinin tarixi Azərbaycan torpaqları olduğunu eşidirdi.

Addım-addım hədəfə doğru irəliləyən, dediklərini birmənalı olaraq həyata keçirən Prezident İlham Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə yalnız erməni hərb maşınını darmadağın etməyib. Eyni zamanda təhlükəli olan erməni ideologiyasını, saxta erməni təbliğatını da məhv edib.

Dünyaya yalan, saxtakarlıq ixrac edən Hayastan informasiya savaşında da ağır məğlubiyyətə uğradı. Dünya birliyi artıq Hayastanın saxtakar olduğunu dərk etməkdədir.

44 günlük Vətən müharibəsində ağır məğlubiyyətə uğrayan Hayastana Azərbaycanın sülh təklif etməsi, Qarabağda yaşayan ermənilərin hüquqlarının ən yüksək səviyyədə qorunacağı haqqında dövlətimizin başçısının ardıcıl çıxışları və qətiyyətli mövqeyi, Azərbaycan-Hayastan sərhədində beynəlxalq qanunlara uyğun olaraq sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması haqqında Azərbaycan Prezidentinin israrlı təklifi və bu yöndə ortaya qoyduğu prinsipial və qətiyyətli mövqe ermənilərin sülh istəmədiklərini, maraqlı qüvvələrin əlində marionet bir dövlət olduğunu sübut edir.

Silahlı Qüvvələrimizi uğurlu qələbəyə aparan, düşməni ağır məğlubiyyətə uğradan Müzəffər Ali Baş Komandan İlham Əliyev dəmir məntiqi, yüksək elmi potensialı, bənzərsiz idarəetmə qabiliyyəti və qətiyyəti ilə həm də düşmənin yalan üzərində qurulmuş təbliğat maşınını da inkarolunmaz tarixi faktlarla darmadağın etməyi bacardı. Bununla da Hayastanla bütün savaşlarda ölkəsinin qələbəsini, yenilməzliyini təmin edən bir lider, xalqın, vətənin, dövlətin istiqbalı naminə gecəsini gündüzünə qatıb yorulmadan çalışan bir rəhbər olduğunu təsdiq etdi.

*Elşən QƏNİYEV, "Azərbaycan"*

# 2018 2023 Qlobal lider, qurucu rəhbər, müzəffər komandan



# İlham Əliyevin Qran-prisi

## Planetin 500 milyondan çox "Formula-1" azarkeşinin diqqəti artıq 7-ci ildir ki, Azərbaycandadır

**Azərbaycan dünyanın ən mükəmməl idman mərkəzlərindən birinə çevrilib. Hər il ölkəmiz dünyanın ən mötəbər yarışlarına evsahibliyi edir.**
















Prezident İlham Əliyevin yüksək təşkilatçılığı və dəstəyi ilə bu ayın sonlarında sayca 7-ci dəfə keçiriləcək "Formula-1" yarışının 4-cü mərhələsi olan Azərbaycan Qran-prisini 50-dən çox ölkədən xeyli sayda azarkeş paytaxtımızda tribunalardan izləyəcək.

Azərbaycan Qran-prisinin təşkilatçısı olan "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin uğurlu təbliğat kampaniyası ölkəmizdə "Formula-1" yarışını sevənlərin sayını daha da artırdı. Azərbaycanın təbliğini qarşıya məqsəd qoyan Əməliyyat Şirkəti turistlərin ölkəmizə cəlb edilməsinə nail oldu. Ölkəmizdə keçirilən son 6 yarış ərəfəsində paytaxtda hotellərin dolu olması yarışın iqtisadi baxımdan mühüm rol oynadığını nümayiş etdirdi. Auditoriyasına görə futbol üzrə dünya çempionatından və Olimpiya oyunlarından sonra üçüncü yerdə olan "Formula-1" yarışına evsahibliyi etmək ən əsası ölkənin qüdrətindən xəbər verir.

Azərbaycan Prezidenti İlham Əliyev bu yarışın əhəmiyyətini yüksək qiymətləndirərək deyib: "Formula-1" yarışının keçirilməsi hər bir ölkəyə nəsib olmur, hər bir ölkə bu məsuliyyəti öz üzərinə götürə bilmir və çətinlik çəkir. Ancaq biz bu yarışı da uğurla keçirmişik. "Formula-1" yarışının Azərbaycanda keçirilməsinin ölkəmizin dünyada tanıdılması üçün müstəsna əhəmiyyəti vardır. Beş yüz milyon tamaşaçı auditoriyası olan bu yarışa bütün qitələrdə baxıblar və şəhərimizin gözəlliyini, insanlarımızın qonaqpərvərliyini bütün dünya görübdür. Təsadüfi deyil ki, biz də bunu nəzərdə tuturduq, planlaşdırırdıq ki, bu yarışdan sonra ölkəmizə gələn turistlərin sayı dəfələrlə artacaq və artıb. Elə ölkələr var ki, bu il o ölkələrdən Azərbaycana gələn turistlərin sayı 30-40 dəfə artıb və bu proses davam edir".

Beləliklə, ölkəmizin sayca 7-ci dəfə evsahibliyi edəcəyi "Formula-1"in də artıq dünyada Azərbaycan modeli yaranıb. Məlumdur ki, beynəlxalq tədbirlərin keçirilməsi mürəkkəb bir mexanizmə malikdir. Təşkilatçılıq, təhlükəsizlik, iqtisadi və kommunikasiya imkanları hər zaman həlledici rola malikdir. Bir çox ölkələr beynəlxalq tədbirlərə evsahibliyi etmək üçün rəqabət aparır, yarış və tədbirlərin ev sahibləri illər öncə müəyyən olunur. Bu baxımdan beynəlxalq yarış və tədbirlərin Azərbaycanda keçirilməsi ölkəmizin böyük uğurudur. Azərbaycanın dünyada etibarlı tərəfdaş, dünyəvi ölkə, güclü iqtisadiyyata, sabit və təhlükəsiz mühitə malik olması belə tədbirlərə evsahibliyi etmək imkanlarını artırır və bir çox hallarda digər ölkələrlə rəqabətdə üstünlüyə sahib olur.

Bundan öncəki illərdə olduğu kimi, növbəti dəfə Azərbaycan "Formula-1" yarışlarına uğurla evsahibliyi edəcək. Dünyanın bütün qitələrinin telekanallarında yenə də "Bakı", "Azərbaycan" sözləri qürurla səslənəcək. "Formula-1" təqvimindəki ən yeni trekin yarışa hazırlığı yüksək səviyyədədir. Hər şey çox mükəmməl təşkil olunub. Bu il təşkilatçılar ötən illərə nisbətən daha çox hazırlıqlıdırlar. Mütəxəssislər hesab edirlər ki, ötən il Bakıda keçirilən yarış xoş sürprizlə yadda qalmışdı, bu il isə Azərbaycan Qran-prisi daha möhtəşəm olacaq.

Bakı Şəhər Halqası paytaxtımızın tam mərkəzindən və ən gözəl məkanlarından keçir. Təşkilatçılar trekin marşrutunu seçərkən məhz bu məqamı qarşıya məqsəd qoyublar. "Formula-1" Azərbaycan Qran-prisi Azadlıq meydanından start götürəcək və həmin yerdə də başa çatacaq. Trekdə yarış avtomobillərinin hərəkəti saat əqrəbinin əks-istiqamətində olacaq.

Azadlıq meydanı yarışın başlayıb bitdiyi yer olduğu üçün trekin əsas hissəsini təşkil edəcək. Burada inşa olunan Paddok arenasında yarışa nəzarət binası, Beynəlxalq Avtomobil Federasiyasının, "Formula-1" rəhbərliyinin ofisləri, eləcə də 22 iştirakçının hər biri üçün 2 ədəd olmaqla 44 dayanacaq tikilib. Məhz bu ərazidə yarışın startı və finişi olacaq. Qaliblər isə pit binasının podium hissəsində mükafatlandırılacaqlar.

Azadlıq meydanının qarşısı həm də bolidlərin sürətlə hərəkət edəcəyi yoldur. Burada hərəkət zamanı çox gözəl mənzərə yaranacaq. Çünki bir yanda "Formula-1" Paddok Klubunun arxasında görünən Hökumət Evi, digər tərəfdə isə start nöqtəsinə tərəf uzanan dənizkənarı yol və Dənizkənarı Milli Park diqqəti çəkir. Dənizkənarı Milli Park Bakının əvəzsiz incisi və maddi mədəniyyətimizin əsrarəngiz nümunəsi olmaqla yanaşı, şəhərimizin tarixi və müasir simasını təşkil edən xüsusi təbii kompleksdir. Həm də bulvar kimi tanınan bu ərazi son günlər "Formula-1" yarışlarını izləmək üçün paytaxtımıza gələn qonaqların sevimli gəzinti və istirahət yerinə çevrilib.

Yarışın əsas izləyici tribunalarından olan Abşeron tribunası da Azadlıq meydanının qarşısında, bulvar ərazisində yerləşir. Bu tribunadan yarışın ən həlledici məqamlarını, start və finişi izləmək mümkündür. Bulvarı və Hökumət Evini ötdükdən və 90 dərəcəli sol döngədən sonra pilotlar 300 metrlik məsafədə rus şairi A.S.Puşkinin adını daşıyan küçədən keçəcəklər. İkinci döngədən sonra bolidləri trekin Xaqani küçəsi boyu 1 km uzanan və uzunluğuna görə ikinci böyük sürətlənmə xətti sayılan hissəsi gözləyir. Sonra pilotlar yenidən kəskin döngə ilə qarşılaşacaqlar. Bu döngə pilotlara ötmə üçün əla şərait yaradacaq. Şəhər treklərində çox nadir hallarda iki uzun sürətlənmə xətti görmək olar.

Üçüncü döngədən sonra pilotlar sol tərəfə - Bülbül prospektinə doğru yol alırlar. 240 metrlik məsafəni düz keçdikdən sonra 90 dərəcəli sağ döngə ilə qarşılaşırlar. Bu düz yolun sol tərəfində gözəl mənzərəli Sahil bağı yerləşir. Daha sonra pilotlar Zərifə Əliyeva küçəsinə dönəcək, kiçik bucaqlı döngədən sonra 350 metr uzunluğunda məsafə qət edəcəklər. Növbəti 5-ci və 6-cı döngələr pilotları Neftçilər prospektinin əks-istiqamətindəki yola yönəldir. Bura trekin iki fərqli hissəsinin yan-yana olduğu bölmədir. Təxminən 300 metr məsafədə "Formula-1" bolidləri eyni küçədə əks-istiqamətlərdə hərəkət edəcəklər, onları yalnız baryerlər ayıracaq. Bununla trekin müasir Bakının mərkəz hissəsini göstərən görüntüləri sona çatacaq. Bakının bu əraziləri sanki Cənubi Avropanı - Barselona və Nitsanı xatırladır. Bu ərazidə çox sayda mağaza, restoran və kafelər yer alır. Həmçinin müasir memarlıq üslubunda tikilmiş bir neçə ticarət mərkəzi və gözoxşayan mənzərəyə sahib Xəzərin sahili trekə xüsusi gözəllik verir. Bəzi tribunalar da bu zonada yerləşir.

Yeddinci döngədən sonra pilotlar Əziz Əliyev küçəsi ilə İçərişəhərin qala divarlarına tərəf yönələcəklər. Bolidlər 500 metrə yaxın məsafəni ensiz küçələrdə qət edəcəklər. Bu yerlərdə trek qismən səki hesabına genişləndirilib. Trekin ən çox çətinliyə malik hissəsi də buradan və qarşıdakı 8-ci döngədən sonra başlayır. Şəhər trekinin bu hissəsi artıq onun vizit kartına çevrilib. 8-ci döngədən sonra yol maksimal şəkildə daralacaq və bu hissədə pilotları kəskin yoxuş gözləyəcək. Pilotları sol tərəfdə İçərişəhərin qala divarları və giriş qapısı, sağ tərəfdə isə yaşayış binaları əhatə edəcək.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Azərbaycan nümunəsi

## Prezident İlham Əliyevin müəyyənləşdirdiyi mükəmməl mübarizə strategiyası sayəsində ölkəmiz pandemiya sınağından da uğurla çıxdı

Prezident İlham Əliyevin respublikamıza növbəti rəhbərlik müddətinin geridə qalan 5 ili çoxsaylı uğurlarla zəngindir. Bu dövrdə Azərbaycanın nailiyyətlərindən biri də bütün dünyanı bürümüş koronavirus pandemiyası sınağından alnıaçıq çıxmasıdır.

2019-cu ilin dekabrın sonunda qeydə alınan koronavirus bir müddət sonra pandemiyaya çevrildi. Bəzi dövlətlər koronavirusa qarşı mübarizədə vaxtında çevik tez və effektiv addımlar atsalar da, bəziləri vəziyyətin ciddiliyini qəbul etmədilər. Pandemiya zamanı düzgün istiqamət seçən ölkələrdən biri də Azərbaycan oldu.

### Azərbaycan qlobal həmrəyliyi təmin etdi

Prezident İlham Əliyevin COVID-19 pandemiyasına qarşı müəyyənləşdirdiyi mübarizə strategiyası sayəsində Azərbaycan bu qlobal bəlanın doğurduğu itkiləri minimuma endirməyi bacaran dövlətlərdən oldu. "Bizim üçün prioritet məsələ insanların sağlamlığıdır, insanların həyatıdır və insanların sosial müdafiəsidir", - deyən dövlət başçısının siyasəti pandemiyanın ilk günündən buna hədəfləndi.

Bu, Ümumdünya Səhiyyə Təşkilatının rəhbərliyi səviyyəsində bir neçə dəfə etiraf olundu və Azərbaycanın virusa qarşı mübarizədə nümunəvi dövlətlər sırasında olduğu qeyd edildi. ÜST-ün Baş direktoru Tedros Adhanom Gebreyesus Azərbaycanın koronavirus pandemiyasına qarşı mübarizəyə verdiyi qlobal töhfəni yüksək qiymətləndirərək deyib: "Mən Azərbaycan Prezidentinin bu mübarizədə milli, regional və qlobal səviyyədə güclü səylərini görürəm. İmkandan istifadə edərək cənab Prezidentə təşəkkürümü bildirmək istəyirəm ki, bütün səyləri birləşdirir, dəstək verir".

Azərbaycanın pandemiyaya qarşı mübarizə tədbirləri bir çox dövlətlər tərəfindən model olaraq seçildi. Eyni zamanda Prezident İlham Əliyev koronavirusla mübarizədə qlobal həmrəyliyi təmin etdi. İlham Əliyevin təşəbbüsü ilə zirvə görüşlərinin keçirilməsi Azərbaycanın ekstremal vəziyyətlərdə də yüksək idarəçiliyə malik olduğunu və ümumi bəla olan pandemiyaya qarşı qlobal mübarizəyə böyük töhfə verdiyini təsdiqlədi. Qoşulmama Hərəkatının Zirvə Görüşündə Prezident İlham Əliyevin COVID-19 pandemiyasına qarşı mübarizədə beynəlxalq səylərin birləşdirilməsi məqsədilə BMT Baş Məclisinin xüsusi sessiyasının keçirilməsi təşəbbüsü üzv dövlətlər tərəfindən yüksək qiymətləndirildi. Nəticədə dekabrın 3-də Nyu Yorkda BMT Baş Assambleyasının COVID-19 ilə mübarizəyə həsr edilən xüsusi sessiyası keçirildi.

### Koronavirus səbəbindən ən az itki verən ölkələr sırasında olduq

Pandemiya dövründə inkişaf etmiş ölkələrdə belə xəstəxanaların dolub-daşdığının, onların dəhlizlərdə yerləşdirildiyinin, müalicə imkanlarının tükəndiyinin şahidi olduq. Bəzi ölkələr hətta xəstələr arasında seçim etmək, daha ağır vəziyyətdə olanları müalicəyə cəlb etmək məcburiyyətində qaldılar. Qocalar evlərində yüzlərlə insan taleyin hökmünə buraxıldı.

İlk vaxtlar xəstəlik ölkəyə xaricdən gələn insanlarda müşahidə olunurdu və bir müddət sonra daxildə yoluxma halları üzə çıxdı. Bundan sonra bütün qüvvələr və resurslar gözəgörünməz düşmənlə mübarizəyə səfərbər edildi. Vəziyyəti vahid mərkəzdən idarə etmək və birgə fəaliyyət göstərmək məqsədilə fevralın 27-də Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı.

Koronavirus xəstələrinin əksəriyyəti son illərdə tikilmiş 20-dən çox dövlət xəstəxanasında müalicəyə cəlb olundu. Epidemiyanın tüğyan etdiyi günlərdə 575 çarpayılıq "Yeni Klinika"nın açılması, Sumqayıt Kimya Sənayesi Parkında gündə 250 min tibbi maska istehsal edən müəssisənin işə salınması böyük üstünlüyümüz oldu. Həkimlərimizin yüksək peşəkarlığını və fədakarlığını da buraya əlavə etməyi unutmamalıyıq. Sərt və qabaqlayıcı tədbirlər nəticəsində vəziyyəti çox keçmədən nəzarətə almaq mümkün oldu. Yoluxanlarla sağalanların say nisbətində müsbət dinamika yarandı. Azərbaycan səhiyyəsi, o cümlədən tibb işçiləri çətin sınaqdan çıxmaq iqtidarında olduqlarını nümayiş etdirdilər. Görülən işlərin nəticəsidir ki, Azərbaycan koronavirus səbəbindən ən az itki verən ölkələr sırasında oldu.

### Cənubi Qafqazda peyvəndləməyə başlayan ilk ölkə

COVID-19-un yayılmağa başladığı ilk vaxtlardan etibarən dünyanın inkişaf etmiş ölkələri virus əleyhinə peyvənd istehsal etmək üçün yollar axtarmağa, hazırlanmış yeni vaksin nümunələrini sınaqdan keçirməyə başladılar. ÜST 2020-ci ilin dekabrın sonunda koronavirus əleyhinə vaksinlərin istifadəsinə icazə verdi. Bundan bir neçə həftə sonra 2021-ci il yanvarın 18-də Azərbaycanda vaksinasiya prosesinə artıq başlanıldı. Cənubi Qafqazda peyvəndləməyə başlayan ilk ölkə olan Azərbaycanda vaksinasiya prosesi bu gün də davam etdirilir. Bu günə qədər vurulan vaksinlərin ümumi sayı 12 milyona yaxındır.

İlk növbədə xüsusi risk qrupuna aid vətəndaşlar və yaşı 65-dən yuxarı olanlar, daha sonra isə müvafiq olaraq yaşı 50-dən, 40-dan, həmin ilin mayın 10-dan başlayaraq isə yaşı 18-dən yuxarı olan şəxslər peyvəndləməyə cəlb edildilər. Həmin ilin avqust ayından, həmçinin iki doza vaksinasiyadan 5-6 ay vaxt keçmiş vətəndaşların, xüsusilə də risk qrupuna aid şəxslərin qüvvətləndirici - "buster" doza ilə peyvəndlənməsi ölkənin səhiyyə qurumları tərəfindən tövsiyə edildi.

2021-ci il sentyabrın 24-də BMT Baş Assambleyasının 76-cı sessiyasında çıxışı zamanı Prezident İlham Əliyev "peyvənd millətçiliyi"ni tənqid edərkən problemin həlli üçün Qoşulmama Hərəkatı adından Azərbaycanın BMT Baş Assambleyasında qətnamə irəli sürəcəyini elan etdi. Azərbaycan tərəfindən irəli sürülmüş COVID-19 əleyhinə peyvəndlərə bütün ölkələrin bərabər, münasib, vaxtında və universal əlçatanlığının təmin edilməsi ilə bağlı qətnamə 2021-ci il dekabrın 16-da BMT Baş Assambleyasında 179 ölkənin dəstəyi ilə qəbul edildi. Həmin qətnamənin qəbul edilməsi ilə beynəlxalq ictimaiyyət Prezident İlham Əliyevin COVID-19 pandemiyasına, "peyvənd millətçiliyi"nə qarşı təşəbbüslərini dəstəklədiyini bir daha nümayiş etdirdi.

Azərbaycan Qoşulmama Hərəkatı ölkələri də daxil olmaqla, ümumilikdə 30-dan çox ölkəyə pandemiya ilə mübarizə çərçivəsində humanitar və maliyyə yardımı göstərib. Həmçinin ÜST-ə 10 milyon ABŞ dolları həcmində yardım edib. Ölkələrin pandemiya səbəbindən bir sıra sosial-iqtisadi problemlərlə üzləşdiyi dövrdə Azərbaycan azgəlirli dost dövlətlərə də kömək əlini uzadıb, Qırğızıstan, Özbəkistan və Tacikistana, eyni zamanda Türk Dövlətləri Təşkilatı vasitəçiliyi ilə Afrika ölkələrinə humanitar yardım kimi vaksinlər göndərib.

### İqtisadiyyatımızın inkişafı davamlı oldu

COVID-19 pandemiyası zamanı karantin rejiminin tətbiqi mütləq idi. Lakin bunun iqtisadiyyata mənfi təsirlərinin qaçınılmazlığı da hamıya bəlli idi. Azərbaycan bu sınaqdan da uğurla keçdi. Pandemiya səbəbindən Dünya Bankına, Beynəlxalq Valyuta Fonduna müraciət edən 150 ölkə arasında Azərbaycanın olmaması ölkəmizin rəhbərinin düzgün strategiyasının göstəricisidir.

Prezident İlham Əliyevin imzaladağı, pandemiyanın ölkə iqtisadiyyatına və sahibkarlara təsirinin azaldılmasını nəzərdə tutan genişspektrli sərəncama əsasən, Nazirlər Kabinetinə bir milyard manat vəsait ayrıldı. Həmçinin pandemiyanın ölkə həyatının ayrı-ayrı sahələrinə təsirini qiymətləndirmək və təkliflər hazırlamaq üçün İqtisadiyyat, Maliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlərinin və Mərkəzi Bankın sədrinin rəhbərliyi ilə dörd işçi qrup yaradıldı. Pandemiya nəticəsində işsiz qalan şəxslərə 190 manat məbləğində birdəfəlik ödəmə həyata keçirildi. Bu birdəfəlik ödəmə 600 min şəxsə ödənildi.

Prezidentin 2020-ci il 19 mart tarixli fərmanı ilə ölkəmizdə COVID-19 infeksiyasının yayılmasının qarşısını almaq və onunla mübarizə istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyini təmin etmək üçün Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradıldı. Dövlət ilk olaraq fonda 20 milyon manat vəsait ayırdı. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva birillik əməkhaqlarını fonda ianə etdilər. Sonradan bu təşəbbüs genişlənərək xalqımızın xeyirxahlıq ənənələrinə yeni nəfəs verdi.

Koronavirusa qarşı mübarizə tədbirləri səmərə verib və vəziyyət yaxşılığa doğru dəyişib. Mərhələli şəkildə ləğv edilən məhdudiyyətlər də buna misaldır. Ölkəmizdə koronavirusla bağlı vəziyyət dövlətin daim diqqət mərkəzindədir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100; 2016, № 8, maddə 1365, № 11, maddələr 1760, 1782, 1785; 2017, № 5, maddə 726, № 6, maddə 1054, № 7, maddə 1267, № 8, maddə 1513, № 11, maddə 1974, № 12 (I kitab), maddə 2192; 2018, № 2, maddələr 158, 159, № 3, maddə 392, № 5, maddələr 864, 880, № 6, maddə 1191, № 7 (I kitab), maddələr 1383, 1428; 2019, № 1, maddə 8; 2020, № 7, maddələr 828, 851, 856, № 11, 1322, № 12 (I kitab), maddələr 1425, 1427; 2021, № 2, maddə 114, № 7, maddə 703, № 8, maddələr 898, 900, 902; 2022, № 1, maddə 6; Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 628-VIQD nömrəli, 29 noyabr tarixli 658-VIQD nömrəli və 2 dekabr tarixli 668-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda preambula əlavə edilsin:

"Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndinə uyğun olaraq Azərbaycan Respublikasında dövlət qulluğunun hüquqi, təşkilati və maliyyə-iqtisadi əsaslarını müəyyən edir.".

2. 1-ci və 2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**"Maddə 1. Əsas anlayışlar**

1.1. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.1.1. dövlət qulluğu - Azərbaycan Respublikasının Konstitusiyasına və digər normativ hüquqi aktlarına uyğun olaraq dövlətin məqsəd və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluğu vəzifəsində xidmət;

1.1.2. dövlət qulluğunun xüsusi növü - xüsusi, hərbi və ya diplomatik rütbə nəzərdə tutulan vəzifələrdə dövlət qulluğu keçmə;

1.1.3. dövlət qulluqçusu - yalnız bu Qanunun 1.1.4-cü maddəsində nəzərdə tutulan mənbələrdən dövlət məvacibi alan, bu Qanunla müəyyən edilmiş qaydada inzibati və ya yardımçı dövlət qulluğu vəzifəsini tutan və ixtisas dərəcəsi verilən, inzibati vəzifə üzrə ilk dəfə daimi dövlət qulluğuna qəbul edilərkən Azərbaycan Respublikasına sadiq olacağına and içən, Azərbaycan Respublikasının vətəndaşı olan dövlət orqanının işçisi;

1.1.4. dövlət orqanı - Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş hüdudlarda dövlətin məqsədini və funksiyalarını həyata keçirən, Azərbaycan Respublikasının dövlət büdcəsindən, Naxçıvan Muxtar Respublikasının büdcəsindən və qanunla müəyyən edilən hallarda əlavə olaraq büdcədənkənar vəsaitlər hesabına maliyyələşdirilən, Azərbaycan Respublikasının Konstitusiyasına və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq yaradılan və bu Qanunun 7-ci maddəsində nəzərdə tutulan struktura malik olan dövlət təsisatı;

1.1.5. dövlət orqanlarının kateqoriyası (təsnifatı) - dövlət orqanlarının statusu, iyerarxiyası və yurisdiksiyası (ölkə, regional və yerli səviyyədə) nəzərə alınmaqla təsnifləşdirilməsi;

1.1.6. dövlət məvacibi - dövlət qulluqçusuna pul formasında nağdsız qaydada ödənilən aylıq haqq;

1.1.7. dövlət qulluğu vəzifəsi - dövlət orqanının Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilən səlahiyyətlərini icra etmək məqsədilə həmin orqanın strukturuna müvafiq olaraq ştat cədvəlində müəyyən edilən ştat vahidi;

1.1.8. inzibati və yardımçı vəzifələrin təsnifatı - dövlət orqanlarında inzibati və yardımçı vəzifələrin aid olduqları dövlət orqanlarının kateqoriyası nəzərə alınmaqla təsnifləşdirilməsi;

1.1.9. dövlət qulluğunun inzibati vəzifəsi - dövlət orqanının struktur bölməsinin fəaliyyət istiqamətinə uyğun olaraq həmin bölmənin səlahiyyətlərini bilavasitə həyata keçirən, dövlət orqanının strukturuna müvafiq olaraq ştat cədvəlində müəyyən edilən ştat vahidi;

1.1.10. dövlət qulluğunun yardımçı vəzifəsi - dövlət orqanının struktur bölməsinin fəaliyyətini təmin edən, dövlət orqanının strukturuna müvafiq olaraq ştat cədvəlində müəyyən edilən ştat vahidi;

1.1.11. inzibati və yardımçı vəzifələrin təsnifat toplusu - inzibati və yardımçı vəzifələrin adlarını, təsnifatlarını və dövlət qulluqçularının ixtisas dərəcələrini özündə əks etdirən, dövlət orqanlarında ştat cədvəllərinin hazırlanması üçün əsas olan və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən siyahı;

1.1.12. dövlət qulluqçusunun ixtisas dərəcəsi - dövlət qulluqçusunun tutduğu vəzifəyə uyğun olaraq ona verilən ixtisas səviyyəsi;

1.1.13. dövlət orqanının strukturu - dövlət orqanının fəaliyyətini təmin edən struktur qurumlarının normativ hüquqi aktlarla müəyyən edilmiş sistemi;

1.1.14. dövlət orqanının aparatı - özündə struktur bölmələri (şöbə və sektor) birləşdirən və dövlət orqanına həvalə edilmiş səlahiyyətlərin həyata keçirilməsini bilavasitə təşkil və təmin edən dövlət orqanının struktur qurumu;

1.1.15. dövlət orqanının struktur bölməsi - dövlət orqanının rəhbərinin qərarı ilə yaradılan və həmin dövlət orqanının əsasnaməsinə uyğun olaraq ona həvalə edilmiş səlahiyyətləri həyata keçirən dövlət orqanının struktur vahidi;

1.1.16. rotasiya - inzibati vəzifə tutan dövlət qulluqçularının bu Qanunun 31-1-ci maddəsinə uyğun olaraq bir vəzifədən başqa vəzifəyə keçirilməsi;

1.1.17. bilavasitə rəhbər - dövlət qulluqçusunun birbaşa tabe olduğu vəzifəli şəxs;

1.1.18. xidməti fəaliyyət - dövlət qulluqçusunun qanunla müəyyən edilmiş hüquq və vəzifələrinin həyata keçirilməsi ilə əlaqədar fəaliyyəti;

1.1.19. dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi - dövlət qulluqçusunun cari fəaliyyətinə nəzarətin həyata keçirilməsi, onun potensial imkanlarının aşkara çıxarılması və həmin imkanlardan səmərəli istifadə edilməsi, dövlət qulluqçusunun peşə səriştəliyini artırmağa stimullaşdırılması və onun əlavə təhsilə və ya təlimə ehtiyacının, habelə tutduğu vəzifəyə uyğun gəlib-gəlmədiyinin, işçinin vəzifədə irəli çəkilməsi üçün potensialının müəyyənləşdirilməsi məqsədilə keçirilən dövlət qulluqçusunun hər təqvim ilinin sonunda fəaliyyətinin yoxlanılması;

1.1.20. şöbə - dövlət orqanının bir və ya bir neçə fəaliyyət istiqaməti üzrə səlahiyyətlərini həyata keçirən struktur bölməsi;

1.1.21. sektor - dövlət orqanının şöbə daxilində və ya müstəqil şəkildə yaradılan struktur bölməsi;

1.1.22. vəzifə təlimatı - dövlət qulluğu vəzifəsinin adının, qulluq funksiyalarının və həmin vəzifənin tutulması şərtlərinin əks olunduğu və dövlət orqanının rəhbəri tərəfindən təsdiq olunan sənəd;

1.1.23. mərkəzi icra hakimiyyəti orqanı - səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 113-cü maddəsi ilə müəyyən edilən fəaliyyət istiqamətlərinə uyğun sahələrdə dövlət siyasətini və tənzimlənməsini həyata keçirən dövlət orqanı;

1.1.24. mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri - mərkəzi icra hakimiyyəti orqanının yanında yaradılan və sahəvi qanunlarla müəyyən edilən səlahiyyətlərini ölkə səviyyəsində həyata keçirən struktur qurumu;

1.1.25. mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri - mərkəzi icra hakimiyyəti orqanının yerlərdə (rayon, şəhər və region üzrə) fəaliyyətinin təmin edilməsi məqsədilə yaradılan struktur qurumu;

1.1.26. intizam məsuliyyəti - dövlət qulluqçusuna həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsi və ya lazımi şəkildə yerinə yetirilməməsinə (intizam xətasına), habelə bu Qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmamasına görə bu Qanunda nəzərdə tutulmuş intizam tənbehinin tətbiqini nəzərdə tutan hüquqi məsuliyyət növü;

1.1.27. müsabiqə - inzibati vəzifələrin tutulması məqsədilə namizədlərin vakant vəzifələrə uyğunluğunu qiymətləndirmək üçün keçirilən test imtahanından və müsahibədən ibarət proses;

1.1.28. daxili müsahibə - 1-5-ci kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin birinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifənin tutulması üçün keçirilən, həmin dövlət orqanlarında inzibati vəzifələrdə qulluq keçən və inzibati vəzifələrin təsnifatına uyğun ixtisas dərəcəsi olan dövlət qulluqçularının, habelə bu Qanunun 28.12-ci maddəsinin ikinci hissəsində müəyyən edilmiş vəzifələrə iddia edən şəxslərin iştirakını nəzərdə tutan müsahibə;

1.1.29. ümumi müsahibə - 1-5-ci kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin dördüncü-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifənin həmin dövlət orqanında və ya digər dövlət orqanında inzibati vəzifələrdə qulluq keçən və inzibati vəzifələrin təsnifatına uyğun ixtisas dərəcəsi olan dövlət qulluqçuları, habelə azı 5 il qulluq stajı olan və dövlət orqanında inzibati vəzifələrdə çalışmış, həmçinin bu Qanunun 29.3-cü maddəsinin birinci hissəsində nəzərdə tutulmuş digər şəxslər tərəfindən tutulması məqsədilə keçirilən müsahibə.

1.2. Bu Qanunda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

**Maddə 2. Qanunun tətbiq dairəsi**

2.1. Bu Qanun dövlət orqanlarının struktur qurumlarında qulluq keçən dövlət qulluqçularına şamil edilir.

2.2. Bu Qanunda başqa hal nəzərdə tutulmamışdırsa, bu Qanun Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinə və vitse-prezidentlərinə, Azərbaycan Respublikasının Baş nazirinə və onun müavinlərinə, Azərbaycan Respublikası Milli Məclisinin deputatlarına, Azərbaycan Respublikası məhkəmələrinin hakimlərinə, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinə (ombudsmana), Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinə və onların müavinlərinə, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədrinə, sədr müavininə, katiblərinə və digər üzvlərinə, Azərbaycan Respublikası Hesablama Palatasının sədrinə, sədr müavininə və auditorlarına, yerli icra hakimiyyəti orqanlarının rəhbərlərinə (başçılarına), Azərbaycan Respublikasının Audiovizual Şurasının sədrinə, sədr müavinlərinə və digər üzvlərinə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarına, Naxçıvan Muxtar Respublikasının Baş nazirinə və onun müavinlərinə, Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinə (ombudsmana), Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədrinə, Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının sədrinə, sədr müavinlərinə və digər üzvlərinə, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinə, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi Nümayəndəliyinin rəhbərinə və hərbi qulluqçulara şamil olunmur.

2.3. Dövlət qulluğunun xüsusi növündə çalışan şəxslərin qulluq (xidmət) keçməsi bu Qanunun Azərbaycan Respublikası vətəndaşlarının dövlət qulluğuna qəbul edilmək hüququna, dövlət qulluğuna qəbulun şəffaflıq əsasında müsabiqə və müsahibə yolu ilə həyata keçirilməsinə, dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsinə və dövlət qulluğunun digər prinsiplərinə aid müddəaları, həmçinin bu Qanunun 15-1-ci maddəsi nəzərə alınmaqla, Azərbaycan Respublikasının başqa qanunları ilə tənzimlənir. Dövlət qulluğunun xüsusi növü nəzərdə tutulan dövlət orqanlarında çalışan və xüsusi, hərbi və ya diplomatic rütbəsi olmayan şəxslərə (dövlət qulluqçusu olmayan digər işçilər istisna olmaqla) bu Qanun şamil edilir.

2.4. Bu Qanun dövlət orqanlarının tabeliyində olan hüquqi şəxslərin işçilərinə şamil edilmir. Bu işçilərin əmək münasibətləri Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir.".

3. 3-cü maddə üzrə:

3.1. 3.0.2-ci maddədə "icraya" sözü "onların icrasına" sözləri ilə əvəz edilsin;

3.2. 3.0.3-cü maddədə "vəzifə səlahiyyətlərinin yerinə yetirilməsinin" sözləri "qulluq funksiyalarının icrasının" sözləri ilə əvəz edilsin.

4. 4-cü maddə üzrə:

4.1. 4.1.4-cü maddəyə "yuxarı" və "aşağı" sözlərindən sonra "kateqoriya" sözü əlavə edilsin və həmin maddədə "mütləq yerinə yetirilməsi" sözləri "yerinə yetirilməsinin məcburiliyi" sözləri ilə əvəz edilsin;

4.2. 4.1.9-cu maddədə "vəziyyətindən" sözü "mövqeyindən" sözü ilə, "qulluqçuların işgüzarlıq keyfiyyətlərinə dəxli olmayan" sözləri "dövlət qulluqçusunun xidməti fəaliyyətinə aid olmayan" sözləri ilə əvəz edilsin, həmin maddəyə "əqidəsindən," sözündən sonra "həmkarlar ittifaqlarına və ya" sözləri əlavə edilsin;

4.3. 4.1.10-cu maddədən ", xidməti" sözü çıxarılsın;

4.4. 4.1.11-ci maddədə "ləyaqətli yaşayış" sözləri "layiqli həyat" sözləri ilə əvəz edilsin;

4.5. 4.1.12-ci maddə aşağıdakı redaksiyada verilsin:

"4.1.12. dövlət orqanlarının və ya onların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri (hərəkətsizliyi) nəticəsində vurulmuş zərərə görə dövlət orqanlarının məsuliyyət daşıması.";

4.6. 4.3-cü maddədən "və siyasi partiyaların və ictimai birliklərin qərarlarının onlara dəxli yoxdur" sözləri çıxarılsın.

5. 5-ci maddə üzrə:

5.1. 5.1-ci maddənin birinci cümləsindən ", Azərbaycan Respublikasında dövlət qulluqçuları kateqoriyasına aid edilən şəxslərin siyahısını müəyyən etməyi" sözləri çıxarılsın;

5.2. aşağıdakı məzmunda 5.4-cü maddə əlavə edilsin:

"5.4. Şuranın qəbul etdiyi qərarlar icra edilməsi üçün 3 (üç) iş günü müddətində müvafiq dövlət orqanlarına göndərilir. Dövlət orqanlarının rəhbərləri tərəfindən həmin qərarın icra vəziyyəti barədə hesabat 30 (otuz) gün müddətində Şuraya təqdim edilir.".

6. 7-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 7. Dövlət orqanlarının struktur qurumlarında struktur bölmələrinin növləri və yaradılması qaydası**

7.1. Dövlət orqanlarının struktur qurumlarında işçilərin müəyyən edilmiş say həddi daxilində şöbə, onun tərkibində və ya müstəqil olmaqla sektor yaradıla bilər.

7.2. Dövlət orqanlarının struktur qurumlarında struktur bölmənin rəhbəri də daxil olmaqla, şöbə yaradılması üçün minimum 8 ştat vahidi (dövlət sirrinin mühafizəsi üzrə struktur bölmələrdə 3 ştat vahidi), sektor yaradılması üçün minimum 3 ştat vahidi müəyyən edilir.

7.3. Dövlət orqanlarının struktur qurumlarında struktur bölmələrin onlara həvalə edilmiş funksiyalar nəzərə alınmaqla təminedici və yardımçı struktur bölmələr kimi təsnifləşdirilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş siyahı əsasında həyata keçirilir.

7.4. Ali kateqoriya dövlət orqanlarında bu Qanunun 7.1-ci maddəsində nəzərdə tutulanlardan başqa struktur bölmələr də yaradıla bilər.".

7. 8-ci maddə üzrə:

7.1. 8.1.3-cü maddədə "Seçki Komissiyasının Aparatı" sözləri "Seçki Komissiyasının Katibliyi" sözləri ilə, "Milli Televiziya və Radio" sözləri "Azərbaycan Respublikasının Audiovizual" sözləri ilə əvəz edilsin;

7.2. 8.1.4-cü maddəyə "dövlət xidmətləri," sözlərindən sonra "Azərbaycan Respublikasının xarici ölkələrdə ticarət nümayəndələrinin aparatları," sözləri əlavə edilsin;

7.3. 8.3-cü maddə ləğv edilsin.

8. 9-cu, 12-ci və 14-cü maddələr ləğv edilsin.

9. 10.5-ci maddənin birinci cümləsində "orqanları aparatları və bölmələri" sözləri "orqanlarının strukturuna daxil olan struktur qurumların və struktur bölmələrin" sözləri ilə əvəz edilsin.

10. 11-ci maddə üzrə:

10.1. 11.1.2.1-ci maddədə "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında bölmə" sözləri "Azərbaycan Respublikası Prezidentinin köməkçisinin vəzifəsi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında struktur bölmə" sözləri ilə və "dövlət orqanlarında bölmə" sözləri "dövlət orqanlarının struktur bölmələrinin (şöbələrinin)" sözləri ilə əvəz edilsin;

10.2. 11.1.2.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 11.1.2.4-cü maddə əlavə edilsin:

"11.1.2.4. Azərbaycan Respublikası Baş nazirinin, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin sədrlərinin müşavirləri, köməkçiləri vəzifələri.";

10.3. 11.1.3.1-ci maddədə "Administrasiyasında bölmə rəhbərinin müavini" sözləri "Administrasiyasında struktur bölmə rəhbərinin müavini vəzifəsi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin köməkçisi" sözləri ilə və "aparatlarında bölmə" sözləri "aparatlarında struktur bölmə (şöbə)" sözləri ilə əvəz edilsin;

10.4. 11.1.3.3-cü maddədə "bölmə rəhbərlərinin" sözləri "struktur bölmə rəhbərlərinin" sözləri ilə əvəz edilsin;

10.5. 11.1.3.4-cü, 11.1.4.4-cü, 11.1.4.6-cı, 11.1.5.2-ci, 11.1.5.3-cü, 11.1.6.3-cü və 11.1.7.2-ci maddələrdə "bölmə" sözü "struktur bölmə (şöbə)" sözləri ilə əvəz edilsin;

10.6. aşağıdakı məzmunda 11.1.3.5-1-ci maddə əlavə edilsin:

"11.1.3.5-1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinin müşaviri, köməkçisi, Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavininin və Azərbaycan Respublikası Baş nazirinin müavininin köməkçiləri vəzifələri;";

10.7. 11.4-cü maddənin birinci hissəsi və həmin maddənin "Qeyd" hissəsi ləğv edilsin.

11. Aşağıdakı məzmunda 13.5-ci və 15-3-cü maddələr əlavə edilsin:

"13.5. Ali kateqoriya dövlət orqanlarında inzibati və yardımçı vəzifələr tutan dövlət qulluqçularının həmin dövlət orqanlarının fəaliyyətini, dövlət qulluğu vəzifəsinin adını, qulluq funksiyalarını və vəzifənin tutulması şərtlərini özündə əks etdirən vəzifə təlimatları həmin orqanların rəhbərləri tərəfindən təsdiq edilir. 1 - 5-ci kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin birinci-yeddinci təsnifatlarına uyğun olan vəzifələr üzrə vəzifə təlimatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi ümumi şərtlərə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmaqla, müvafiq dövlət orqanlarının rəhbərləri tərəfindən təsdiq edilir.";

**"Maddə 15-3. Dövlət qulluqçularının reyestri**

15-3.1. Dövlət qulluqçularının reyestri dövlət qulluqçuları (o cümlədən stajçı kimi və sınaq müddəti ilə qulluğa qəbul edilmiş şəxslər, habelə dövlət qulluğuna xitam verilmiş şəxslər də daxil olmaqla) barədə məlumatlardan ibarət dövlət informasiya ehtiyatıdır.

15-3.2. Dövlət qulluqçularının reyestri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılır.

15-3.3. Dövlət qulluqçuları reyestrinin aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

15-3.4. Bu Qanunun 15-3.3-cü maddəsində nəzərdə tutulan qaydanın tələblərinin pozulması qanunla nəzərdə tutulmuş hallarda məsuliyyətə səbəb olur.".

12. 16-cı maddə üzrə:

12.1. 16.1-ci maddə ləğv edilsin;

12.2. 16.2-ci və 16.3-cü maddələrin birinci abzaslarına "uyğun olaraq" sözlərindən sonra "dövlət qulluqçularına" sözləri əlavə edilsin.

13. 19-cu maddə üzrə:

13.1. 19.0.4-cü maddədə "dövlət maaşının" sözləri "dövlət məvacibinin" sözləri ilə əvəz edilsin;

13.2. 19.0.5-ci maddədən "və başqa ödənişli" sözləri çıxarılsın.

14. 20-ci maddə üzrə:

14.1. 20.1.1-ci maddədən "dövlət orqanlarında" sözləri çıxarılsın;

14.2. 20.1.2-ci maddədən "və başqa ödənişli" sözləri çıxarılsın;

14.3. 20.1.3-cü maddədə "vəkili" sözü "nümayəndəsi" sözü ilə əvəz edilsin.

15. 22-ci maddə üzrə:

15.1. 22.1-ci maddənin birinci cümləsi çıxarılsın;

15.2. 22.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"22.3. Dövlət orqanlarında inzibati və yardımçı vəzifə tutan dövlət qulluqçularının aylıq vəzifə maaşının minimum məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.".

16. 28.12-ci maddənin birinci hissəsinin birinci cümləsində "müvafiq icra hakimiyyəti orqanında" sözləri "yerli icra hakimiyyəti orqanlarının rəhbərlərinin müavinləri vəzifələrinə" sözləri ilə, ikinci hissəsində "bölmə" sözü "struktur bölmə" sözləri ilə əvəz edilsin.

17. 29.2-ci maddə üzrə:

17.1. birinci hissənin birinci cümləsində "müvafiq icra hakimiyyəti orqanı" sözləri "yerli icra hakimiyyəti orqanlarının rəhbərlərinin müavinləri vəzifələri" sözləri ilə əvəz edilsin;

17.2. üçüncü hissədən "(bu maddənin dördüncü hissəsinə uyğun olaraq dövlət qulluğuna qəbul edilmiş dövlət qulluqçusu isə digər müvafiq icra hakimiyyəti orqanında)" sözləri çıxarılsın;

17.3. dördüncü hissə aşağıdakı redaksiyada verilsin:

"Yerli icra hakimiyyəti orqanlarının rəhbərlərinin müavinləri vəzifələrinin tutulması müsahibə keçirilməklə və ya qulluqda yüksəliş yolu ilə bu Qanunun 29.13-cü maddəsinin müddəaları nəzərə alınmaqla həyata keçirilir.".

18. 29.3-cü maddə üzrə:

18.1. birinci hissənin birinci cümləsində "bölmə" sözü "struktur bölmə (şöbə)" sözləri ilə əvəz edilsin, "(müvafiq icra hakimiyyəti orqanı istisna olmaqla)" sözləri və ikinci cümlə çıxarılsın;

18.2. ikinci hissənin birinci cümləsində "bölmə" sözü "struktur bölmə (şöbə)" sözləri ilə əvəz edilsin və "(müvafiq icra hakimiyyəti orqanı istisna olmaqla)" sözləri çıxarılsın.

19. Aşağıdakı məzmunda 29.13-cü maddə əlavə edilsin:

"29.13. Yerli icra hakimiyyəti orqanlarının rəhbərlərinin müavinləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla təyin olunur.".

20. 30-1.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"30-1.1. İnzibati vəzifə tutan dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi hər təqvim ilinin sonunda həyata keçirilir.".

21. Aşağıdakı məzmunda 31-1-ci maddə əlavə edilsin:

**"Maddə 31-1. Dövlət qulluqçusunun rotasiyası**

31-1.1. Dövlət qulluqçusunun rotasiyası onun qulluq keçdiyi dövlət orqanının rəhbərinin qərarı ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada həyata keçirilir.

31-1.2. Bu Qanunun 31-1.1-ci maddəsində nəzərdə tutulan qaydada siyahısı müəyyən edilən dövlət qulluqçuları rotasiya qaydasında başqa vəzifəyə təyin edilərkən onun qulluq keçdiyi inzibati vəzifənin təsnifatı, ixtisası, xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsi, qulluq stajı, habelə yaşı, ailə və sağlamlıq vəziyyəti nəzərə alınır.

31-1.3. Müvafiq vəzifədə beş ildən az qulluq keçən dövlət qulluqçuları rotasiya olunmur.

31-1.4. Rotasiya qaydasında yaşadığı inzibati ərazi vahidindən kənarda vəzifəyə təyin olunan dövlət qulluqçularına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada kompensasiya və birdəfəlik ödəniş verilir.".

22. 32-ci maddə üzrə:

22.1. 32.2-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu zaman rotasiya olunmuş inzibati vəzifə tutan dövlət qulluqçularına üstünlük verilir.";

22.2. aşağıdakı məzmunda 32.5-ci maddə əlavə edilsin:

"32.5. Dövlət qulluqçusunun potensialından düzgün istifadə edilərək hərtərəfli inkişafına şərait yaratmaq, onun dövlət qulluğunda irəli çəkilməsi və motivasiyasının təmin edilməsi və dövlət qulluğunda insan resurslarından daha səmərəli istifadə edilməklə dövlət orqanının kadr tələbatına olan ehtiyacını vaxtında ödəmək məqsədilə dövlət qulluqçusunun karyerası planlaşdırılır. Dövlət qulluqçularının karyerasının planlaşdırılması üçün dövlət orqanları tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada dövlət qulluqçusunun karyera inkişaf planı hazırlanır.".

23. 32-1-ci maddə üzrə:

23.1. 32-1.5-ci maddədə "tabeliyində olan qurumun" və "tabeliyində olan həmin qurumun" sözləri "digər struktur qurumunun" sözləri ilə əvəz edilsin;

23.2. 32-1.6-cı maddədə "tabeliyində olan" sözləri "digər struktur" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 fevral 2023-cü il*

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 825-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 29 dekabr tarixli 435 nömrəli, "Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi Qaydalarının təsdiq edilməsi barədə" 2001-ci il 3 sentyabr tarixli 569 nömrəli, "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunun təsdiq edilməsi haqqında" 2003-cü il 4 avqust tarixli 911 nömrəli, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli və "Dövlət qulluğu vəzifəsinin tutulması məqsədi ilə müsahibə keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2017-ci il 21 iyun tarixli 1480 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 825-VIQD nömrəli Qanunununqüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Dövlətqulluğu haqqında" Azərbaycan Respublikası Qanununun1.1.11-ci, 7.3-cü maddələrində, 13.5-ci maddəsinin ikinci cümləsində (hər iki halda), 15-3.2-ci, 15-3.3-cü, 22.3-cü, 31-1.1-ci, 31-1.4-cü maddələrində və 32.5-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 1.1.11-ci, 7.3-cü, 15-3.3-cü və 22.3-cü (Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları,habelə digər dövlət orqanlarının xarici ölkələrdə fəaliyyət göstərən nümayəndəlikləri istisna olmaqla) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 29.13-cü maddəsində (birinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavinlərinə münasibətdə Azərbaycan Respublikasının Prezidenti, digər yerli icra hakimiyyəti başçılarının müavinlərinə münasibətdə isə müvafiq yerli icra hakimiyyətlərinin başçıları həyata keçirirlər;

1.4. həmin Qanunun 29.13-cü maddəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavinləri istisna olmaqla digər yerli icra hakimiyyəti başçılarının müavinlərinə münasibətdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri həyata keçirir;

1.5. həmin Qanunun 31-1.1-ci, 31-1.4-cü maddələrində və 32.5-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.6. həmin Qanunun 13.5-ci maddəsinin ikinci cümləsində (birinci halda) və 22.3-cü (Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları, habelə digər dövlət orqanlarının xarici ölkələrdə fəaliyyət göstərən nümayəndəliklərinə münasibətdə)maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.7. həmin Qanunun 15-3.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi nəzərdə tutulur;

1.8. həmin Qanunun 13.5-ci maddəsinin ikinci cümləsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 7.3-cü maddəsinə uyğun olaraq, dövlət orqanlarının struktur qurumlarında onlara həvalə edilmiş funksiyalar nəzərə alınmaqla təminedici və yardımçı struktur bölmələrin siyahısıilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. həmin Qanunun 15-3.3-cü maddəsinə uyğun olaraq, dövlət qulluqçuları reyestrinin aparılması qaydası ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. həmin Qanunun 31-1.1-ci və 31-1.4-cü maddələrinə uyğun olaraq, dövlət qulluqçusunun rotasiyası qaydasını, rotasiya qaydasında yaşadığı inzibati ərazi vahidindən kənarda vəzifəyə təyin olunan dövlət qulluqçularına kompensasiya və birdəfəlik ödəniş verilməsi qaydasını üç ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.4. həmin Qanunun 32.5-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, dövlət qulluqçusunun karyera inkişaf planının hazırlanması qaydasını iki ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.5. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 825-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 28; 2002, № 8, maddə 495; 2005, № 12, maddə 1111; 2007, № 12, maddə 1241; 2008, № 5, maddə 363; 2010, № 2, maddə 80; 2017, № 8, maddə 1518; 2018, № 2, maddə 170, № 11, maddə 2249; 2019, № 1, maddə 75, № 8, maddə 1403; 2020, № 1, maddə 7, № 7, maddə 871, № 11, maddə 1348, № 12(I kitab), maddə 1480; 2021, № 7, maddə 732, № 8, maddə 911, № 9, maddə 982; 2022, № 4, maddə 303; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 12 yanvar tarixli 1962 nömrəli və 14 yanvar tarixli 1979 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.1-ci bənddə "5.2-ci maddəsinin ikinci cümləsində" sözləri "1.1.11-ci maddəsində, 5.2-ci maddəsinin ikinci cümləsində, 7.3-cü maddəsində" sözləri ilə, "12.2-ci maddəsinin ikinci cümləsində" sözləri "13.5-ci maddəsinin ikinci cümləsində (hər iki halda)" sözləri ilə, "17.5-ci maddəsində" sözləri "17.5-ci, 22.3-cü maddələrində" sözləri ilə, "və 30-1.13-cü maddələrində" sözləri ", 30-1.13-cü, 31-1.1-ci, 31-1.4-cü maddələrində, 32.5-ci maddəsinin ikinci cümləsində" sözləri ilə əvəz olunsun və həmin bəndə "15-2.3-cü" sözlərindən sonra ",15-3.2-ci, 15-3.3-cü" sözləri əlavə edilsin;

3.2. 3.1-1-ci bənddə "5.2-ci maddəsinin ikinci cümləsində, 17.4-3-cü maddəsinin ikinci cümləsində" sözləri "1.1.11-ci maddəsində, 5.2-ci maddəsinin ikinci cümləsində, 7.3-cü, 15-3.3-cü maddələrində, 17.4-3-cü maddəsinin ikinci cümləsində, 22.3-cü (Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları, habelə digər dövlət orqanlarının xarici ölkələrdə fəaliyyət göstərən nümayəndəlikləri istisna olmaqla) maddəsində" sözləri ilə əvəz edilsin;

3.3. aşağıdakı məzmunda 3.1-2-3.1-4-cü bəndlər əlavə edilsin:

"3.1-2. həmin Qanunun 29.13-cü maddəsində (birinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavinlərinə münasibətdə Azərbaycan Respublikasının Prezidenti, digər yerli icra hakimiyyəti başçılarının müavinlərinə münasibətdə isə müvafiq yerli icra hakimiyyətlərinin başçıları həyata keçirirlər;

3.1-3. həmin Qanunun 29.13-cü maddəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavinləri istisna olmaqla, digər yerli icra hakimiyyəti başçılarının müavinlərinə münasibətdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri həyata keçirir;

3.1-4. həmin Qanunun 15-3.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi nəzərdə tutulur;";

3.4. 3.2-1-ci və 3.2-2-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"3.2-1. həmin Qanunun13.5-ci maddəsinin ikinci cümləsində (birinci halda), 22.3-cü (Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları, habelə digər dövlət orqanlarının xarici ölkələrdə fəaliyyət göstərən nümayəndəliklərinə münasibətdə), 22.7-2-ci maddələrində, 28.5-ci maddəsinin ikinci hissəsinin ikinci cümləsində, 28.12-ci maddəsininüçüncühissəsində, 29.3-cümaddəsinin birinci hissəsininüçüncücümləsində və 30-1.13-cümaddəsində"orqan (qurum)"dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

3.2-2. həmin Qanunun 31-1.1-ci, 31-1.4-cü maddələrində və 32.5-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;";

3.5. 3.3-cü və 3.23-cü bəndlər ləğv edilsin;

3.6. 3.20-ci bəndə "yuxarı" sözündən sonra "kateqoriya" sözü əlavə edilsin;

3.7. 3.21-1-ci bəndə "Qanunun" sözündən sonra "13.5-ci maddəsinin ikinci cümləsində (ikinci halda)," sözləri əlavə edilsin;

3.8. 3.22-4-cü bənddə "birinci cümləsində (ikinci halda)" sözləri "birinci cümləsində" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 569 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 584; 2003, № 8, maddə 441; 2005, № 11, maddə 1009; 2009, № 6, maddə 419; 2010, № 3, maddə 183; 2013, № 12, maddə 1506; 2015, № 2, maddə 120; 2020, № 12 (I kitab), maddə 1480; 2021, № 3, maddə 221, № 8, maddə 906; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 fevral tarixli 2014 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi Qaydaları"nın3-cü hissəsi ləğv edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 440; 2006, № 3, maddə 229, № 6, maddə 498; 2007, № 2, maddələr 86, 101, № 3, maddələr 217, 227, № 7, maddə 714, № 9, maddə 867, № 10, maddə 948, № 12, maddə 1242; 2008, № 1, maddə 9, № 3, maddələr 173, 179, № 6, maddə 499, № 8, maddələr 717, 723; 2009, № 2, maddə 66, № 6, maddələr 419, 421, 422; 2010, № 2, maddə 80, № 3, maddə 183, № 10, maddə 850; 2011, № 2, maddə 85; 2012, № 11, maddə 1078; 2013, № 3, maddə 236, № 8, maddə 901; 2014, № 9, maddə 1027; 2016, № 5, maddə 854, № 6, maddələr 1029, 1073; 2017, № 5, maddə 840, № 8, maddələr 1519, 1521; 2018, № 7 (I kitab), maddələr 1445, 1486, № 11, maddə 2287; 2019, № 1, maddə 76, № 4, maddə 655, № 6, maddə 1027, № 7, maddə 1211, № 8, maddə 1405; 2020, № 4, maddə 423, № 6, maddə 708; 2021, № 2, maddələr 121, 133, № 7, maddə 744, № 9, maddə 982; 2022, № 1, maddə 27, № 4, maddə 303; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 12 yanvar tarixli 1962 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1.1-ci bənddə "12.1-ci" sözləri "1.1.11-ci" sözləri ilə əvəz edilsin və həmin bənddən "və vəzifələrin tutulması şərtləri" sözləri çıxarılsın;

5.2. 1.2 - 1.4-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"1.2. İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu dövlət orqanlarında ştat cədvəllərinin hazırlanması üçün əsasdır.

1.3. Ali kateqoriya dövlət orqanlarında inzibati və yardımçı vəzifələr tutan dövlət qulluqçularının həmin dövlət orqanlarının fəaliyyətini, dövlət qulluğu vəzifəsinin adını, qulluq funksiyalarını və vəzifənin tutulması şərtlərini özündə əks etdirən vəzifə təlimatları həmin orqanların rəhbərləri tərəfindən təsdiq edilir.

1.4. 1 - 5-ci kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin birinci-yeddinci təsnifatlarına uyğun olan vəzifələr üzrə vəzifə təlimatları Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi ümumi şərtlərə uyğun olaraq, Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi ilə razılaşdırılmaqla, müvafiq dövlət orqanlarının rəhbərləri tərəfindən təsdiq edilir.";

5.3. 1.5-1.8-ci bəndlər ləğv edilsin;

5.4. 1.9.23-cü yarımbəndə "köməkçisi" sözündən əvvəl "müşaviri və" sözləri əlavə edilsin;

5.5. 2.1.4-cü yarımbənd üzrə:

5.5.1. 14-cü abzasa "köməkçiləri" sözündən əvvəl "müşavirləri və" sözləri əlavə edilsin;

5.5.2. 15-ci abzasdan "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası," sözləri çıxarılsın və həmin abzasda "Azərbaycan Respublikası Nazirlər Kabineti yanında olan icra hakimiyyəti orqanları, Milli Televiziya və Radio Şurası aparatlarının" sözləri "Azərbaycan Respublikası Audiovizual Şurası aparatlarının, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyinin" sözləri ilə əvəz edilsin;

5.6. 2.1.5-ci yarımbənd üzrə:

5.6.1. 5-ci abzasdan "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının," sözləri çıxarılsın və həmin abzasda "Milli Televiziya və Radio Şurasının aparatlarında" sözləri "Azərbaycan Respublikası Audiovizual Şurasının aparatlarında, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyində" sözləri ilə əvəz edilsin;

5.6.2. 10-cu abzasda "Milli Televiziya və Radio" sözləri "Azərbaycan Respublikasının Audiovizual" sözləri ilə əvəz edilsin;

5.7. 2.1.6-cı yarımbəndin 2-ci abzasından "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının," sözləri çıxarılsın və həmin abzasda "Milli Televiziya və Radio Şurasının aparatlarında" sözləri "Azərbaycan Respublikası Audiovizual Şurasının aparatlarında, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyində" sözləri ilə əvəz edilsin;

5.8. 2.3.3-cü yarımbəndin 1-ci abzasında "və Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının aparatlarında" sözləri "aparatlarında, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyində" sözləri ilə, "Milli Televiziya və Radio" sözləri "Azərbaycan Respublikası Audiovizual" sözləri ilə əvəz olunsun, həmin abzasdan "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında yaradılan icra hakimiyyəti orqanlarının," sözləri çıxarılsın.

6. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542; 2013, № 1, maddə 29, № 2, maddə 117, № 3, maddə 246, № 8, maddə 909, № 10, maddə 1155, № 12, maddə 1514; 2014, № 5, maddələr 477, 487, № 9, maddə 1027, № 12, maddə 1577; 2015, № 3, maddə 271, № 9, maddə 1005, № 11, maddə 1322, № 12, maddə 1448; 2016, № 2 (II kitab), maddə 273, № 5, maddələr 859, 864, № 8, maddə 1384, № 9, maddə 1464, № 10, maddə 1647, № 11, maddə 1835; 2017, № 3, maddə 353, № 4, maddə 545, № 5, maddə 807, № 8, maddə 1521, № 10, maddə 1797; 2018, № 2, maddələr 191, 215, № 3, maddə 427, № 4, maddə 659, № 7 (I kitab), maddə 1462, № 10, maddə 2017, № 12 (I kitab), maddələr 2538, 2596; 2019, № 3, maddə 406, № 4, maddə 655, № 5, maddələr 820, 826, 848, 852, 857, № 6, maddə 1037, № 12, maddə 1936; 2020, № 1, maddə 7, № 8, maddə 1039, № 10, maddə 1247; 2021, № 1, maddələr 16, 36, № 6 ( I kitab), maddə 567, № 11, maddə 1211, № 12, maddə 1367; 2022, № 1, maddə 29, № 4, maddələr 302, 323, № 5, maddə 475, № 6, maddə 594, № 8, maddə 874, № 10, maddə 1142,№ 12, maddələr 1411, 1428, 1441) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin2.15-ci bəndindən ", müvafiq nümayəndələrin və orqan rəhbərlərinin təqdimatı ilə," sözləri çıxarılsın.

7. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 iyun tarixli 1480 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1096, № 12 (I kitab), maddə 2337; 2019, № 7, maddə 1234; 2021, № 7, maddə 732; 2022, № 1, maddə 27) ilə təsdiq edilmiş "Dövlət qulluğu vəzifəsinin tutulması məqsədi ilə müsahibə keçirilməsi Qaydası"nın 1.1-ci bəndindən "(yerli icra hakimiyyəti orqanları, Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanlar, yerli icra hakimiyyəti başçılarının yanında avtomobil nəqliyyatı ilə sərnişindaşıma idarələri, yerli icra hakimiyyəti başçılarının inzibati ərazi dairələri üzrə nümayəndəlikləri və sahə inzibati ərazi dairələri üzrə nümayəndəlikləri istisna olmaqla)" sözləri çıxarılsın və həmin bəndə "Azərbaycan Respublikasının" sözlərindən əvvəl "yerli icra hakimiyyəti orqanları rəhbərlərinin müavinləri və" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 aprel 2023-cü il*

# "Müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlərin dövlət icbari şəxsi sığorta vəsaiti hesabına maliyyələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli 3493 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlərin dövlət icbari şəxsi sığorta vəsaiti hesabına maliyyələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli 3493 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1071) 1-ci hissəsində "ildə" sözü "və 2023-cü illərdə" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 aprel 2023-cü il*

# Azər Paşa Zəfər oğlu Nemətov



Azərbaycan mədəniyyətinə ağır itki üz vermişdir. Azərbaycan teatr sənətinin tanınmış nümayəndəsi, görkəmli rejissor, Azərbaycan Teatr Xadimləri İttifaqının İdarə Heyətinin sədri, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Xalq artisti, professor Azər Paşa Zəfər oğlu Nemətov 2023-cü il aprelin 9-da ömrünün 76-cı ilində vəfat etmişdir.

Azər Paşa Nemətov 1947-ci il avqustun 13-də Bakı şəhərində anadan olmuşdur. Bülbül adına orta ixtisas musiqi məktəbini bitirdikdən sonra o, 1965-1970-ci illərdə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun Rejissorluq fakültəsində ali təhsil almışdır.

Əmək fəaliyyətinə 1967-ci ildən Azərbaycan Respublikası Nazirlər Soveti yanında Dövlət Radio və Televiziya Verilişləri Komitəsində rejissor assistenti kimi başlayan Azər Paşa Nemətov 1970-1972-ci illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunda assistent olmuş, 1973-1974-cü illərdə isə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında quruluşçu rejissor işləmişdir. O, 1974-1976-cı illərdə indiki Sankt-Peterburq şəhərində Leninqrad Gənc Tamaşaçılar Teatrında rejissor-stajor olaraq çalışdıqdan sonra 1977-ci ildə Bakıya qayıdaraq fəaliyyətini yenidən Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında davam etdirmiş və burada 1990-cı ilədək quruluşçu rejissor, baş rejissor və bədii rəhbər vəzifələrində çalışmış, 1990-1992-ci illərdə Azərbaycan Dövlət Akademik Dram Teatrında quruluşçu rejissor olmuş, 2015-ci ildən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının bədii rəhbəri - baş rejissoru, 2016-cı ildən isə Teatrın bədii rəhbəri - direktoru vəzifəsini tutmuşdur.

Azər Paşa Nemətov 1992-ci ildə Azərbaycan Teatr Xadimləri İttifaqının İdarə Heyətinin sədri seçilərək ömrünün sonunadək ittifaqa rəhbərlik etmişdir.

Azərbaycan teatr sənətinin inkişafında Azər Paşa Nemətovun yüksək ictimai məsuliyyət hissinə malik və müasir teatr texnologiyalarını ustalıqla mənimsəmiş sənətkar kimi özünəməxsus xidmətləri vardır. Milli Dram Teatrının səhnəsində onun Azərbaycan və dünya dramaturji irsinin dəyərli nümunələrinə quruluş verdiyi tamaşalar daim özünün parlaq rejissor həlli ilə seçilmiş, yenilikçi ruhu sayəsində teatr mühitində rəğbətlə qarşılanmış və mütəxəssislər tərəfindən layiqli qiymətini almışdır. Həmin tamaşalar ölkəmizin hüdudlarından kənarda keçirilən müxtəlif festival və müsabiqələrdə də uğurla nümayiş etdirilmişdir.

Azər Paşa Nemətov Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində uzun illər səmərəli pedaqoji fəaliyyət göstərmiş, tədris etdiyi rejissorluq sənətinin əsaslarını yetirmələrinə mənimsətmək üçün qüvvə və bacarığını əsirgəməmişdir.

Respublikanın mədəni-ictimai həyatının fəal iştirakçısı olan Azər Paşa Nemətovun Azərbaycan Teatr Xadimləri İttifaqına rəhbərlik etdiyi illərdə ölkənin teatr həyatında bir çox təqdirəlayiq işlər görülmüşdür.

Azər Paşa Nemətovun Azərbaycan mədəniyyətinin inkişafında xidmətləri dövlət tərəfindən layiqincə qiymətləndirilmişdir. O, 1987-ci ildə Əməkdar incəsənət xadimi və 2002-ci ildə Xalq artisti fəxri adlarını almış, 2007-ci ildə müstəqil Azərbaycanın ali mükafatlarından olan "Şöhrət", 2017-ci ildə 2-ci dərəcəli "Vətənə xidmətə görə" və 2022-ci ildə "Şərəf" ordenləri ilə təltif edilmişdir.

Görkəmli sənətkar, mahir pedaqoq və səmimi insan Azər Paşa Zəfər oğlu Nemətovun xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV, Mehriban ƏLİYEVA, Əli ƏSƏDOV,***
***Sahibə QAFAROVA, Samir NURİYEV, Eldar ƏZİZOV,***
***Fərəh ƏLİYEVA, Adil KƏRİMLİ, Anar RZAYEV,***
***Firəngiz ƏLİZADƏ, Fərhad XƏLİLOV,***
***Şəfiqə MƏMMƏDOVA, Rasim BALAYEV, Hacı İSMAYILOV***



# Ortaq soy-kökə və ümumi tarixə əsaslanan Azərbaycan-Qazaxıstan münasibətləri yeni mərhələyə yüksəlir

Azərbaycanın Mərkəzi Asiya ölkələri, o cümlədən regionun türk dövlətləri ilə münasibətlərə mühüm əhəmiyyət verir. Son illər Prezident İlham Əliyevin Mərkəzi Asiya ölkələrinə, region dövlətlərinin başçılarının isə Azərbaycana səfərləri müntəzəm xarakter alıb. Bu isə təbii olaraq ölkələrarası əlaqələrin inkişafına, yeni əməkdaşlıq imkanlarının yaranmasına gətirib çıxarıb. Azərbaycanın sıx, tarixi əlaqələrə malik olduğu türk dövlətlərindən biri də Qazaxıstandır.

AZƏRTAC dərin köklərə malik Azərbaycan-Qazaxıstan münasibətlərinə bir daha qısa nəzər salır.

Azərbaycan və qazax xalqları arasında mövcud olan tarixi, mədəni və dini ortaqlıqlar iki ölkə arasında əlaqələrin əsasını təşkil edir. Ölkələrimizin ənənəvi dostluq və qardaşlıq əlaqələri əsrlərə söykənir.

Təsadüfi deyil ki, hazırda Qazaxıstanda iki yüz minə qədər azərbaycanlı yaşayır (onların üçdəbir hissəsi Türküstan vilayətindədir). Onlar bu ölkənin elm, incəsənət, kənd təsərrüfatı, biznes və digər sahələrində çalışır, ictimai-siyasi həyatda yaxından iştirak edirlər. (Qeyd: Dahi Azərbaycan şairi Nizami Gəncəvinin həyat yoldaşı Afaq qıpçaq soyundan olub).

Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında diplomatik əlaqələr 1992-ci il avqustun 30-da yaradılıb. 1993-cü ilin yanvarında Qazaxıstanın Azərbaycanda, 2004-cü ilin martında isə Azərbaycanın bu ölkədə səfirlikləri fəaliyyətə başlayıb. 2008-ci ilin sentyabrında Azərbaycanın Qazaxıstanın Aktau şəhərində baş konsulluğu açılıb.

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstana son səfəri 2022-ci il oktyabrın 13-14-də olub və dövlətimizin başçısı Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin VI Zirvə Toplantısında, həmçinin Müstəqil Dövlətlər Birliyi Dövlət Başçıları Şurasının iclasında iştirak edib.

Ötən il avqustun 24-də isə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ölkəmizə rəsmi səfər edib.

Dövlət başçılarımızın sıx münasibətləri ölkələrimiz arasında əlaqələrə mühüm töhfə verir, ikitərəfli əməkdaşlığın yüksələn xətlə inkişafına və daha da güclənməsinə xidmət edir.

Ümumiyyətlə, Azərbaycan və Qazaxıstan prezidentlərinin son illər qarşılıqlı yüksəksəviyyəli səfərləri ikitərəfli münasibətlərə müsbət təsirini göstərib.

İkitərəfli əlaqələrə gəldikdə qeyd etmək yerinə düşər ki, Azərbaycanın işğaldan azad edilmiş Füzuli şəhərində Qazaxıstan hökuməti tərəfindən Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzi tikilməkdədir. Bu addım Azərbaycan Prezidenti və xalqı tərəfindən yüksək qiymətləndirilir.

Bundan əlavə, Qazaxıstanda Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunmuş sənədli film çəkilib və nümayiş olunub. Bu, qazax xalqının Ümummilli Liderə verdiyi böyük dəyərin daha bir göstəricisidir.

Qeyd: Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş sənədli filmdə Qazaxıstan-Azərbaycan dostluq münasibətlərinin inkişafında Ümummilli Liderin xidmətlərindən bəhs edilir. Ekran əsərində hər iki ölkənin siyasi, dövlət və ictimai xadimlərinin Ulu Öndərlə bağlı xatirələri əksini tapıb. Müəllifi jurnalist Asimə Nurbayevna olan filmin çəkilişləri Astana, Aktau və Bakıda aparılıb.

İki ölkənin dostluq münasibətlərinə malik olduğunu nümayiş etdirən məqamlardan biri də Qazaxıstanda Ulu Öndərin adını daşıyan küçənin olmasıdır. Belə ki, paytaxt Astananın mərkəzi küçələrindən biri bu gündən xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adını daşıyacaq.

Qeyd edək ki, Qazaxıstan Respublikası Hökuməti yanında Onomastik Komissiyanın bu il yanvarın 17-də keçirilən iclasında Astana şəhərinin Yesil rayonunda yerləşən küçələrdən birinə Ümummilli Lider Heydər Əliyevin adının verilməsi barədə yekun qərar qəbul olunub. Sözügedən küçə Astana şəhərinin yeni salınmış, müasir bina, ticarət mərkəzi, konqres mərkəzi, mehmanxanaların və digər ictimai-iaşə obyektlərinin yerləşdiyi ərazidədir. Küçənin başında Botanika bağı yerləşir.

Bundan əlavə, L.N.Qümilyov adına Avrasiya Milli Universitetindəki Heydər Əliyev adına auditoriya Azərbaycanın bu ölkədəki səfirliyi tərəfindən yenidən qurulub, son texnoloji avadanlıqlarla təchiz olunub.

İki ölkə arasında əməkdaşlıq ikitərəfli formatla yanaşı, çoxtərəfli səviyyədə də, xüsusilə Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində uğurla davam etdirilir. Hər iki ölkə TDT çərçivəsində əməkdaşlıq sahələrinin genişləndirilməsində və inkişaf etdirilməsində maraqlıdır.

Qazaxıstanın regionda sülhün, təhlükəsizliyin və iqtisadi əməkdaşlığın təşviq edilməsinə yönəlmiş fəaliyyəti, habelə Asiyada təhlükəsizliyin möhkəmlənməsi sahəsində "Asiyada Qarşılıqlı Əməkdaşlıq və Etimad Tədbirləri üzrə Müşavirə"nin yaradılması ilə bağlı təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri Azərbaycan olub.

Eyni zamanda ölkələrimiz arasında geniş hüquq-müqavilə bazası formalaşıb. İndiyədək Azərbaycanla Qazaxıstan arasında 134 sənəd imzalanıb. Bu sənədlər arasında "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında Bəyannamə" (2004-cü il 1 mart, Astana), "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilə" (2005-ci il 24 may, Bakı), "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamə" (2022-ci il 24 avqust, Bakı) xüsusi vurğulanmalıdır.

Regionda yaranmış yeni reallıqlar çərçivəsində nəqliyyat-kommunikasiya xətlərinin açılması istiqamətində aparılan işlər və postmünaqişə dövrünün reallığı olan Zəngəzur dəhlizi Mərkəzi Asiya regionu, o cümlədən Qazaxıstan üçün də yeni fürsətlər yaradır. Ölkələrimizin maraqları bu məsələdə də üst-üstə düşür.

Ölkələrimizin beynəlxalq nəqliyyat-kommunikasiya dəhlizinə çevrilmələrinə xidmət edən "Rəqəmsal İpək Yolu" (Digital Silk Way) layihəsinin əsas hissəsi olan Xəzəraltı fiber-optik kabel magistralının inşası istiqamətində görülmüş işlər təqdirəlayiqdir.

Bununla bağlı vurğulamaq yerinə düşər ki, ötən il sentyabrın 28-də "AzərTelecom" və "Kazakhtelecom" telekommunikasiya şirkətləri arasında Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xəttinin çəkilməsi layihəsi üzrə strateji tərəfdaşlıq haqqında memorandum imzalanıb.

Ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafına 1999-cu ildə yaradılmış Ticari-İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiya da mühüm töhfə verir. Komissiyanın indiyədək 18 iclası keçirilib. Sonuncu iclas ötən il iyulun 5-də Qazaxıstanda baş tutub.

Azərbaycanla Qazaxıstan arasında parlamentlərarası əlaqələr də uğurla inkişaf edir. Hər iki ölkənin qanunverici orqanlarında dostluq qrupları fəaliyyət göstərir.

Azərbaycan-Qazaxıstan əməkdaşlığında ticarət-iqtisadi əlaqələr xüsusi yer tutur. Ölkəmizdə Qazaxıstan investisiyalı 182 kommersiya qurumu (sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat, ticarət, xidmət) qeydiyyatdadır. Qazaxıstandan Azərbaycana 102,2 milyon dollar, Azərbaycandan Qazaxıstana isə 205,2 milyon dollar investisiya qoyulub. Ötən il ölkələrimiz arasında ticarət dövriyyəsi 598,47 milyon dollar təşkil edib.

Bütün bunlarla yanaşı, iki ölkə arasında neft və neft məhsullarının ticarəti sahəsində uğurlu əməkdaşlıq davam etdirilir. Buraya Qazaxıstan mənşəli xam neftin Bakı-Tbilisi-Ceyhan neft boru kəməri ilə dünya bazarına çatdırılması, Qazaxıstan mənşəli xam neftin Azərbaycanda emalı, Qazaxıstan mənşəli xam neftin dünya bazarına təchizatı və sair daxildir. "SOCAR Midstream Operations" MMC 2023-cü ilin martından etibarən Qazaxıstanın Tengiz yatağından ayda 125 min ton həcmində neftin Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə nəqlinə başlayıb. Qazaxıstan neftinin Aktau limanından "Prezident Heydər Əliyev" tankerinə ilk yüklənməsi bu il martın 21-də, "Şuşa" tankerinə ikinci yüklənməsi isə martın 28-də həyata keçirilib.

Azərbaycan və Qazaxıstan, o cümlədən media sahəsində də əməkdaşlıq edirlər.

Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) və Qazaxıstanın "Kazinform" Beynəlxalq İnformasiya Agentliyi informasiya mübadiləsinə dair müqavilə imzalayıblar. AZƏRTAC və "Kazinform", eyni zamanda Dünya Xəbər Agentlikləri Konqresi, Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatı (OANA), Türkdilli Xəbər Agentlikləri Birliyi (TKA) və digər transmilli media platformalarında da əməkdaşlıq edirlər.

Azərbaycan və Qazaxıstanın milli xəbər agentlikləri 1992-ci ildə TKA-nın (Türkdilli xəbər agentlikləri) həmtəsisçiləri olublar.

Ölkələrimiz arasında təhsil sahəsində də əməkdaşlıq mövcuddur. 2022-2023-cü tədris ilinin əvvəlinə olan məlumata əsasən, Azərbaycanda 87 Qazaxıstan vətəndaşı təhsil alır. Bakı Dövlət Universitetində müasir qazax yazılı ədəbiyyatının banisi Abay Kunanbayev adına Qazax Mərkəzi, Qazaxıstanda isə L.Qumilyov adına Avrasiya Milli Universitetində Heydər Əliyev adına auditoriya, Ş.Y.Yesenov adına Kaspi Dövlət Texnologiya və Mühəndislik Universitetində Azərbaycan Respublikasının Tarixi və Mədəniyyətinin Tədqiqatı Mərkəzi fəaliyyət göstərir.

Bütün bunlar onu deməyə əsas verir ki, ortaq soykök və tarixi-mədəni əlaqələrə malik ölkələrimiz arasındakı münasibətlər bundan sonra da hər iki xalqın və dövlətin maraqlarına uyğun inkişaf edəcək və genişlənəcəkdir.

# YAP Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının üzvü Əli Həsənovun 75 illik yubileyi münasibətilə görüş keçirilib

Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının üzvü Əli Həsənovun 75 illik yubileyi münasibətilə görüş keçirilib.



Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov yubilyarı doğum günü münasibətilə təbrik edib. YAP Sədrinin müavini bildirib ki, Əli Həsənov Heydər Əliyev ideyalarına sadiq, möhkəm əqidəli və vətənpərvər şəxsiyyət kimi uzun müddət müxtəlif sahələrdə uğurlu fəaliyyət göstərərək öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib və ölkəmizin inkişafına sanballı töhfələr verib. Əli Həsənovun 2013-2021-ci illərdə Yeni Azərbaycan Partiyasının Sədr müavini kimi partiyanın təşkilatlanmasında və inkişafında xidmətlər göstərdiyini vurğulayan Tahir Budaqov qeyd edib: "Təsadüfi deyil ki, çoxillik və məqsədyönlü fəaliyyətiniz ölkə rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Şöhrət" və 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə təltif olunmağınız əməyinizə verilən yüksək dəyərin bariz nümunəsidir".

"Hazırda da YAP Veteranlar Şurasının üzvü kimi Ümummilli Liderin zəngin dövlətçilik irsinin və əbədiyaşar ideyalarının, Yeni Azərbaycan Partiyasının tarixi ənənələrlə müasir çağırışların vəhdətinə və varislik prinsipinə əsaslanan siyasi dəyərlərinin gənc nəslə aşılanması istiqamətində məqsədyönlü fəaliyyətinizi uğurla davam etdirərək partiyamızın həyatında yaxından iştirak edirsiniz", - deyən YAP Mərkəzi Aparatının rəhbəri Əli Həsənova fəaliyyətində yeni müvəffəqiyyətlər arzulayıb.

Yubilyarı təbrik edən Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının sədri Arif Rəhimzadə qeyd edib ki, Əli Həsənov uzun müddət müxtəlif vəzifələrdə uğurla çalışaraq ona göstərilən etimadı layiqincə doğruldub. Əli Həsənovun hazırda YAP Veteranlar Şurasının üzvü kimi səmərəli fəaliyyət göstərdiyini diqqətə çatdıran Arif Rəhimzadə yubilyara möhkəm cansağlığı və işlərində uğurlar arzulayıb.

Göstərilən diqqətə və ünvanına söylənilən xoş sözlərə görə təşəkkürünü bildirən Əli Həsənov Azərbaycanı tərəqqi və Zəfər zirvəsinə yüksəldən Heydər Əliyev ideyalarına daim sadiq olduğunu diqqətə çatdırıb. O, Ümummilli Liderin ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edən, Azərbaycanın tərəqqisində müstəsna rol oynayan Yeni Azərbaycan Partiyasının həyatında yaxından iştirak etməkdən qürur duyduğunu bildirib. Əli Həsənov bundan sonra da öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün səylərini əsirgəməyəcəyini vurğulayıb.

# XİN: "Azərbaycan tərəfi İranla danışıqları müsbət qiymətləndirir"

"Azərbaycan bütün qonşu ölkələrlə, o cümlədən İranla hər zaman qonşuluq münasibətlərinin inkişafında maraqlı olub. Dövlətlərin ərazi bütövlüyü və suverenliyinə qarşılıqlı əsasda hörmət Azərbaycanın xarici siyasətinin dəyişməz prioritetidir".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə İranın Xarici İşlər Nazirliyinin mətbuat katibi Nasir Kənaninin iki ölkənin xarici işlər nazirləri arasında baş tutmuş son telefon danışıqları ilə bağlı aprelin 10-da verdiyi şərhə dair yerli medianın sualını cavablandırarkən deyib.

Mətbuat katibi qeyd edib ki, bu xüsusda Azərbaycan tərəfi ölkəmizin milli mənafeyi və milli təhlükəsizliyinin təmin olunması üçün səylərini davam etdirir.

"Azərbaycan tərəfi bu danışıqları müsbət qiymətləndirir və məsləhətləşmələrin davam etdirilməsini vacib hesab edir", - deyə Ayxan Hacızadə vurğulayıb.

# Avropada iqtisadi böhran dərinləşir

## İnflyasiya həyatın əsas əlamətlərindən birinə çevrilib

Kapitalizm tərəfdarları bazar iqtisadiyyatı modelini həmişə yüksək qiymətləndiriblər. Tələbin təklifi necə tənzimləməsi, istənilən məsələnin "bazarın necə həll etməsi" ilə bağlı arqumentlər bir vaxtlar demək olar ki, praktik olaraq hər cür problemə cavab kimi təqdim olunurdu.




Lakin Avropada uzun sürən iqtisadi böhran və rekord inflyasiya şəraitində məlum olub ki, bazar münasibətləri təkcə problemləri həll etmir, həm də problemlər yaradır. Cəmiyyətin əhəmiyyətli bir hissəsi çətin sualı həll etmək - ərzaq almaq və ya elektrik enerjisi üçün pul ödəmək məcburiyyətində qaldıqda sosial gərginlik artmağa başlayır ki, bu da analoji vəziyyətə düşməyən elita üçün ciddi problemlər yaradır. Bu halda istər-istəməz nəsə etmək, yəni bazar münasibətlərindən əlavə digər mexanizmləri də işə salmaq lazım olur.

Hazırda sakit Belçika həyəcan təbili çalır. Ölkə əhalisinin əksəriyyətinin müxtəlif məhsul aldığı supermarketlərdə inflyasiya mart ayında tarixdə ilk dəfə olaraq 20 faizi keçərək 20,6 faizə çatıb. İstehlakçıların hüquqlarının müdafiəsi təşkilatı Test Achats Belçikanın Qərbi Avropada ən bahalı enerjiyə sahib olduğunu hesablayıb. Bununla bağlı iqtisadçı Filip Defeyt deyir: "Enerji böhranı kimi, supermarketlərdə ərzaq qiymətlərinin artması da istehlakçılığın qızıl dövrünün bitdiyini göstərir. Ərzaq qiymətlərinin düşəcəyini düşünmək illüziyadır: onlar uzun müddət yüksək qalacaq..."

Kasıb ailələr büdcələrinin əhəmiyyətli bir hissəsini ərzağa xərcləyir və bu qiymət artımı ən çox onlara zərbə vurur.

Fransada pərakəndə satış şəbəkələri hökumətlə razılaşaraq artıq antiinflyasiya səbətləri təklif edir. Məsələn, "Intermarche" 500-ə yaxın məhsulun, o cümlədən şirniyyat və tortların, həmçinin araqdan pivəyə qədər müxtəlif spirtli içkilərin qiymətini dondurub - bu, şübhəsiz ki, çətin həyatı müəyyən dərəcədə "şirinləşdirməyə" kömək edir.

"Carrefour" sabit qiymətlərlə 200 məhsul təklif edir. "Auchan" öz brendinin geniş çeşidli məhsullarını təklif edir, lakin diqqətli istehlakçıların qeyd etdiyi kimi, qiymətləri dondurmazdan əvvəl şəbəkə onları qaldırıb...

Yunanıstanda antiinflyasiya səbəti pərakəndə satış şəbəkələri tərəfindən deyil, hökumət tərəfindən qurulmuşdur, lakin bu ölkədə gəlirlər avrozonada ən aşağı sıralarda olduğundan, dövlət ən yoxsul ailələrin ərzaq alışlarının 10 faizini ödəməyi üzərinə götürüb. Bir neçə ay davam edəcək bu tədbirə təxminən 650 milyon avro xərclənməsi planlaşdırılır və hökumət həmin vəsaiti ölkədə yerləşən iki neft emalı zavodunun mənfəətindən götürəcək.

İspaniyada qiymət artımı ilə üzləşən hökumət çörək, süd, meyvə və tərəvəz də daxil olmaqla, əsas qida məhsullarına ƏDV-ni tamamilə ləğv etmək qərarına gəlib. Analoji plan Portuqaliyada da qəbul olunub və ona subsidiyalar əlavə edilib.

Almaniyada 2023-cü ilin fevralında 2022-ci ilin fevralı ilə müqayisədə ərzaq qiymətləri orta hesabla 21,8 faiz artıb. Eyni zamanda hökumət qiymətləri (elektrik enerjisi qiymətləri istisna olmaqla) məhdudlaşdırmaqdan imtina etsə də, maaşları 5 faiz artırıb. Ancaq bu artım yalnız etirazçılar Almaniyanı meqa tətillə sarsıdandan sonra baş verib.

İsveç Milli İqtisadi Tədqiqatlar İnstitutunun yeni proqnozunda deyilir ki, bu ölkəni üçillik tənəzzül gözləyir. Xüsusilə acınacaqlısı odur ki, bu üç il ərzində son on ildə əldə edilən bütün maaş artımları inflyasiya hesabına aradan qalxacaq. Tənəzzülün 2026-cı ilə qədər davam edəcəyi proqnozlaşdırılır.

Yüksək inflyasiya ötən ildən bəri İsveçi narahat edir, çünki hər şeyin qiyməti artır. Əhali üçün ən ağır olan, təbii ki, ərzaq məhsullarının qiymətlərinin 15-40 faiz artmasıdır.

İsveç kimi rifah dövlətində heç kim ac yatmamalıdır. Bu cür moizələr indi yerli keşişlər tərəfindən elan edilir və məhz ona görə ki, əslində, hər şey tam əksinə baş verir. Yerli din xadimi Leyf Dalin siyasətçiləri laqeydlikdə ittiham edir və bildirir ki, aclıq çəkən isveçlilər pulsuz yemək axtarışında kilsələrə üz tutmaq məcburiyyətindədirlər.

Bunu İsveçdəki "Müsəlman Əməkdaşlığı" İctimai Təşkilatının nümayəndəsi Kalsum Kalim də təsdiqləyir. Onun dediyinə görə, məscidlərdə də xeyriyyəçilik həyata keçirilir və daha çox isveçli müsəlmanlar yoxsulluğa düçar olub yardım istəyirlər.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

**2023-cü il üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 mart 2023-cü il tarixli 261s nömrəli sərəncamı ilə təsdiq edilmiş plana əsasən aşağıdakı ixtisaslara doktorant və dissertant hazırlığı üzrə**

## QƏBUL ELAN EDİR

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | | | Elmlər doktoru proqramı üzrə | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Doktorantura | | | Dissertantura | Doktorantura | | | Dissertantura |
| | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla | | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla* | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla | | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla*** |
| | | | o cümlədən | | | | o cümlədən | | |
| | | | əyani | qiyabi | | | əyani | qiyabi | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| | | | | | | | | | |
| 1201.01 | Cəbr | 1 | | 1 | | | | | |
| 1202.01 | Analiz və funksional analiz | 1 | 1 | | | | | | |
| 1203.01 | Kompüter elmləri | 1 | | 1 | | | | | |
| 1204.01 | Həndəsə | 1 | | 1 | | | | | |
| 2211.01 | Bərk cisim fizikası | 1 | | 1 | | | | | |
| 2303.01 | Qeyri-üzvi kimya | 1 | | 1 | | | | | |
| 5401.01 | İqtisadi coğrafiya | 1 | | 1 | | | | | |
| 5502.01 | Ümumi tarix | 1 | 1 | | 1 | | | | |
| | | | | | | | | | |
| 5706.01 | Azərbaycan dili | 3 | 1 | 2 (MDU üçün 1 məqsəd-li yer) | | | | | |
| 5718.01 | Dünya ədəbiyyatı (rus) | | | | 1 | | | | |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (təhsilin sahələri və səviyyələri üzrə) | | | | | | | | |
| 5801.01 | Fizikanın tədrisi metodikası | 1 | | 1 | | | | | |
| 5801.01 | Musiqinin tədrisi metodikası | 1 | 1 | | | | | | |
| 5801.01 | Azərbaycan dilinin tədrisi metodikası | 1 | 1 | | | | | | |
| 5801.01 | Riyaziyyatın tədrisi metodikası | 1 | | 1 | | | | | |
| 5801.01 | Kimyanın tədrisi metidikası | | | | 1 | | | | |
| 5801.01 | İngilis dilinin tədrisi metodikası | | | | 1 | | | | |
| 5802.01 | Təhsilin təşkili və planlaşdırılması | | | | 1 | | | | |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | 2 | 1 | 1 | 1 | | | | |
| 5808.01 | Sosial pedaqogika | 1 | | 1 | | | | | |
| 6102.01 | Yeniyetmə və uşaq psixologiyası | 1 | | 1 | | | | | |
| 6107.01 | Ümumi psixologiya | 2 | | 2 (MDU üçün 1 məqsəd-li yer) | | | | | |
| | Cəmi: | 21 | 6 | 15 | 6 | | | | |

*Dissertant hazırlığı üzrə adambaşına maliyyələşmə nəzərdə tutulmadığı üçün dissertanturada hazırlıq ali təhsil müəssisələrinin öz əməkdaşları üçün həmin müəssisənin hesabına, digər şəxslər üçün isə ödənişli olacaq.

***Doktoranturaya sənəd qəbulu "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" (TİMS) vasitəsilə elektron qaydada həyata keçiriləcək. Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, orada "Ali və orta ixtisas təhsil müəssisələrinin tələbə qəbulu və qeydiyyatı" xidmətini seçərək, təlimatlara uyğun olaraq qeydiyyatdan keçməlidirlər. Sənəd qəbulu: 12 aprel-16 may 2023-cü il; Fəlsəfə fənni üzrə imtahan 4, 5, 6 sentyabr 2023-cü il; İxtisas imtahanı 11, 12, 13 sentyabr 2023-cü il.***

**Qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:**

- Rektorun adına ərizə;
- Kadrların şəxsi qeydiyyat vərəqi;
- Tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 ölçüdə);
- İş yerindən xasiyyətnamə;
- İş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
- Çap olunmuş elmi əsərlərin siyahısı (və ya fəlsəfə doktoru proqramı üzrə seçilmiş ixtisas üzrə referat (referata rəy tələb olunur));
- Ali təhsil müəssisəsini bitirmək haqqında diplomun (bakalavriat və magistratura təhsil səviyyələri üzrə diplomların surətləri və diploma əlavə) müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması barədə şəhadətnamə);
- Şəxsiyyəti təsdiq edən sənədin surəti.

***QEYD:*** Xarici dildən (ıngilis, alman və fransız dillərindən biri) imtahan Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilir. Dissertanturaya qəbul olunmaq istəyən şəxslər ən azı 2 il elmi və ya elmi-pedaqoji staja malik olmalıdırlar.

**Əlaqə tel: (+99412)493-05-85, 465-81-53**
**Ünvan: AZ 1000, Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi 68**
**http://adpu.edu.az/**

***Rektorluq***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*


# "Azpetrol" şirkətinin kollektivi Ulu Öndərin 100 illik yubileyi ərəfəsində Heydər Əliyev Mərkəzində olub



"Azpetrol" şirkətinin rəhbərliyi və əməkdaşları Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Sərəncamının icrası çərçivəsində Heydər Əliyev Mərkəzində olublar.

Qurumun Mətbuat xidmətindən verilən məlumata görə, şirkətin baş direktoru Ceyhun Məmmədovun rəhbərliyi ilə əməkdaşlar Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətinə həsr olunmuş ekspozisiyalarla yaxından tanış olublar. Mərkəzin əməkdaşları tərəfindən "Azpetrol" kollektivinə dünya memarlığının nadir incilərindən sayılan və Ümummilli Lider Heydər Əliyevin 90 illik yubileyi ərəfəsində açılmış mərkəzin dizaynı, eləcə də əsas fəaliyyət istiqamətləri haqda məlumat verilib.





Qeyd olunub ki, mərkəz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin və azərbaycançılıq məfkurəsinin öyrənilməsi, Heydər Əliyev irsinin tədqiqi və təbliği, elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekologiya və iqtisadiyyatın inkişaf etdirilməsinə xidmət edən layihələrin həyata keçirilməsi, Azərbaycan tarixi və mədəniyyətinin, dilinin və digər milli-mənəvi sərvətlərinin beynəlxalq aləmdə tanıdılması və təbliği, eləcə də dünya mədəniyyətinin, müxtəlif sivilizasiya nümunələrinin Azərbaycanda tanıdılması, yerli, regional və beynəlxalq konfrans, simpozium və digər tədbirlərin keçirilməsi istiqamətində fəaliyyət göstərir.

Heydər Əliyev irsinin araşdırılması, təbliği və fondlarda qorunması istiqamətində fəaliyyət göstərən mərkəzin ən çox maraq doğuran bölümü isə Heydər Əliyev Muzeyidir. Muzey Azərbaycan tarixinin və Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dönəmlərini əks etdirir. Burada toplanan məlumatlar ziyarətçilərə interaktiv formada çatdırılır. Üç mərtəbədən ibarət muzeydə Ümummilli Lider Heydər Əliyevə aid maraqlı faktlar, foto və videomateriallar və digər unikal eksponatlar təqdim olunur.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollektivi nazirliyin Aran regional bölməsinin əməkdaşı Vüqar Cəfərova atası

**SƏFƏR CƏFƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Cəmilə Ağamoğlanovaya atası

**SABİR VAHABOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlar İttifaqının Katibliyi və İdarə Heyətinin sədri Elbay Qasımzadə Xalq artisti, Azərbaycan Teatr Xadimləri İttifaqı İdarə Heyətinin sədri, Azərbaycan Dövlət Akademik Dram Teatrının bədii rəhbər-direktoru

**AZƏR PAŞA ZƏFƏR OĞLU NEMƏTOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

BDU-nun Tarix fakültəsinin dekanlığı və Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının əməkdaşları kafedranın doktorantı Elnarə Bayramovaya atası

**SABİR BAYRAMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Xalq artisti, Azərbaycan Teatr Xadimləri İttifaqı İdarə Heyətinin sədri

**AZƏR PAŞA NEMƏTOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin kollektivi Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının rejissoru, Əməkdar incəsənət xadimi, Xalq artisti, Prezident təqaüdçüsü

**İRANƏ TOFİQ QIZI TAĞIZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin kollektivi Azərbaycan Teatr Xadimləri İttifaqı İdarə Heyətinin sədri, Əməkdar incəsənət xadimi, Xalq artisti, Mədəniyyət İşçiləri HİRK Rəyasət Heyətinin üzvü

**AZƏR PAŞA ZƏFƏR OĞLU NEMƏTOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5627**
**Sifariş 902**

**Qiyməti 40 qəpik**